RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 10 (9755) 17 yanvar 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevin əsas məramı dəyişmir

## Neft kapitalı xalqın rifahına xidmət edir

Hazırda dünya enerji keçidi dövrünü yaşayır. Ekoloji cəhətdən təmiz olan "yaşıl enerji" layihələri getdikcə geniş vüsət alır. Dərin biliyə və uzaqgörənlik qabiliyyətinə malik bir çox mütəxəssis vurğulayır ki, bununla yanaşı, bəşəriyyətə neft və qaz da hələ uzun müddət lazım olacaq. Hərçənd müxtəlif yerlərdə bəzi dairələr neft və qazın atmosferi çirkləndirdiyini bəhanə gətirərək yanacaq enerjisini gözdən salmağa cəhd edirlər.

Azərbaycan da karbohidrogen ehtiyatları bol olan, onları hasil və ixrac edən ölkələr sırasında dayandığı üçün Prezident İlham Əliyev bir sıra mötəbər tədbirlərdə həmin dairələrə tutarlı cavab verib. Belə ki, əsas məsələ onlardan necə istifadə etməkdir. Bizdə bu sərvət müxtəlif vasitələrlə cəmiyyətə yönəldilib, inklüziv cəmiyyət qurulub, yoxsulluq 50 faizdən 5 faizə endirilib. Xarici borc təxminən 100 faizdən 7,7 faizə düşüb. Üstəlik də enerji keçidi məsələsində irəlidəyik, "yaşıl gündəliy"imiz artıq hamıya bəllidir. Eyni zamanda ölkəmizin iqtisadiyyatında neft-qaz sektoru önəmli rol oynamaqda davam edir.

Keçən il sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Prezidentimiz neft hasilatının sabit saxlanılmasının vacibliyini qeyd etmişdir: "Gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır".

→ 6

# Dövlət Neft Fondunun beynəlxalq əlaqələri genişlənir



## Prezident İlham Əliyev "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Consonu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da aktivlərin idarə edilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Consonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurları və beynəlxalq əməkdaşlığa verdiyi töhfələri vurğulayan Cenni Conson Azərbaycanın dayanıqlı iqtisadi artıma yönəlmiş islahatlarını və beynəlxalq arenada artan nüfuzunu təqdirlə qarşıladığını bildirdi. Qonaq bu çərçivədə "Franklin Templeton" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə qarşılıqlı fayda əsasında uzunmüddətli tərəfdaşlıq yaratmaq məqsədilə ilkin addımların atıldığını və strateji istiqamətlərdə əməkdaşlığın daha da dərinləşdirilməsi imkanlarının araşdırıldığını dedi. 2024-cü ilin noyabrında COP29 çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən təşkil olunan tədbirlərdə iştirakı zamanı da həmin məsələlərə dair müzakirələr aparıldığını xatırladan Cenni Conson bu işbirliyinin hər iki tərəfin regional və qlobal məqsədlərinə uyğun olaraq yeni strateji perspektivlər açacağına və uzunmüddətli, səmərəli nəticələr əldə etməyə imkan yaradacağına inamını ifadə etdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun dünyanın aparıcı maliyyə qurumları ilə uğurlu əməkdaşlıq təcrübəsinə toxunaraq, "Franklin Templeton" ilə tərəfdaşlığın strateji əhəmiyyətini qeyd etdi və bu istiqamətdə əlaqələrin daha da genişləndirilməsi üçün əlverişli mühitin mövcud olduğunu bildirdi.

Qeyd edək ki, 1947-ci ildə ABŞ-nin Nyu York şəhərində təsis edilmiş "Franklin Templeton" şirkətinin 2024-cü ilin sentyabrına olan məlumatına əsasən idarəetməsində olan aktivlərin ümumi dəyəri 1,68 trilyon ABŞ dollarına bərabərdir. "Franklin Templeton" şirkətlər qrupuna səhmlər, istiqrazlar, alternativ investisiyalar və digər aktiv növlərinin idarə edilməsi üzrə ixtisaslaşmış bir sıra biznes qurumları daxildir.

## Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 11-ci görüşünün nəticələrinə dair mətbuat açıqlaması

*16 yanvar 2025-ci il*

2025-ci il yanvarın 16-da Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın on birinci görüşü keçirilib.

Görüş zamanı tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdirib və dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılığa gəliblər.

Həmçinin tərəflər delimitasiya işlərinin görülməsi qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə ediblər.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

## Azərbaycan-BƏƏ münasibətləri yüksələn xətlə inkişaf edir



Azərbaycan Prezidenti İlham Əliyev indiyə kimi BƏƏ-də rəsmi və işgüzar səfərlərdə olub. Ötən ilin yanvarında isə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycana rəsmi səfər edib. Bu səfərlərin hər biri iki dövlət arasındakı əlaqələrin daha da inkişafına böyük töhfə verib. Ali və yüksəksəviyyəli səfərlər, beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, o cümlədən parlament diplomatiyası ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə gətirib çıxarıb. Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib.

Ötən ilin yanvarında iki ölkə arasında əlaqələrin hüquqi bazası daha da genişlənib. O cümlədən "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

→ 6

## Erməni saxtakarlığı



Ermənistan XİN bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımını, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür. Ermənilərin saxta təbliğatının tərkib hissəsi olan uydurma "Sumqayıt qırğınları"nın azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin düşünüb hazırladığı və Eduard Qriqoryan vasitəsilə icra olunan bir plan olduğunu bütün dünya bilir.

Ermənistan anlamalıdır ki, tarixi kütləvi şəkildə saxtalaşdırıb təbliğat aparmaq sülhə xidmət etmir və bu, olduqca təhlükəlidir.

→ 8

## Qanlı Yanvardan bütöv Azərbaycana uzanan azadlıq yolu

1990-cı ilin yanvarından Azərbaycanın azadlığına uzanan yol 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunması, 2023-cü ildə suverenliyimizin tam bərpası, Qarabağda kök salmış erməni quldurlarının yuvasının dağıdılması ilə öz məntiqi zirvəsinə ucalıb. Bununla həm 20 Yanvarda, həm də digər tarixlərdə həyatlarını Azərbaycanın bütövlüyü, suverenliyi uğrunda qurban verən şəhidlərimizin qisası alınıb.

"Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın ürəyi Şuşanın azadlığının xoş xəbərini Şəhidlər xiyabanından xalqımıza çatdıran zaman söyləmişdi bu fikirləri. Qalib liderin qədim yurdumuz Şuşanın öz əzəli sahiblərinə qaytarılmasının müjdəsini məhz Şəhidlər xiyabanından verməsinin, şanlı Zəfərimizi bu ünvandan dünyaya bəyan etməsinin öz rəmzi mənası var idi. Qarabağın xilaskarı İlham Əliyev şəhidlərimizin uyuduğu bu məkandan qətiyyətlə bildirmişdi ki, bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür!

→ 12



## A.M.Vəliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə Afaq Məsud qızı Vəliyevaya (Afaq Məsuda) Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2025-ci il*

## "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, "Rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1325 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" (bundan sonra - Konsepsiya) təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. Konsepsiyada nəzərdə tutulmuş Rəqəmsal İnkişaf Operatorunun funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

2.3. ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət orqanları (qurumları) tərəfindən dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin (büdcədənkənar dövlət fondlarının vəsaitləri hesabına həyata keçirilən layihələr istisna olmaqla) maliyyələşdirilməsi Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəyi (Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla) əsasında təmin edilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi ilə bağlı təkliflərini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Konsepsiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

3.3. dövlət orqanları (qurumları) tərəfindən (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri, eləcə də Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən formalaşdırılan dövlət müəssisələri istisna olmaqla) bu Fərmanın 5.3-cü bəndində nəzərdə tutulmuş illik planın icrasına nəzarəti həyata keçirsin;

3.4. rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarlarını beş ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. ölkə səviyyəsində informasiya infrastrukturunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi qaydalarını, o cümlədən meyarlarını beş ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. bu Fərmanın 5.2-ci bəndinə uyğun olaraq əldə etdiyi rüblük statistik məlumatların, fərdi məlumatların mühafizəsi ilə bağlı tələblər nəzərə alınmaqla, hər rübdən sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmasını təmin etsin;

4.2. Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarında nəzərdə tutulan hallarda data əsaslı qərarların qəbul edilməsi və süni intellekt həllərinin tətbiqi istiqamətində aidiyyəti dövlət orqanları (qurumları) ilə qarşılıqlı əlaqədə tədbirlər görsün;

4.3. Konsepsiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən rəqəmsallaşdırmanın əlaqələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin.

5. Dövlət orqanlarına (qurumlarına) tapşırılsın, Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

5.1. Konsepsiyadan irəli gələn vəzifələrin icrası ilə bağlı görülən işlər barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat təqdim etsinlər;

5.2. elektron xidmətlərdən istifadə ilə bağlı rüblük statistik məlumatların hər rübdən sonrakı ayın 10-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə təqdim olunmasını təmin etsinlər;

5.3. ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla, digər dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi üzrə layihələrin icrasına dair illik planın hazırlanmasını, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin texniki və səmərəlilik baxımından məqsədəuyğunluq barədə rəyi alınmaqla təsdiq olunmasını və yenilənməsini təmin etsinlər;

5.4. informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə son istifadəçi kompüterlərini Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən qurulmuş, mərkəzləşdirilmiş antivirus mühafizə vasitəsi ilə, habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təqdim olunan lisenziyalı əməliyyat sistemləri və ofis proqramları ilə təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2025-ci il*

## İqtisadiyyat Nazirliyi ilə Latviyanın Dövlət Gəlirlər Xidməti arasında memorandum imzalanıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov və Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya arasında görüş keçirilib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tərəflər ikitərəfli iqtisadi əlaqələrin inkişafının önəmini vurğulayaraq, yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Görüş çərçivəsində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Latviya Respublikasının Dövlət Gəlirlər Xidməti arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yardım haqqında Anlaşma Memorandumu" imzalanıb.

Sənəd Azərbaycan və Latviya vergi orqanları arasında məlumat mübadiləsinin daha səmərəli və effektiv təşkili, vergi sahəsində təcrübə mübadiləsi kimi məsələləri nəzərdə tutur. Memoranduma əsasən tərəflər vergi borclarının ödənilməsi, vergidən yayınma halları ilə mübarizədə qarşılıqlı əməkdaşlıq edəcək.

## *Rusiya XİN:* AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı Moskva və Bakı arasında bütün səviyyələrdə təmas qurulub

AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı Moskva və Bakı arasında bütün səviyyələrdə təmas qurulub.



AZƏRTAC xəbər verir ki, bu sözləri keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib. O qeyd edib ki, "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması həm Rusiya, həm də Azərbaycan üçün faciədir. Rusiyalı diplomatın sözlərinə görə, Moskva ilə Bakı arasında istintaq orqanları da daxil olmaqla bütün səviyyələrdə təmas qurulub.

M.Zaxarova deyib: "Bilirəm ki, təkcə bu faciədə yaxınlarını itirənlərə deyil, Azərbaycanın hər bir vətəndaşına həqiqəti bilmək vacibdir. Bizim ölkəmizə də bu həqiqət heç də az lazım deyil. Zənnimcə, həqiqəti axtarmaq üçün səyləri birləşdirmək naminə hər şeyi etmək gərəkdir".

## "İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 8** **Bakı şəhəri, 15 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2443 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 9** **Bakı şəhəri, 15 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanunu və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1187-VIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 148 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I); 2024, № 2, maddə 241, № 3, maddə 341, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın 3.11-ci bəndinə "sonradan" sözündən sonra "bu Qaydaların 3.10-cu bəndinə uyğun olaraq" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan və ABŞ arasında tibb sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub





ABŞ-nin ölkəmizdə diplomatik fəaliyyətini başa vuran səfiri Mark Libbi Milli Onkologiya Mərkəzini (MOM) ziyarət edib.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, ziyarət çərçivəsində səfir MOM-un Baş direktoru, akademik Cəmil Əliyev və mərkəzin həkimləri ilə görüşüb.

Akademik Cəmil Əliyev qonaqlara Milli Onkologiya Mərkəzində tətbiq olunan müasir müalicə və diaqnostika metodları, pasiyentlərə göstərilən yüksəkkeyfiyyətli tibbi xidmətlər, 1500 çarpayılıq geniş klinik baza haqqında ətraflı məlumat verib. O, xəstələrə onkoloji xidmətin göstərilməsi üçün lazım olan bütün müalicə və diaqnostik üsulların bir Mərkəzdə cəmləşdirilməsinin vacibliyini vurğulayıb və müalicə müəssisəsinin həm də elmi-tədqiqat fəaliyyəti ilə də məşğul olduğunu xüsusi qeyd edib.

Görüş zamanı bildirilib ki, MOM dünyanın bir çox qabaqcıl ölkələri ilə, o cümlədən ABŞ-nin MD Anderson Xərçəng Mərkəzi ilə əməkdaşlıq edir və əməkdaşlıq çərçivəsində memorandum imzalanıb.

Görüşdə Azərbaycan və ABŞ arasında tibb sahəsində əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri və onun daha da genişləndirilməsi müzakirə olunub.

Səfir Mark Libbi mərkəzlə tanışlıq zamanı yaradılmış yüksək şəraitdən razı qaldığını bildirib və Milli Onkologiya Mərkəzində göstərilən onkoloji xidmətin səviyyəsi barədə xoş təəssüratlarını bölüşüb.

Ziyarətin yekununda səfir Milli Onkologiya Mərkəzinin Muzeyində olub və Fəxri Qonaqlar kitabına ürək sözlərini yazıb.

## Mədəniyyət komitəsinin iclası keçirilib

Yanvarın 16-da Milli Məclisin Mədəniyyət komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata əsasən, komitə sədri Polad Bülbüloğlu yeni sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar diləyib. O, iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini söyləyib.

Polad Bülbüloğlu əvvəlcə, Mədəniyyət komitəsində 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, komitənin ötən sessiya ərzində 8 iclası keçirilib, 10 məsələyə baxılıb. Həmin iclaslarda "Turizm haqqında" Qanunda dəyişiklik edilməsi, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" qanunlarda dəyişiklik edilməsi, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihələri, habelə "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (iki oxunuşda) müzakirə edilib.

Qeyd olunub ki, payız sessiyası ərzində komitənin ünvanına 83 məktub daxil olub və qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti qurumlara 52 məktub göndərilib. Bununla yanaşı, sessiyası dövründə Mədəniyyət komitəsi tərəfindən 47 vətəndaş qəbul edilib. Vətəndaşların müraciətləri ilə əlaqədar müvafiq tədbirlər görülüb və lazımi izahatlar verilib.

Sonra komitə sədri Mədəniyyət komitəsinin 2025-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, iş planında qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin, parlamentin digər komitələrindən daxil olmuş layihələrin müzakirəsi, dinləmələrin keçirilməsi, vətəndaşların qəbulu ilə bağlı və digər məsələlər öz əksini tapıb.

Müzakirələr zamanı komitənin sədr müavini Günay Əfəndiyeva, üzvləri Nizami Səfərov, Aqil Abbasov, Novruzəli Aslanov, Cavanşir Feyziyev, Sahib Alıyev, Ülviyyə Həmzəyeva, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Müzakirələrdə komitə üzvü Ülviyyə Ağayeva da iştirak edib.

Deputatlar payız sessiyasında komitənin səmərəli fəaliyyət göstərdiyini söyləyiblər, sessiyası ərzində görülmüş işləri qənaətbəxş sayıblar.

Millət vəkilləri yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi ilə bağlı öz fikirlərini bölüşüblər, bəzi qeyd və təkliflərini səsləndiriblər. Çıxışlarda Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı dövründə mədəni irsimizə qarşı törədilən cinayətlərdən bəhs edilib. Azərbaycan Prezidentinin bu məsələyə diqqətlə yanaşdığı və bunu "mədəni soyqırım" kimi dəyərləndirdiyi vurğulanıb. Həmin məsələnin qanunvericilikdə əks olunmasının vacibliyindən söhbət açılıb. Həmçinin xeyriyyəçilik fəaliyyəti ilə bağlı, mədəniyyət sahəsinin inkişafına dair bir sıra təkliflər də verilib. Komitə üzvləri yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini məqbul hesab ediblər.

İclasda həmçinin "Kitabxana işi haqqında" və "Muzeylər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda nəzərdən keçirilib. Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının siyasi, təhlükəsizlik, iqtisadi və humanitar ölçüləri barədə müzakirələr aparılıb





Yanvarın 16-da xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın xarici işlər naziri Maka Botçorişvilinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli formatda davam etdirilib.

Nazir Ceyhun Bayramov keçən ilin oktyabrında Gürcüstanda parlament seçkilərinin uğurla keçirilməsi, yeni hökumətin formalaşdırılması və bu hökumətin tərkibində xarici işlər naziri təyin edilməsi münasibətilə həmkarına təbriklərini çatdırıb.

Görüşlər zamanı Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının siyasi, təhlükəsizlik, iqtisadi və humanitar ölçüləri və eləcə də regional gündəlikdə duran aktual məsələlər barədə müzakirələr aparılıb.

Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlıq münasibətlərimizin hazırkı səviyyəsindən razılıq ifadə olunub, ölkələrimizin ali rəhbərliyi səviyyəsində təşəkkül tapmış fəal siyasi dialoqun əlaqələrimizin sağlam təməlini təşkil etdiyi vurğulanıb.

İki ölkənin müxtəlif dövlət qurumları arasında ənənəvi sıx təmaslar və qarşılıqlı səfərlərin, o cümlədən hökumətlərarası və parlamentlərarası praqmatik əməkdaşlığın strateji tərəfdaşlığımıza töhfəsindən bəhs olunub.

Beynəlxalq və regional formatlarda ölkələrimizin bir-birinin legitim maraqlarına hörmət və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığının təqdirəlayiq olduğu bildirilib.

Azərbaycan və Gürcüstan arasında iqtisadi sahədə əməkdaşlığın hazırkı durumuna toxunulub, ölkələrimizin uğurlu regional əməkdaşlığı sayəsində ərsəyə gəlmiş Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars və Cənub Qaz Dəhlizi kimi irimiqyaslı layihələrin regionumuzda və daha geniş coğrafiyada iqtisadi inkişaf









və sosial rifahın yüksəldilməsində əhəmiyyətli rol oynadığı vurğulanıb.

Son zamanlar Azərbaycan və Gürcüstan arasında yaşıl enerji və kommunikasiya sahələrində konkret layihələr üzrə əməli addımların atıldığı, bu layihələrin təmiz enerji təchizatçısı və böyük data ötürücüsü kimi ölkələrimizin əhəmiyyətini qlobal səviyyədə artırmaqla yanaşı, uzun perspektivdə iqtisadiyyatlarımızın dayanıqlı inkişafına əlavə impuls verəcəyi qeyd olunub.

Yanvarın 17-də Bakı şəhərində Azərbaycan və Gürcüstan arasında İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 10-cu - yubiley iclasının keçirilməsi fonunda ikitərəfli və regional iqtisadi-ticarət əlaqələrimizin inkişafında müsbət rol oynayan komissiyanın vacibliyi vurğulanıb.

Azərbaycan-Gürcüstan dövlətlərarası münasibətlərində humanitar ölçünün önəmi qeyd olunub, turizm, təhsil, elm, mədəniyyət sahələrində təmaslar, mübadilələr və işbirliyinin genişləndirilməsinin əhəmiyyətindən danışılıb.

Nazir Ceyhun Bayramov həmkarına Azərbaycanın Ermənistan ilə dövlətlərarası münasibətlərin normallaşdırılması və yekun sülh sazişinin imzalanması istiqamətində göstərdiyi səylər barədə məlumat verib. Bu səylərin eyni zamanda bütün Cənubi Qafqaz regionunda sülh və sabitliyin təşəkkülü, inklüziv regional əməkdaşlıq və inkişaf naminə edildiyi vurğulanıb.

Bununla belə Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycana qarşı ərazi iddialarının qalması, Ermənistanın sürətlə silahlanması və revanşizmə meyillənməsinin sülh prosesini zərbə altında qoyduğu diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlər görüşün nəticələri ilə bağlı mətbuat konfransında bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

# Gürcüstanın xarici işlər naziri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili yanvarın 16-da Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.





AZƏRTAC xəbər verir ki, qonaq Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn Maka Boçorişvili ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət edib.

# *Zurab PATARADZE:* "Azərbaycan Gürcüstan üçün strateji dost ölkədir"

"Azərbaycan Gürcüstan üçün strateji dost ölkədir. İlin əvvəlində Gürcüstanın Xarici İşlər naziri Maka Botçorişvilinin Bakı şəhərinə ilk rəsmi səfəri vacib əhəmiyyətə malikdir".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze deyib.

Maka Botçorişvilinin Bakıda bir sıra vacib görüşlər keçirəcəyini bildirən səfir əlavə edib: "Bu görüşlər ölkələrimiz arasında münasibətlərin alovlanmasına və möhkəmlənməsinə töhfə verəcək. Azərbaycan Gürcüstan üçün strateji dost ölkədir. Ölkələrimiz arasında əlaqələr dinamik şəkildə inkişaf edir. İlin əvvəlində Gürcüstanın xarici işlər naziri xanım Maka Boçorişvilinin Bakı şəhərinə ilk rəsmi səfər etməsi vacibdir. Bir sıra görüşlər planlaşdırılır. Düşünürəm ki, bu görüşlər ölkələrimiz arasında münasibətlərin canlanmasına və möhkəmlənməsinə töhfə verəcək və əlbəttə, onu yeni mərhələyə keçirəcək".

Qeyd edək ki, dünən Maka Botçorişvilinin xarici işlər naziri kimi Azərbaycana ilk ikigünlük rəsmi səfəri başlayır.

# *XİN:* "Ermənistanın tarixi saxtalaşdıran təbliğatı sülhə xidmət etmir"

"Ermənistanın hazırkı Xarici İşlər Nazirliyi öz sələflərinin təcrübəsini davam etdirərək, uydurma açıqlamaların verilməsi ilə məşğuldur".

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Ermənistan XİN-in 15 yanvar 2025-ci il tarixli bəyanatı ilə bağlı şərhində bildirib.

O bildirib ki, Ermənistan Xarici İşlər Nazirliyinin guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı bu ölkənin Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasətinin hələ də davam etdirildiyini göstərir.

"Ermənistan XİN-ə xatırladırıq ki, etnik təmizləmə və kütləvi qırğın siyasəti məhz Ermənistana və ermənilərə xas xüsusiyyətdir.

20-ci əsrin əvvəlindən 1920-ci illərin əvvəllərinə qədər azərbaycanlılara qarşı həyata keçirilən kütləvi qırğınlardan və sürgünlərdən əlavə, 1948-1953-cü illərdə və 1987-ci ildən başlayaraq Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından ümumilikdə 450 min nəfərdən çox azərbaycanlının kütləvi surətdə qəddarcasına deportasiya edilməsi faktları Ermənistan tərəfinə yaxşı məlumdur.

Ermənistan XİN bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür.

Ermənilərin saxta təbliğatının tərkib hissəsi olan uydurma "Sumqayıt qırğınları"nın azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin düşünüb hazırladığı və Eduard Qriqoryan vasitəsilə icra olunan bir plan olduğunu bütün dünya bilir.

Bakı nefti və Azərbaycanın zənginliklərinin hesabına varlanan və qazandıqları vəsaitləri azərbaycanlıların qırğınına və tarixi abidələrinin məhvinə xərcləyən ermənilərin kompensasiya almaq hüququnun olduğunun iddia olunması isə absurd təfəkkürdən xəbər verir.

Ermənistan tərəfindən tarixi kütləvi şəkildə saxtalaşdıran təbliğat sülhə xidmət etmir və təhlükəlidir", - deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan və Gürcüstan maraqlarına uyğun şəkildə siyasət həyata keçirir"



"Bəzi böyük dövlətlərin digər müstəqil və suveren ölkələrin daxili işlərinə qarışmaq cəhdi yeni tendensiya deyil. Bu, hər zaman baş verib".

Bu sözləri Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili ilə görüşdən sonra keçirilən birgə brifinqdə deyən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov onu da bildirib ki, başqa dövlətlərin daxili işlərinə qarışmaq cəhdləri bu gün açıq şəkildə özünü büruzə verir. Azərbaycan və Gürcüstan da hansısa böyük güclərin diktəsi ilə yox, ölkə maraqlarına uyğun şəkildə siyasət həyata keçirir.

"Müzakirələr fonunda Ermənistanın genişmiqyaslı silahlanması bizdə ciddi narahatlıq doğurur", - deyə xarici işlər naziri bildirib. AZƏRTAC xəbər verir ki, onun fikrincə, Azərbaycan və Gürcüstan ərazi bütövlüyü məsələsinə hörmət etsə də, regiondakı digər qonşumuz Ermənistan buna əməl etmir. Ermənistanın uzun illər işğalçılıq siyasətinə baxmayaraq, Azərbaycan sülh təklifini qarşı tərəfə çatdırıb. Son illərdə isə sülh müzakirələri barədə irəliləyişlər əldə olunub.

Azərbaycan ilə Gürcüstanın fiber-optika sahəsində də uğurla əməkdaşlığına toxunan Ceyhun Bayramov qeyd edib ki, xarici işlər nazirliklərinin ikitərəfli və çoxtərəfli formatda da əlaqələri yüksək səviyyədədir. "Gürcüstanlı həmkarımla beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq məsələlərini, regional, o cümlədən Azərbaycanla Ermənistan arasında mövcud prosesləri də müzakirə etdik", - deyə C.Bayramov əlavə edib.

# *Gürcüstanın XİN başçısı:* "Güclü dövlət institutlarımızın sayəsində təhdidlər aradan qaldırılıb"

Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşdən sonra keçirilən birgə brifinqdə bildirib ki, biz son zamanlar ölkəmizin daxili işlərinə müdaxilə məsələsində müəyyən addımlar atıldığını gördük. Güclü dövlət institutlarımızın sayəsində bu təhdidlər aradan qaldırılıb.



AZƏRTAC-ın verdiyi məlumata əsasən, M.Boçorişvili qeyd edib ki, Gürcüstan Avro-Atlantik məkana inteqrasiyada maraqlıdır. Bunun üçün həm Avropa İttifaqı, həm də Gürcüstan tərəfindən çox iş görülməlidir.

Ölkələrimizin arasında çox nümunəvi əlaqələrin olduğunu qeyd edən gürcüstanlı nazir söyləyib ki, Azərbaycan Gürcüstanın ən böyük beş iqtisadi tərəfdaşı sırasındadır: "Biz birlikdə mühüm və böyük layihələr icra edirik. Bunlar təkcə bizim üçün yox, region üçün də əhəmiyyətlidir".

O bildirib ki, Qara dənizin dibi ilə başqa ölkələrə enerjinin çatdırılması da vacib layihələrdən biridir.

"Regionumuzun potensialından daha yaxşı istifadə etmək üçün çalışırıq. Bu potensialı daha çox nümayiş etdirmək üçün sülh vacibdir", - deyə gürcü nazir vurğulayıb.

M. Boçorişvili deyib ki, xarici işlər naziri kimi ilk səfərini Azərbaycana etməyi onun üçün şərəfdir. Azərbaycanla strateji tərəfdaşlıq Gürcüstan üçün əhəmiyyətlidir.

O vurğulayıb ki, ölkələrimiz arasındakı əməkdaşlıq siyasi-iqtisadi münasibətlərdə yeni imkanlar yaradır.

# Xəzər Siyasət Mərkəzi ABŞ-nin Cənubi Qafqazla əməkdaşlığını istiqamətləndirəcək strategiya hazırlayıb

Xəzər Siyasət Mərkəzi (Caspian Policy Center) ABŞ-nin növbəti administrasiyasının Mərkəzi Asiya və Qafqaz ölkələri ilə uğurlu işləyə biləcəyi istiqamətləri əks etdirən yeni strategiya hazırlayıb.

AZƏRTAC-ın məlumatına görə, mərkəzin aparıcı eksperti Erik Rudenşoldun müəllifi olduğu "Transxəzər trayektoriyası: Mərkəzi Asiya və Qafqaz üçün yeni ABŞ strategiyası" adlı sənədin ABŞ-nin paytaxtı Vaşinqtonda təqdimatı keçirilib. Açılış nitqi ilə çıxış edən Xəzər Siyasət Mərkəzinin prezidenti Əfqan Nifti son bir neçə ildə Mərkəzi Asiya və Qafqaz regionunun diqqət mərkəzində olduğunu bildirib. Onun sözlərinə görə, digər dövrlərlə müqayisədə indi regiona daha çox maraq var və bu maraq getdikcə artır. Xəzər regionu qlobal oyunçularla münasibətlərini şaxələndirmək istiqamətdə fəal addımlar atır və bu, regiona hərtərəfli yanaşma tələb edir. Əfqan Nifti Cənubi Qafqaz və Mərkəzi Asiyanın bir-birinə bağlı olduğunu və ABŞ üçün hər iki regionu əhatə edən strategiyaya ehtiyacı olduğunu qeyd edib.

Strategiyanın müəllifi Erik Rudenşold bildirib ki, yeni seçilmiş prezident Donal Tramp Xəzər regionu üçün yad deyil və ilk prezidentliyi müddətində Mərkəzi Asiyaya diqqət yetirib. Xəzərdə artan regional əməkdaşlığı şərh edən ekspert bildirib ki, dənizə çıxışı olmayan Mərkəzi Asiya öz infrastruktur məhdudiyyətlərindən çıxmağa başlayıb və Azərbaycan və Gürcüstan vasitəsilə sürətlə Qərbə genişlənən və inkişaf edən ticarət dəhlizinin hissəsinə çevrilib.

Mərkəzin eksperti Riçard Hoqlandın moderatorluğu ilə keçirilən panel müzakirələrində ekspertlər Birləşmiş Ştatlar üçün Qafqaz və Mərkəzi Asiya regionlarında imkanlar yaradan sahələr barədə danışıblar. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CSIS) baş vitse-prezidenti Daniel Rand regionun mineral ehtiyatlarının əhəmiyyətindən danışıb. O, həmçinin Orta Dəhlizin vacib alternativ ticarət marşrutu kimi artan əhəmiyyətini və Azərbaycanın əsas tranzit nöqtəsi kimi rolunu vurğulayıb.

"Hudson" İnstitutunun aparıcı eksperti Luk Koffi ABŞ-nin Mərkəzi Asiya və Qafqaz regionları üzrə siyasətində diqqət etməli olduğu əsas məqamları qeyd edib. O bildirib ki, ABŞ regionda iştirakını artırmalıdır və region ölkələrinə regional və beynəlxalq münasibətləri balanslaşdırmaqda kömək etməlidir.

Tədbir sual-cavab sessiyası ilə yekunlaşıb.



## 29 yanvar bələdiyyə seçkiləri günüdür

# YAP Mərkəzi Aparatında müşavirə olub





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 16-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş tədbirlər planının icra vəziyyəti müzakirə olunub, nəzərdə tutulan bütün tədbirlərin vaxtında və mütəşəkkil qaydada həyata keçirildiyi bildirilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla seçkiqabağı təşviqat kampaniyasının uğurla davam etdirildiyi və partiya fəallarının bu prosesə aktiv cəlb olunduğu qeyd edilib, seçki prosesinin sonrakı mərhələsində qarşıda duran vəzifələrin icrasına dair fikir mübadiləsi aparılaraq müvafiq tapşırıq və tövsiyələr verilib.

Azərbaycanın demokratik dəyərlərə sadiq və zəngin seçki təcrübəsinə malik olduğu vurğulanaraq bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli keçiriləcəyinə və Yeni Azərbaycan Partiyasının xalqın etimadı əsasında daha bir qələbəyə imza atacağına əminlik ifadə olunub.

# Gəncədə bələdiyyə seçkilərində polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə təşkil edilib

Gəncə şəhərində Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyinin (DİN) birgə layihəsi çərçivəsində Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə keçirilib.






AZƏRTAC xəbər verir ki, tədbirdə Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyinin nümayəndələri, eləcə də region üzrə dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin nümayəndələri iştirak ediblər.

Çıxış edən Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov bildirib ki, qarşıdan gələn bələdiyyə seçkilərinə yüksək səviyyədə hazırlıq görülür. Seçkilərin şəffaf və ədalətli keçirilməsi, həmçinin fərqli statuslu seçki iştirakçılarının maarifləndirilməsi məqsədilə regionlarda müxtəlif istiqamətlər üzrə layihələr davam etdirilir.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov "Seçki subyektləri, onların hüquq və vəzifələri. Seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi", DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsində idarə rəisi Sənan Əliyev "Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri. Seçkidən sonrakı dövrdə seçki bülletenləri və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi" mövzularında çıxışlar ediblər. Bələdiyyə seçkilərinə hazırlıq mərhələsi, seçkiqabağı təşviqat dövrü, o cümlədən səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrinə dair çıxışlar dinlənildikdən sonra fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Qeyd edək ki, qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn layihə növbəti mərhələdə yanvarın 17-də Şəkidə, yanvarın 18-də Şirvanda və yanvarın 21-də Naxçıvanda regionlar üzrə dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı ilə keçiriləcək.

# Seçicilər laqeyd deyillər

Yanvarın 29-na təyin edilmiş 6-cı bələdiyyə seçkilərinə çox qalmayıb. Ölkəmizdə ilk dəfə 1999-cu ildə keçirilmiş bələdiyyə seçkilərindən ötən illər ərzində yerli özünüidarəetmə strukturlarında böyük uğurlara imza atılmış, bu sahədə xeyli təcrübə qazanılmışdır.



Budəfəki seçkilərdə bir sıra ciddi yeniliklər də var. Bu sırada ən başlıcası odur ki, ötən dövr ərzində bələdiyyələrin birləşdirilməsi həyata keçirilib. Faktlara nəzər salaq: ölkənin ərazi və əhali baxımından iri rayonlarından sayılan Bərdədə son dövrəcən 67 bələdiyyə mövcud idi. Qarşıdakı seçkilərdən sonra isə rayonda 25 bələdiyyə formalaşacaq.

99 saylı Bərdə Seçki Dairəsində hazırlıq işləri son mərhələyə daxil olub. Dairə 60 seçki məntəqəsini əhatə edir. Bunun 58-i açıq, 2-si qapalı məntəqədir. Seçicilərin ümumi sayı isə 52 min 994 nəfərdir. Seçici siyahıları yeniləndikdən sonra məntəqələrə çatdırılmışdır.

Yeni formalaşacaq 7 bələdiyyə üzrə 157 nəfərin namizədliyi qeydə alınmışdır. Müxtəlif siyasi partiyaları və tərəfsizləri təmsil edən müşahidəçilərin sayı isə hələlik 730 nəfərdir. Seçkilərdə demokratik tələblərin, şəffaflığın, qayda-qanunun təminatına böyük önəm verilir. 11 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır.

Dairə seçki komissiyasının sədri Dilsuz Nəcəfov söhbət zamanı dedi ki, Bərdədə seçki öncəsi siyasi fəallıq yüksək səviyyədədir. Yerlərdən dairəyə edilən müxtəlif məzmunlu müraciətlər onu göstərir ki, rayon sakinləri həyatlarında mühüm rol oynayacaq bələdiyyə seçkilərinə laqeyid deyillər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# 101 saylı Samux-Şəmkir Seçki Dairəsində 500-dən çox müşahidəçi qeydə alınıb

Yerli idarəetmə orqanı olan bələdiyyə seçkilərinə sayılı günlər qalıb. Artıq bütün dairə və məntəqələrdə seçkilərə hazırlıq işləri başa çatmaq üzrədir. Mərkəzi Seçki Komissiyasının müvafiq qrafikinə uyğun olaraq namizədlər təbliğat və təşviqat işlərinə başlamışlar. Bunun üçün onların hər birinə müvafiq qanun çərçivəsində şərait yaradılmışdır.




Samux rayonunda hələ seçkilərə xeyli qalmış məntəqələr əsaslı təmir edilmiş, zəruri texniki və metodiki vasitələrlə, elektrik generatorları, həmçinin rabitə avadanlıqları ilə təmin edilmişdir. Məntəqələrdə müşahidəçilər üçün yerlər ayrılmışdır. Bir sözlə, bütün məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsnə yüksək səviyyədə hazırlıq işləri görülmüşdür.

101 saylı Samux-Şəmkir Seçki Dairəsi Samux şəhərinin mərkəzində yerləşir. Biz görülən hazırlıq işləri ilə tanış olmaq üçün dairədə olduq və dairə seçki komissiyasının sədri Bayram Qasımovla söhbət etdik. Öyrəndik ki, dairənin məntəqələrində seçkilərin şəffaf keçirilməsi üçün bütün şərait yaradılmışdır. 56 məntəqənin 9-da veb-kamera quraşdırılmış, 500 nəfərdən çox müşahidəçi qeydiyyatdan keçmişdir. 3 məntəqədə fiziki aktivliyi olmayan seçicilər üçün panduslar qoyulmuş, xəstələrin evlərində səs vermələri üçün qeydiyyat aparılmış, səyyar seçki qutuları gətirilmişdir. Bunun üçün ərizə ilə müraciət edən seçicilərin siyahısı tərtib edilmişdir.

Qeyd edək ki, dairə üzrə 54 min 564 seçici qeydə alınmışdır. Artıq onların siyahıları dəqiqləşdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib



Yanvarın 16-da Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin sədrliyi ilə baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2024-cü il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə giriş nitqi ilə çıxış edən Kamran Əliyev müasir və müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildən etibarən korrupsiya kimi neqativ tendensiyaların yolverilməzliyini bəyan etməsini və ona qarşı qətiyyətlə mübarizə aparmasını diqqətə çatdırmaqla yanaşı, korrupsiyaya qarşı mübarizənin müstəsna dərəcədə vacibliyinin daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında xüsusi vurğulanmasının, habelə bu istiqamətdə hüquq münasibətlərini tənzimləyən normativ bazanın müntəzəm olaraq təkmilləşdirilməsinin mövcud siyasi iradənin göstəricisi olmaqla effektiv icraetmənin qarantı olduğunu bildirmişdir.

Qeyd edilmişdir ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə sosial sahədə həyata keçirilən bir sıra islahatlar ölkə vətəndaşlarının rifahının və həyat şəraitinin yaxşılaşdırılmasına xidmət etməklə yanaşı, eyni zamanda qeyd edilən sahədə korrupsiya hallarına son qoyulması ilə nəticələnmişdir. Hazırda fəaliyyət göstərməklə bir sıra dünya ölkələrinin diqqətini üzərinə cəmləşdirmiş və dünyada Azərbaycan məhsulu kimi qəbul edilmiş "ASAN xidmət" və "DOST" mərkəzlərinin uğurlu fəaliyyətləri bu mənada xüsusilə vurğulanmışdır.

Bununla yanaşı baş prokuror tərəfindən xüsusi vurğulanmışdır ki, qiyabi icraat və üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi kimi mütərəqqi hüquqi institutların cinayət-prosessual qanunvericiliyinə əlavə edilməsi, habelə digər normativ hüquqi aktların günün tələbinə uyğun olaraq təkmilləşdirilməsi ölkədə cinayətkarlığa və onun ən təhlükəli təzahürlərindən olan korrupsiya hallarına qarşı təsirli mexanizm formalaşdırmaqdadır.

Eləcə də prokurorluq orqanlarının da korrupsiyaya qarşı mübarizə siyasətinin subyektlərindən biri kimi onun səmərəli icrası üçün sərgilədiyi aktiv mövqeyə toxunan Kamran Əliyev qurum tərəfindən əsas fəaliyyət istiqamətlərindən əlavə milli qanunvericiliyin tətbiqi vəziyyətinin vətəndaş müraciətləri, habelə istintaq təcrübəsində müşahidə edilən tendensiyalarla əlaqəli şəkildə mütəmadi təhlil edildiyini bildirmişdir.

Qeyd edilmişdir ki, aparılmış təhlillərin nəticələrindən asılı olaraq bir çox məqamlarda prokuror təsir tədbirləri tətbiq edilmiş, milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması üçün cinayət təqibinin rəqəmsallaşdırılması, maraqlar toqquşmasının qarşısının alınması, əmlakın bərpası və digər sahələrdə normativ hüquqi akt layihələri hazırlanaraq baxılması üçün aidiyyəti orqanlara təqdim olunmuşdur.

O da diqqətə çatdırılmışdır ki, yeni dövr islahatlarının mahiyyətinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanında təsbit edilməklə 2022-ci il 3 mart tarixli digər Fərmanla Əsasnaməsi təsdiqlənmiş "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti digər dövlət orqanlarının informasiya sistemlərinin inteqrasiyası və optimallaşdırıcı modulların əlavə edilməsi yolu ilə təkmilləşdirilməklə müasir informasiya-kommunikasiya texnologiyalarının prokurorluq orqanlarında tətbiqi prosesi sürətlənmiş, bu göstərici isə öz növbəsində korrupsiyaya qarşı mübarizədə xüsusi əhəmiyyət kəsb edən şəffaflıq və hesabatlılıq meyarlarını daha da möhkəmləndirmişdir.

Baş prokuror korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın önəmindən, bu sahədə mövcud beynəlxalq təcrübənin baş idarənin əməkdaşları tərəfindən mənimsənilməsi zərurətindən bəhs edərkən qeyd etmişdir ki, digər beynəlxalq təşkilatlarla yanaşı BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) ilə baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin qarşılıqlı əməkdaşlıq sahəsində fəaliyyəti uğurla davam etdirilməkdədir. Belə ki Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində 2024-cü ilin 24-27 sentyabr tarixlərində baş tutmuş şəbəkənin 5-ci plenar görüşündə həmin təşkilatın 15 üzvdən ibarət icraiyyə komitəsinə keçirilmiş seçkilər nəticəsində baş idarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov idarəçilik orqanına üzv təyin edilmiş, bundan əlavə Şəbəkənin İdarə Komitəsinin 10-cu və plenar görüşünün 6-cı iclaslarının 2025-ci ilin 19-23 may tarixlərində Bakı şəhərində keçirilməsi qərara alınmışdır.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov hesabat dövrü ərzində baş idarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, baş idarədə başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildirilmişdir ki, qeyd olunan dövrdə baş idarə tərəfindən vətəndaşların 10296 müraciətinə baxılmışdır.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilmiş, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülmüşdür.

Baş idarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması və gələcəkdə bir daha törədilməməsi üçün prokuror təsir tədbirləri qismində müxtəlif qurumlara 185 təqdimat göndərilmişdir. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb edilmiş və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunmuşdur.

Bununla yanaşı müvafiq dövr ərzində baş idarədə 1049 vətəndaşın qəbul edilməsi təmin edilmişdir.

Qeyd edilən müddət ərzində baş İdarədə 381 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılmış, 314 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmış, 67 material üzrə isə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul edilmiş və digər prokuror təsir tədbirləri tətbiq edilmişdir.

Əməliyyat qurumları tərəfindən 170 cinayət işi başlanılmış, keçirilmiş 42 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 43 şəxs cinayət başında yaxalanmış, habelə bu qəbildən cinayətlərin törədilməsi ilə bağlı axtarışda olan 8 nəfər saxlanılmışdır.

Hesabat dövrü ərzində baş idarə tərəfindən 226 şəxs barəsində 158 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılmış, qalanları isə hazırda məhkəmə baxışındadır.

İstintaqı tamamlanmış cinayət işlərindən 111 şəxs barəsində 67 iş ağır cinayətlər məhkəmələrinə, 5 şəxs barəsində 3 iş hərbi, eyni zamanda 110 şəxs barəsində 88 cinayət işi isə rayon (şəhər) məhkəmələrinə göndərilmişdir.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 131 milyon 365 min 409 manat məbləğində maddi ziyandan 50 milyon 394 min 439 manatının, o cümlədən icraatına xitam verilmiş cinayət işləri üzrə özgə əmlakına vurulmuş 19 milyon 726 min 167 manat məbləğində maddi ziyanın tam olaraq ödənilməsi təmin olunmuşdur.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 31 milyon 930 min 592 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Hesabat dövrü ərzində baş idarənin fəaliyyətinin və antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi də daxil olmaqla beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər müsbət dəyərləndirilmişdir.

Dövlət başçısının fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə beynəlxalq əməkdaşlığın önəmini və qarşılıqlı təcrübənin paylaşılmasının əhəmiyyətini nəzərə almaqla bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və digər dövlətlərin müvafiq orqanları ilə əlaqələrin qurulmasına, habelə daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir.

Əməliyyat müşavirəsinə yekun vuran baş prokuror Kamran Əliyev hesabat və məruzədə qeyd edilən göstəricilərə münasibət bildirməklə yanaşı vətəndaşların qəbulu, onların müraciətlərinə baxılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da təkmilləşdirilməsi, mərkəzə daxil olan hər bir vətəndaş müraciətinə həssas yanaşılması, korrupsiya faktlarının artımı müşahidə edilən sahələrin müəyyən edilməsi məqsədilə aparılan təhlillərin davam etdirilməsi, bu cür halların qarşının alıması yönəlik önləyici tədbirlərin icrası, korrupsiyaya qarşı mübarizə sahəsində effektiv nəticələrin əldə edilməsi üçün digər hüquq mühafizə orqanları ilə əlaqəli fəaliyyətin davam etdirilməsi, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin diqqətdə saxlanılması, vurulmuş maddi ziyanların ibtidai istintaq dövründə ödənilməsinin təmin edilməsi, əmlakın bərpası, qətimkan tədbirlərinin səmərəli tətbiqi kimi məsələlərin diqqətdə saxlanılması, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində öz tapşırıq və tövsiyələrini vermişdir.

# Bakıda Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin 10-cu iclası keçirilib





Bakıda Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin 10-cu iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan gömrük xidmətləri rəhbərlərinin iştirak etdiyi iclasda BMT-nin, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının, Gürcüstan və Macarıstan gömrük xidmətlərinin nümayəndələri də iştirak ediblər.

Tədbirin ilk günündə gömrük adminstrasiyalarının ekspertlərinin görüşü keçirilib, iclasın gündəliyindəki məsələlərlə bağlı müzakirələr aparılıb. İclasın açılış mərasimində Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov və Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev və digər iştirakçılar çıxış ediblər.

Şahin Bağırov qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Şimal-Cənub" nəqliyyat dəhlizi və Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu Azərbaycanın tranzit potensialını artıraraq Türk Dövlətləri Təşkilatının (TDT) iqtisadi inteqrasiyasının dərinləşməsində önəmli rol oynayır.

DGK sədri bildirib ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatında qarşılıqlı fəaliyyətə xüsusi önəm verir: "Azərbaycanın irəli sürdüyü regional və beynəlxalq layihələr TDT ilə əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verir".

Onun sözlərinə görə, gömrük işi sahəsində əlaqələndirilmənin gücləndirilməsi, inteqrasiyanın dərinləşməsi istiqamətində reallaşan layihələrdən biri də "Sadələşdirilmiş Nəqliyyat Dəhlizi"dir: "Sözügedən təşəbbüs regionda ticarətin genişlənməsi, iqtisadi əlaqələrin möhkəmlənməsi nöqteyi-nəzərindən strateji əhəmiyyət daşıyır. Müasir dövrdə qlobal ticarət axınlarının səmərəli təşkili üçün gömrük xidmətləri arasında koordinasiyanın sürətlənməsində rəqəmsallaşma mühüm prioritetlərdən biridir".

Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev bildirib ki, türk dünyası elektron yükdaşımaları baxımından öndər coğrafiyadır və təşəbbüsün daha da inkişaf etdirilməsinə maraq var. Bu dəstək təşkilatla yanaşı, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı ilə də keçiriləcək. Baş katib qeyd edib ki, qlobal çağırışlar fonunda sərhədlərarası ticarət artan nəqliyyat xərcləri, uzun məsafələr, geniş sənəd yoxlamaları, gömrük və tranzit prosedurlarında gecikmələr də daxil olmaqla böyük çətinliklərlə üzləşir.

"Bu çağırışların həlli regionumuzun iqtisadi dayanıqlılığı və inkişafı üçün həyati əhəmiyyət kəsb edir. "Türk Dünyasına Baxış 2040" strateji sənədimizə uyğun olaraq, TDT üzv dövlətlər arasında və Orta dəhliz boyunca gömrük və ticarət proseslərini asanlaşdırmağa sadiqdir. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı ilə əməkdaşlıq çərçivəsində Özbəkistan, Qazaxıstan və Qırğızıstan arasında mərhələli şəkildə nəqliyyat və tranzit prosedurlarının rəqəmsallaşdırılması öhdəliyini yerinə yetirəcəyik", - deyə o vurğulayıb.

Özbəkistan İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsinin sədri Akmalxuca Mavlonov bildirib ki, Özbəkistan Azərbaycanın təşəbbüsü olan Trans-Xəzər Gömrük Tranzit Portalının həyata keçirilməsinə fəal dəstək verir. Onun sözlərinə görə, ölkəsi tranzit portalından istifadənin hüquqi əsasının imzalanmasını sürətləndirməyi təklif edir.

"Sərhəddə yığımların vahid hesablama mexanizminin yaradılması, qeyri-tarif tədbirləri haqqında məlumatlandırma və portalda zəmanətdən istifadə məsələsini öyrənmək lazımdır. Özbəkistan "Sadələşdirilmiş Gömrük Dəhlizi"nə dair sazişin gələcəkdə tətbiqi məqsədilə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ərazilərində bir neçə istiqamət üzrə pilot daşımaların başlanılmasını, bu zaman mövcud ikitərəfli informasiya mübadiləsi kanallarından istifadə edilməsini təklif edir", - deyə Akmalxuca Mavlonov vurğulayıb.

Türkiyə ticarət nazirinin müavini və Gömrük Administrasiyasının rəhbəri Sezai Uçarmak bildirib ki, Şərqdə istehsal edilib, Qərbə daşınan malların 4 faizi türkdilli dövlətlərin ərazisindən keçir. 96 faizi isə dəniz və hava yolları ilə daşınır. Bu da türkdilli dövlətlərin yüksək potensialını göstərir. Onun sözlərinə görə, məhsulların əsas hissəsi dünyanın Şərqində istehsal edilir, Qərbində isə istehlak edilir.

Daha sonra digər Türk Dövlətləri Təşkilatının gömrük xidməti rəhbərlərinin məruzələri dinlənilib.

Sonra gündəlikdəki məsələlər - 9-cu iclasda qəbul edilən qərarların icrası, Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması, Trans-Xəzər Gömrük Tranzit Portalı, Elektron möhür və müasir izləmə texnologiyaları, səlahiyyətli iqtisadi operator mövzularında müzakirələr aparılıb.

İclasın sonunda Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin 10-cu iclasının protokolu, 11 noyabr 2022-ci il tarixdə Səmərqənd şəhərində imzalanmış Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Saziş çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Gömrük Administrasiyaları arasında Məlumat Mübadiləsinin Texniki Şərtləri və Türk Dövlətləri Təşkilatı çərçivəsində BYD Konvensiyasına (1975, Cenevrə) uyğun olaraq e-BYD prosedurunun tətbiqi üzrə fəaliyyət planı sənədləri imzalanıb.

# TDT Gömrük Administrasiyaları Rəhbərlərinin 10-cu iclasında bir sıra sənədlər imzalanıb

Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) Gömrük Xidməti Rəhbərlərinin 10-cu iclasında bir sıra sənədlər imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanan sənədlər TDT Gömrük Xidməti Rəhbərlərinin 10-cu iclasının protokolu, 11 noyabr 2022-ci il tarixdə Səmərqənd şəhərində imzalanmış Türk Dövlətləri Təşkilatının Hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Saziş çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Gömrük Administrasiyaları arasında Məlumat Mübadiləsinin Texniki Şərtləri və Türk Dövlətləri Təşkilatı çərçivəsində BYD Konvensiyasına (1975, Cenevrə) uyğun olaraq e-BYD prosedurunun tətbiqi üzrə fəaliyyət planı barəsində olub.



# Vəkillər Kollegiyası və Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb




Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşüb.

Qonaqları salamlayan nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində respublikamızda hüquqi dövlət quruculuğu və qanunun aliliyi təmin olunur. Ölkəmizdə məhkəmə-hüquq sisteminin fəaliyyəti təkmilləşdirilir, insan hüquq və azadlıqları etibarlı müdafiə olunur. Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması istiqamətində tədbirlər uğurla davam etdirilir.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov isə öz növbəsində məhkəmə-hüquq sisteminin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə aparılan islahatlar, Vəkillər Kollegiyası tərəfindən görülən işlər barədə ətraflı məlumat verib. Anar Bağırov vurğulayıb ki, qanunvericilik və institusional islahatlarla ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində effektiv müdafiə mexanizmləri formalaşdırılıb. Vəkillik institutunu ölkəmizdə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edən mühüm təsisat adlandıran Vəkillər Kollegiyasının sədri insan hüquq və azadlıqlarının, qanunla qorunan mənafelərinin etibarlı müdafiə edilməsinin və onlara peşəkar, yüksəkkeyfiyyətli, vicdanlı hüquqi yardım göstərilməsinin əsas vəzifələrdən olduğunu diqqətə çatdırıb.

Görüş zamanı dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi, əhaliyə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, keyfiyyətinin və səmərəliliyinin artırılması, bu sahədə səmərəli və işgüzar münasibətlərin yaradılmasının vacibliyi, aqrar sahədə ixtisaslaşmış hüquqşünasların formalaşması və digər məsələlər müzakirə olunub.

Görüş çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi və Vəkillər Kollegiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənəddə kənd təsərrüfatı sahəsi üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması, kənd təsərrüfatı münasibətlərinin subyektləri, Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları, vəkillər, aqrar sahədə fəaliyyət göstərən fiziki və hüquqi şəxslər üçün hüquqi maarifləndirmə ilə bağlı seminar, təlim, konfrans və təşviqat tədbirlərinin keçirilməsi, Vəkillər Kollegiyası Akademiyasında aqrar hüququn tədrisi ilə bağlı tədbirlərin görülməsi, aqrar hüquq sahəsində elmi və elmi-praktiki araşdırmaların təşviq edilməsi və maarifləndirici vəsaitlərin hazırlanması, beynəlxalq layihələr çərçivəsində əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi öz əksini tapıb.

Tədbirin sonunda qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Gənclər və idman naziri Fərid Qayıbov Şamaxı və Qobustan rayon sakinləri ilə görüşüb.

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, görüşdən öncə nazir Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovla birlikdə Qobustan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib.

Qobustan Gənclər Evində keçirilən qəbulda vətəndaşları diqqətlə dinləyən nazir Fərid Qayıbov onların müraciətlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

❖ ❖ ❖

Yanvarın 16-da mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ağstafa rayon Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Nazirliyin Mətbuat xidmətindən bildirilib ki, qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla anılıb.

Qəbul zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

*AZƏRTAC*

# Azərbaycanın AQEM-ə sədrliyi çərçivəsində əməkdaşlıq prioritetləri müzakirə edib

Yanvarın 16-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) baş katibi Kayrat Sarıbayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyi çərçivəsində mümkün əməkdaşlıq məsələləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Komitə sədri Bahar Muradova Azərbaycanın Asiya regionunda ölkələrarası əməkdaşlığın inkişaf etdirilməsində əhəmiyyətli rol oynayan təşkilata sədrliyi dövrünün uğurla həyata keçirildiyini bildirib. O, bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etmiş, xüsusilə COP29 kimi mötəbər konfransın keçirilməsi təcrübəsinə malik ölkə olaraq Azərbaycanın AQEM-ə sədrlik etdiyi dövrdə də üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə, eləcə də təşkilatın institusional inkişafına töhfə verəcəyini qeyd edib.

Üzv dövlətlər arasında qadın və uşaq hüquqlarının müdafiəsi, ailə dəyərləri və milli identikliyin qorunması sahəsində əməkdaşlığın önəmini vurğulayan sədr AQEM yanında qadınlar birliyinin yaradılması təklifini irəli sürüb. B.Muradova bu birliyin qadın hərəkatının geniş vüsət aldığı Asiya regionunda qadınların təşkilatlanaraq gücləndirilməsinə və həyata keçirilən layihələrdə fəal iştirakına səbəb olacağını deyib.

AQEM-in baş katibi Kayrat Sarıbay Azərbaycanın bu təşkilatın çağırılması ilə bağlı təşəbbüsü dəstəkləyən ilk dövlətlərdən biri olduğunu və hazırda təşkilat çərçivəsində əməkdaşlıqda fəal iştirak etdiyini bildirib. Türk dünyasında qadının rolunun yüksək qiymətləndirildiyinə diqqət çəkən baş katib Azərbaycanın təşkilata sədrliyi dövründə qadınların inkişafı və iqtisadi gücləndirilməsi layihələrinin prioritet istiqamətlərdən olacağını bildirib və bu sahədə mühüm nəticələrin əldə ediləcəyinə inamını ifadə edib.

Görüş Azərbaycanın sədrliyi dövründə AQEM üçün əhəmiyyət kəsb edən digər mövzular üzrə prioritetlərin müzakirəsi ilə davam edib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi NATO və tərəfdaş ölkələrin Baş Qərargah rəislərinin iclasında iştirak edib

Müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Brüssel şəhərində NATO-nun Hərbi Komitəsinin Baş Qərargah rəisləri formatında keçirilən iclasında iştirak edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, NATO-nun üzv və tərəfdaş ölkələri ordularının baş qərargah rəislərinin iştirakı ilə keçirilən iclasda çıxış edən general-polkovnik K.Vəliyev ölkəmizin NATO ilə əməkdaşlığının inkişaf perspektivləri, Qətiyyətli Dəstək Missiyası və digər əməliyyatlarda fəaliyyəti, habelə Azərbaycan Ordusunun NATO-nun keçirdiyi müxtəlif təlim və tədbirlərdə əldə etdiyi təcrübədən danışıb. Azərbaycanın Avro-Atlantik məkanında və onun hüdudlarından kənarda sülhə və təhlükəsizliyə daim töhfə verdiyini qeyd edən general-polkovnik K.Vəliyev ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş tərəfdaş kimi beynəlxalq sülhə və təhlükəsizliyə daha çox töhfə vermək niyyətində olduğunu bildirib.

Səfər çərçivəsində Baş Qərargah rəisinin iclasda iştirak edən bəzi həmkarları ilə görüşləri planlaşdırılır.

# Azərbaycanın Türkiyə, İtaliya və Macarıstanla hərbi əməkdaşlığının perspektivləri müzakirə olunub

NATO-nun Hərbi Komitəsinin Baş Qərargah rəisləri formatında keçirilən Alyansın üzv və tərəfdaş ölkələri ordularının baş qərargah rəislərinin iclasında iştirak etmək üçün Brüssel şəhərində səfərdə olan müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun baş qərargah rəisi general-polkovnik Kərim Vəliyev bir sıra görüşlər keçirib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Metin Gürak, İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Lusiano Portolano və Macarıstan Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Qabor Böröndi ilə keçirilən görüşlər zamanı ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, habelə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Görüşlərdə Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə də iştirak edib.

# *Rusiya XİN:* "Ermənistanın rusiyalı jurnalistin Zəngəzur dəhlizi barədə sözlərinə mənfi reaksiyası təəccüb doğurur"

"Zəngəzur dəhlizi ilə bağlı jurnalistin Rusiya televiziyasında yayımlanan fikirlərinə Ermənistanın hədsiz emosional mənfi reaksiyası təəccüb doğurur".

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Rusiya televiziyasında səsləndirilən bəyanatlarla əlaqədar RF səfirinin Ermənistan Xarici İşlər Nazirliyinə çağırılması faktını şərh edərkən bildirib.

"Biz həmişə İrəvandan eşitmişik ki, Ermənistan söz azadlığına sadiqdir. Bizim rəsmi mövqeyimiz İrəvana məlumdur. Biz ardıcıl olaraq üçtərəfli sazişlər əsasında Cənubi Qafqazda bütün nəqliyyat və iqtisadi əlaqələrin açılmasından danışırıq".

M.Zaxarova qeyd edib ki, Qərbin Ermənistana dağıdıcı təsiri səbəbindən Cənubi Qafqazda kommunikasiyaların bloklanması üzrə üçtərəfli işçi qrupun işində fasilə yaranıb.

"Əminik ki, tamhüquqlu əməkdaşlığın qrup çərçivəsində mümkün qədər tez bərpası Cənubi Qafqaz regionunda nəqliyyat və kommunikasiya sisteminin açılmasına töhfə verməklə yanaşı, bütün regionun gələcək sosial-iqtisadi inkişafını təmin edəcək", - deyə o əlavə edib.

Rusiya XİN-in nümayəndəsi vurğulayıb ki, Moskva bu problemin həllində Azərbaycana və Ermənistana kömək etməyə hazırdır.




# Konstitusiya və Suverenlik İli 2025



# Azərbaycan-BƏƏ münasibətləri yüksələn xətlə inkişaf edir

## Prezident İlham Əliyevin bu ölkəyə işgüzar səfəri bir daha Azərbaycanın dünya miqyasındakı güclü nüfuzundan xəbər verir

Prezident İlham Əliyevin yanvarın 13-14-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri bəlli həqiqətlərə yeni işıq saldı. Belə ki, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın dəvəti ilə reallaşan bu səfər ilk növbədə Prezident İlham Əliyevin yüksək qlobal siyasi nüfuzunun növbəti təcəssümünə çevrildi. Eyni zamanda bu səfər göstərdi ki, Azərbaycanla BƏƏ arasında münasibətlər yüksək səviyyədədir.

### Qarşılıqlı səfərlər əlaqələrin genişlənməsinə yol açır

BƏƏ yalnız yerləşdiyi regionda deyil, həm bütün müsəlman aləmində, həm də dünyada özünün xüsusi mövqeyi olan dövlətdir. Azərbaycanla bu ölkə arasında münasibətlər hər zaman yüksələn xətlə inkişaf edib. BƏƏ həm də Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. Bu ölkə Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 26-da tanıyıb.

Azərbaycan Prezidenti İlham Əliyev indiyə kimi BƏƏ-də rəsmi və işgüzar səfərlərdə olub. Ötən ilin yanvarında isə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycana rəsmi səfər edib. Bu səfərlərin hər biri iki dövlət arasındakı əlaqələrin daha da inkişafına böyük töhfə verib. Ali və yüksəksəviyyəli səfərlər, beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, o cümlədən parlament diplomatiyası ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə gətirib çıxarıb. Birləşmiş Ərəb Əmirlikləri Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib.

Ötən ilin yanvarında iki ölkə arasında əlaqələrin hüquqi bazası daha da genişlənib. O cümlədən "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Yanvarın 13-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın görüşündə dövlət başçıları münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycanla BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayıblar. Hazırda ölkələrimizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyü qeyd olunub.

### "Yaşıl enerji" əməkdaşlığı

Azərbaycanla BƏƏ arasındakı əlaqələr son dövrlər daha da inkişaf edib, yeni tərəfdaşlıq istiqamətləri formalaşıb. Bu sırada "yaşıl enerji" istehsalı sahəsində əməkdaşlıq xüsusi qeyd edilməlidir. Xatırladaq ki, 2022-ci il martın 15-də BƏƏ-nin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməli qoyulub. İnşaat işləri qısa müddətdə və yüksək səviyyədə həyata keçirilib və 2023-cü il oktyabrın 26-da açılışı olub. Qaradağ Günəş-Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. 262 milyon ABŞ dollarına başa gələn bu layihə ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Həmin vaxt stansiyanın açılış mərasimində çıxış edən Prezident İlham Əliyev əmin olduğunu bildirmişdi ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri bundan sonra da uğurla inkişaf edəcək. Aradan ötən qısa dövrün mənzərəsi Prezident İlham Əliyevin bu sözlərini təsdiq edir. Belə ki, bu hadisədən bir müddət sonra COP-a sədrlik BƏƏ-dən Azərbaycana keçdi və iki dövlət bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirdilər. Yanvarın 13-də Azərbaycan və BƏƏ prezidentləri arasında keçirilən görüşdə dövlətimizin başçısı qeyd edib ki, COP29-un uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

### Yüksək ehtiramın göstəricisi

Yanvarın 14-də Prezident İlham Əliyev BƏƏ paytaxtı Əbu-Dabidə keçirilən Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimlərində də iştirak edib. 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi ötən illər ərzində dayanıqlı qlobal inkişafın sürətləndirilməsini hədəfləyən, önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Dayanıqlılıq Həftəsi bu məqsədə çatmaq üçün öz proqramını üç prinsip - qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya üzrə həyata keçirir və bu məqsədlə dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir.

Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı və digər rəsmi şəxslər iştirak edirdi. Onların arasında Prezident İlham Əliyevin də olması dövlətimizin başçısına olan yüksək ehtiramın göstəricisidir. Prezident İlham Əliyevin bu tədbirdə iştirakı isə ilk dəfə deyil. Dövlətimizin başçısı 2023-cü ilin yanvar ayında da Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində iştirak edib. Eyni zamanda Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə dəvət olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzundan xəbər verir.

Azərbaycan-BƏƏ münasibətləri bundan sonra da sürətlə inkişaf edəcək, uğurlu nəticələrə və perspektivlərə yol açacaq. Əsas odur ki, bunun üçün hər iki tərəfdə yüksək siyasi iradə mövcuddur.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İlham Əliyevin əsas məramı dəyişmir

## Neft kapitalı xalqın rifahına xidmət edir



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu məsələyə bir daha toxunaraq bildirmişdir ki, son vaxtlar neft hasilatında tənəzzüllə üzləşmişik və aparılan danışıqların, göstərilən səylərin nəticəsində artıq bu tənəzzülə son qoyulacaq, hasilat sabit qalacaq. Nəticədə bundan sonra hasilatın azalması ümumi daxili məhsula mənfi təsir göstərməyəcək.

Ölkəmizdə neft və qazdan əldə olunan gəlirlər xalqın rifahına yönəldilir. Başqa sözlə, son illər ərzində Azərbaycan neft kapitalını insan kapitalına çevirə bildi. 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin yaratdığı Azərbaycan Respublikası Dövlət Neft Fondunda (ARDNF) toplanan vəsaitlər ölkəmizin ən ümdə problemlərinin həllinə yönəldildi. O cümlədən vaxtilə erməni vandalları tərəfindən yurd-yuvasından didərgin salınmış minlərlə soydaşımıza sahib çıxan dövlətimiz neftdən əldə olunan gəlirlərlə ilk növbədə onlar üçün 100-dən çox qəsəbə tikdirdi. Bircə çadır şəhərciyi belə qalmadı. Oğuz, Qəbələ bölgələrindən paytaxtacan su kəməri çəkdi, Abşeron yarımadasının sakinlərini əsl bulaq suyu ilə təmin etdi. Neçə-neçə azərbaycanlı gəncin dünyanın ən nüfuzlu universitetlərində təhsilini dəstəklədi. Yeni yollar çəkdi, körpülər saldı...

"Əsrin müqaviləsi" neftdən gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsinə imkan verdi. Kənd təsərrüfatı, unudulmuş, tənəzzülə uğramış digər sahələr dirçəldildi.

"Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox Olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır". Prezidentimiz bu sözləri səkkiz il əvvəl, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi üzrə sazişin müddəti 2050-ci ilin əvvəlinədək uzadılarkən - "Yeni əsrin müqaviləsi" imzalanarkən deyib. Ondan sonrakı nailiyyətlərimizi isə saymaqla bitməz.

Ən başlıcası, Azərbaycan 30 illik işğala son qoyub, düşməni qovaraq əzəli-əbədi torpaqlarına qayıdıb. Belə ki, neftdən əldə olunan gəlirlər o cümlədən Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Prezident İlham Əliyevin bu barədə dediklərinə də diqqət yetirək: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Görək "Əsrin müqaviləsi"nin gətirdiyi misilsiz bəhrələri mütəxəssis necə dəyərləndirir? BP-nin Xəzər regionunda xarici işlər və kommunikasiyalar üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli yazır: "Bu müqavilə dünyanın əsasən bütün iri neft və qaz şirkətlərinin iştirakı ilə bağlanmış 30-dan çox digər hasilatın pay bölgüsü sazişinin imzalanmasına yol açdı. Güclü və davamlı şəkildə artan iqtisadiyyatın yaranmasına töhfə verdi. Azərbaycan dövləti üçün bu iqtisadi artımı dəstəkləyən yeni əhəmiyyətli gəlir mənbəyi təmin etdi. Ölkənin beynəlxalq aləmlə qurduğu yeni ticarət əlaqələrinə əhəmiyyətli dəstək göstərdi... Dünya səviyyəli istehsal, təlim və təhsil obyektlərinin yaradılmasına imkan verdi və ümumilikdə ölkədə peşə və bacarıq bazasını gücləndirdi. Rəqabətqabiliyyətli yerli təchizat zəncirinin formalaşmasını stimullaşdırdı. Yüksək təhsilli yerli mühəndislərin və dünya səviyyəli digər peşəkar kadrların yetişməsinə imkan yaratdı. Yerli tikinti sektorunda on minlərlə iş yeri açdı. Bacarıqların inkişafı, infrastruktur, təhsil və gəlirli biznes imkanları yaratmaqla yüzlərlə kənd icmasının davamlı inkişafına dəstək verdi".

BP-dən (Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin əməliyyatçısı) söz düşmüşkən qeyd edək ki, bu şirkət tərəfdaşları ilə birlikdə ölkəmizdə həm də geniş sosial sərmayə layihələri həyata keçirir. Məsələn, 2024-cü ilin ilk üç rübündə BP və onun operatoru olduğu layihələrdəki tərəfdaşları bu sosial proqramlara Azərbaycanda təqribən 0,8 milyon dollar vəsait xərcləyiblər. Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından Azərbaycanda sponsorluq etdiyi sosial layihələrə ilin ilk üç rübündə təqribən 1 milyon dollar vəsait xərcləyib. BP və tərəfdaşları bu proqramları genişmiqyaslı əməliyyatların ayrılmaz bir hissəsi hesab edir, onları davamlı şəkildə həyata keçirirlər.

XX əsrin 90-cı illərində imzalanmış "Əsrin müqaviləsi"nin XXI əsrin ortasınadək uzadılması göstərir ki, bu, Ulu Öndər Heydər Əliyev dühası ilə həqiqətən də yüzilliklərə hesablanmış bir layihədir. Keçən ilin aprelindən həm də "Yeni əsrin müqaviləsi" çərçivəsində neft çıxarır və gəlir əldə edirik. AÇG-nin bir "vəd"i də var. Yaxın zamanlarda dərin laylarından qaz da verəcək.

Ümumilikdə isə Azərbaycanın qaz ehtiyatları çox zəngindir. Ən azı 100 il özümüzə də, bir sıra digər ölkələrə də yetər.

2017-ci il noyabrın 8-də Azərbaycanda 2 milyard ton neft hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə Prezident İlham Əliyev demişdir: "Əsrin kontraktı"nın nəticələri sadəcə olaraq Neft Fonduna gələn gəlirlərlə ölçülmür. Bunun çox geniş və çox böyük təsiri olub və bu gün də var. Biz qara qızılı insan kapitalına çevirə bildik. Biz neft gəlirlərimizdən çox səmərəli şəkildə istifadə etdik və bu gün dünya miqyasında bu, xüsusilə qeyd edilir. Bir çox ölkələrin zəngin neft yataqları var, ancaq o ölkələr səfalət içindədir, yoxsulluq şəraitində yaşayırlar. O ölkələrdə sabitlik pozulur, neft o ölkələrə fəlakət gətirir. Azərbaycanda isə neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

Prezidentimizin dediyi kimi, bütün bunlar bizə Allahın bəxşişidir. Dövlətimiz də, xalqımız da bu nemətlərin qədrini yaxşı bilir. Biz yenə də tikib qururuq. Vəhşi düşmənin caynağından azad etdiyimiz Qarabağımızda, Şərqi Zəngəzurumuzda şəhərlərimizi, kəndlərimizi yenidən abad məkana, yamyaşıl bağa, hətta "yaşıl enerji" zonasına çeviririk.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ağstafada "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş intellektual yarış keçirilmişdir



Ağstafada rayon icra hakimiyyətinin, Qazax-Tovuz Regional Təhsil İdarəsinin Ağstafa rayonu üzrə təhsil sektorunun və "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin iştirakı ilə "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü" adlı intellektual yarış keçirilmişdir.

Təhsil ocaqlarında hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlərin, eyni zamanda qoruq ərazisində yerləşən abidələrin təbliği tədbirlərinə dəstək olmaq məqsədi ilə keçirilən yarış Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlamışdır. Sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. 31 komandanın iştirak etdiyi 3 mərhələli yarışda komandalara Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, Azərbaycan Respublikasının Konstitusiyası, bölgələrimizin tarixi irsinə aid suallar təqdim olunmuşdur.

Gərgin və maraqlı bilik mübarizəsi şəraitində keçən yarışda Ağstafa şəhər 1 nömrəli tam orta məktəbin "Zəfər" komandası 1-ci, Dağkəsəmən kənd 1 nömrəli tam orta məktəbin "Avey" komandası 2-ci, Muğanlı kənd tam orta məktəbin "Tağlar" komandası 3-cü yerə layiq görülmüşdür. Qalib komandalar Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən sertifikat və hədiyyələrlə təltif olunmuşlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Sosial sahədə islahatlar davamlı olaraq həyata keçirilir

## Bu, əhalinin rifahının daha da yüksəlməsinə xidmət edir

İqtisadiyyatımız inkişaf etdikcə, ölkəmizin potensialı artdıqca başqa sahələrdə olduğu kimi, sosial sahədə də uğurlu dövlət siyasəti aparılır, insanların rifah halının davamlı yüksəlməsinə xidmət edən islahatlar həyata keçirilir, müsbət nəticələr əldə olunur.

Sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin rifah halı, güzəranı gündən-günə yaxşılaşır. Gələcək firavan günlərin təməli qoyulur. Ölkə əhalisinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində son illər ciddi irəliləyişlərə nail olunmuşdur. Əhalinin sosial müdafiəsi nəzərəçarpacaq dərəcədə gücləndirilmiş, sosial ödənişlərin və əməkhaqlarının artırılması istiqamətində uğurlu addımlar atılmışdır. Atılan bu addımlar isə əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına əlverişli zəmin yaratmışdır. Dövlətimizin uğurla həyata keçirdiyi sosial siyasət nəticəsində əhalinin rifahının yüksəlməsi sayəsində yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.

Əhalinin sosial rifahının artırılması istiqamətində nəzərdə tutulmuş bütün dövlət proqramları, layihələr uğurla və vaxtlı-vaxtında həyata keçirilir. Prezident İlham Əliyev çıxışlarının birində bu vacib məsələyə toxunaraq demişdir: "Sosial sahədə bütün proqramlar icra edilir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, bu, təbiidir. Ancaq bütün sosial proqramlar vaxtında icra edilir və bu da siyasətimizin əlamətidir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik".

Sosial sahədə islahatlar davamlı olaraq həyata keçirilir. Bu islahatların həyata keçirilməsində əsas məqsəd xalqımızın güzəranının daha da yaxşılaşdırılmasıdır. Sosial müdafiəyə ayrılan dövlət büdcəsinin həcmi ildən-ilə artırılır. Buna görə də xalqımızın sosial müdafiəsi gündən-günə güclənir. Bütün bunlar bir daha onu göstərir ki, ölkəmizdə əhalinin sosial rifahının gücləndirilməsi dövlət siyasətinin başlıca məqsədini təşkil edir.

Ölkəmizdə həyata keçirilən sosial layihələr, proqramlar vətəndaşlarımız tərəfindən də böyük razılıq və rəğbətlə qarşılanır. Başqa sahələrdə olduğu kimi, əhalinin sağlamlığının qorunması istiqamətində də mühüm addımlar atılır, bir-birindən səmərəli layihələr həyata keçirilir. Uğurla icra olunan bu layihələr əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsində mühüm rol oynayır. Əməkhaqları və pensiyalar, sosial müavinətlər, təqaüdlər mütəmadi olaraq artırılır. Şəhid ailələrinin, əlillərin və müharibə veteranlarının həyat tərzinin yaxşılaşdırılması istiqamətində olduqca zəruri tədbirlər həyata keçirilir. Bütün bu müsbət dəyişikliklər, qazanılan uğurlar dövlət başçımızın xalqımıza olan sonsuz sevgisinin, diqqət və qayğısının parlaq göstəricisidir.

Hər il həm əməkhaqları və təqaüdlər artırılır. Prezident İlham Əliyev 7 yanvar 2025-ci ildə yerli televiziya kanallarına verdiyi müsahibəsində bu vacib məsələyə də toxunmuşdur. Dövlət başçısı demişdir ki, bildiyiniz kimi, bu il yanvarın 1-dən minimum əməkhaqqı 55 manat artıb və 400 manata çatıb. Minimum pensiya 40 manat artıb və 320 manata çatıb. Orta hesabla artım 14-15 faizdir. Bu qədər böyük sərmayə qoyan və Qarabağın bərpası kimi qarşımızda böyük problemi olan ölkədə bu sahəyə də diqqət yetirmək, əlbəttə ki, bizim siyasətimizin mahiyyətini göstərir. Yəni Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar. Əgər biz bu artımı inflyasiyanın dərəcəsi ilə müqayisə etsək, - hansı ki, keçən il 2 faizdən bir qədər çox idi, - yəni bu artım məhz az müdafiə olunan təbəqə üçün dövlət tərəfindən növbəti yardımdır. "Hər şey cəmiyyətdə də, siyasətdə də, ailədə də ədalətli olmalıdır və sosial ədalət prinsipləri həmişə bizim üçün vacib olub. İmkan yarandıqca biz ilk növbədə bu sahəni də, necə deyərlər, diqqətdə saxlamışıq. Son bir neçə il ərzində dörd sosial paket həyata keçirildi və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsait xərcləndi. Bundan sonra da sosial və iqtisadi inkişaf yanbayan gedəcək. İqtisadi imkanlar artdıqca biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik".

Ölkəmizdə sosial sahənin inkişaf etdirilməsinə böyük önəm verilir. Bu sahənin inkişafı, tərəqqisi daim diqqətdə saxlanılır, müəyyən layihələr həyata keçirilir. Zamanında reallaşdırılan layihələr, aparılan islahatlar müsbət nəticələr əldə etməyə əlverişli şərait yaradır. Sosial müdafiə sahəsinə ayrılan dövlət büdcəsinin həcmi daim artırılır. Sosial siyasət dövlət tərəfindən müvafiq qanun və dövlət proqramları ilə tənzimlənir və vaxtlı-vaxtında icra olunur.

İldən-ilə ölkə büdcəsinin artırılması sosial proqramların həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsində bu barədə də danışıb. Dövlətimizin başçısı deyib: "Əlbəttə ki, büdcə parametrləri də hər bir ölkənin iqtisadi potensialını əks etdirir: həm parametrlər, həm dinamika. Bu ilin büdcəsi rekord səviyyədədir. Büdcə xərcləri 41 milyard manatdan çoxdur. İcmal büdcə isə 48 milyard manatı ötüb. Yəni Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. Bütün bu amilləri sadalayaraq bir daha göstərmək istəyirəm ki, biz yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində bu nəticələrə çatmışıq. Mən dəfələrlə bildirmişdim və artıq hesab edirəm ki, bunu hər kəs görür, hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır. Yəni iqtisadi cəhətdən, maliyyə məsələləri cəhətindən əgər heç kimdən asılı deyilsənsə, sən müstəqil siyasət apara bilərsən. Ona görə bütövlükdə, əlbəttə ki, bir çox digər parametrlər var. Amma əsas iqtisadi göstəricilər bundan ibarətdir. Təbii ki, bu, bizə imkan verir ki, sosial proqramları daha fəal icra edək".

Göründüyü kimi, 2025-ci il büdcəsinin artırılması sosial sahənin inkişafına, dövlət proqramlarının uğurla həyata keçirilməsinə böyük təkan verəcək. Deməli, bu il əhalinin sosial rifahı daha da yüksələcək, xalqımızın güzəranı günbəgün yaxşılaşacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycana qayıdış: milli ideyanın əsas hədəflərindən biri

## Qərbi Azərbaycan İcmasında görüş



Yanvarın 15-də Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurası ilə Azərbaycan Ağsaqqallar Şurasının üzvlərinin görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli görüşdə çıxış edərək Qərbi Azərbaycan İcmasının yaranma tarixi, eləcə də məqsəd və hədəfləri barədə iştirakçılara geniş məlumat verib.

İcmanın Prezident İlham Əliyevin tövsiyəsi ilə hazırlanan Qayıdış Konsepsiyası haqqında danışan Ə.Ələkbərli son iki ildə qurumun yerli və beynəlxalq müstəvidə gördüyü işlərdən bəhs edib, soydaşlarımızın ata-baba yurdlarına qayıdışı ilə bağlı xüsusilə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasının önəmini vurğulayıb, bu məsələdə Azərbaycan Ağsaqqallar Şurasının görə biləcəyi işlərə diqqəti çəkib.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəsində Qərbi Azərbaycanla bağlı məsələyə toxunmasını xatırladaraq hər kəsin üzərinə düşən mənəvi məsuliyyətdən danışıb.

Çıxışında Qərbi Azərbaycanla bağlı mühüm tədbirlərin ölkə daxilində və xaricində keçirilməsinin önəminə toxunan Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon icmasının sədri akademik Abel Məhərrəmov zəngin-mədəni irsimizin qorunub saxlanması yolunda gənclərimizlə görüşlərin keçirilməsinin vacibliyini qeyd edib.

İcmanın Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı akademik Əhliman Əmiraslanov çıxışında bildirib ki, hər iki şuranın hədəfləri Qərbi Azərbaycan həqiqətləri ilə bağlı gənclərin daha geniş məlumatlandırılması, Qərbi Azərbaycana qayıdışla bağlı gənclərin fəal iştirakının təşviq olunmasıdır.

AMEA-da Qərbi Azərbaycanla bağlı görülən işlər, yaradılan şöbələr barədə ətraflı məlumat verən AMEA-nın prezidenti, Milli Məclis yanında Toponimiya Komissiyasının sədri akademik İsa Həbibbəyli Qərbi Azərbaycanla bağlı kitabxananın yaradılması və onun zənginləşdirilməsini öz üzərinə götürdüyünü qeyd edib. AMEA-nın prezidenti çıxışından sonra Əziz Ələkbərliyə AMEA-da Qərbi Azərbaycanla bağlı nəşr olunan kitablar hədiyyə edib.

Sonra çıxış edən Azərbaycan Ağsaqqallar Şurası sədrinin müavini, Milli Məclisin deputatı professor Eldar İbrahimov Qərbi Azərbaycanla bağlı Özbəkistan və Türkiyədə tədbirlərin təşkil olunmasını təklif edib.

İcmanın Nəzarət-Təftiş Komissiyasının sədri professor Vahid Novruzov səsləndirilən fikirləri dəstəklədiyini bildirib, ağsaqqallar və gənclər arasında birgə tədbirlərin keçirilməsini təklif edib.

Daha sonra icmanın Ağsaqqallar Şurasının üzvü professor Əvəz Ələkbərov hər iki şuranın Qərbi Azərbaycan ideologiyası ilə bağlı yol xəritəsinin hazırlanması və bunun əsasında tədbirlərin keçirilməsi təklifi ilə çıxış edib.

İcmanın Ağsaqqallar Şurasının üzvü professor Həsən Bayramov Qərbi Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq müstəvidə tanıdılması üçün daha çox sayda kitabların hazırlanmasının önəmindən danışıb.

Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı birgə tədbirlərin keçirilməsinin önəmini vurğulayıb, icmanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Musayev bölgələrdə birgə tədbirlərin keçirilməsi təklifini irəli sürüb, BDU-nun Hüquq fakültəsinin professoru Əli Hüseynov, Mehri rayon icmasının üzvü İsmayıl Əliyev, icmanın Ağsaqqallar Şurasının üzvü İlqar Abbasov çıxışlarında natiqlərin fikirlərini dəstəkləyərək, təkliflərini bildiriblər.

Sonda Ağsaqqallar Şurasının sədri Eldar Quliyevə hədiyyə və kitablar təqdim edilib.

## Qərbi Azərbaycana qayıdış prioritet məsələlərdəndir

**Ermənistan XX əsrin axırlarında Azərbaycan xalqına ən böyük zərbəsini vurdu. Qərbi Azərbaycanda bir nəfər də yerli sakin qalmadı. Silahlı ermənilər qərbi azərbaycanlılara doğma evlərində, isti ocaqlarında rahat yaşamağa imkan vermədilər, qətllər, qarətlər törətdilər, onları dədə-baba yurdlarından didərgin saldılar. Azərbaycanlıların qədim torpaqlarına iki yüz il öncə tədricən köçürülərək yerləşdirilən və sonunda həmin yerlərdə özlərinə dövlət quran ermənilər, nəhayət, məkrli niyyətlərinə çatdılar.**



Ermənistanın etnik təmizləmə siyasəti səbəbindən qərbi azərbaycanlılar zəhmətlə, əziyyətlə, eyni zamanda xoş arzularla tikdikləri evlərindən ayrılmaq məcburiyyətində qaldılar. Azərbaycana pənah gətirdilər, respublikamızın müxtəlif bölgələrində yaşamalı oldular. O yerlərdə onların yalnız evləri deyil, həm də ən gözəl diləkləri, xəyalları, xatirələri qaldı. Qərbi azərbaycanlılar hazırda zorla çıxarıldıqları, qovulduqları evlərinin, yurdlarının nisgili, xiffəti ilə yaşayırlar.

Təəssüf ki, 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasına zidd olaraq açıq şəkildə Qərbi Azərbaycanda etnik təmizləmə həyata keçirən Ermənistan beynəlxalq səviyyədə cəzalanmadı. Elə buna görə daha da arxayınlaşdı, beynəlxalq hüququ tamamilə heçə sayaraq yeni cinayətlər törətdi. Azərbaycanlıların tarixinin nişanələri, mədəni irsinin dəyərli nümunələri olan abidələrini vəhşicəsinə məhv etdilər. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi, mədəni irs kütləvi şəkildə dağıdıldı, toponimlər dəyişdirildi. Bununla erməni vandallar Azərbaycan tarixi irsini Qərbi Azərbaycan torpaqlarından siləcəklərini, tarixi həqiqətləri unutduracaqlarını güman etdilər. Ancaq yaddan çıxardılar ki, heç zaman qərbi azərbaycanlıların qəlbindən, düşüncəsindən, yaddaşından yurd sevgisini çıxara bilməyəcəklər. Onlar öz yurdlarına qovuşmağa, haqq səslərini dünyaya çatdırmağa çalışacaqlar.

Qeyd edək ki, tarixi həqiqətlər o qədər aydındır ki, onları ermənilərin ört-basdır etmələri mümkün deyil. Bu yaxınlarda mətbuatda yayılan Levon Ter-Petrosyanın 1993-cü ildə Ermənistanın prezidenti ikən azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bəyan edən çıxışının videoyazısı da bunu təsdiqləyir. Ermənistanın ovaxtkı prezidenti həmin ilin iyununda terrorçularla görüşlərinin birində Göyçə gölünün, Zəngəzurun, Basarkeçərin, Uluxanlının, Amasiya rayonlarının adlarını çəkərək deyib ki, bu ərazilərdə azərbaycanlılar çoxluq təşkil edirdi. O, söyləyib ki, guya bu, Ermənistanın müstəqilliyi üçün böyük təhlükə imiş. L.Ter-Petrosyan azərbaycanlıların həmin ərazilərdən məqsədli şəkildə deportasiya olunduqlarını etiraf edib. O, çıxışında Ermənistanın irqçi, etnik təmizləmə siyasəti həyata keçirdiyi, azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarından qovulduğu ilə öyünüb.

Qərbi Azərbaycan İcmasının bəyanatında diqqətə çatdırıldığı kimi, hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Levon Ter-Petrosyanın prezident qismində 1993-cü ildə etdiyi məlum çıxışı azərbaycanlılara qarşı etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bir daha təsdiq edir: "Həmçinin xatırlatmaq yerinə düşür ki, L.Ter-Petrosyan həmin çıxışında Azərbaycan SSR-dən ermənilərin köçünün məhz Ermənistanın özü tərəfindən təşkil edildiyini də bildirib".

Bu məsələ ilə əlaqədar olaraq, Qərbi Azərbaycan İcması BMT-nin Baş katibi Antonio Quterreşə və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Folker Türkə məktublar ünvanlayıb. Məktublarda Ermənistanın sistemli şəkildə dövlət səviyyəsində həyata keçirdiyi irqi ayrı-seçkilik və etnik təmizləmə siyasətinin beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanması üçün çağırış edilib.

Qərbi Azərbaycana qayıdış İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra rəsmi Bakı üçün əsas prioritetlərdən biridir. Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə vurğuladığı kimi, indiki Ermənistan ərazisi, demək olar ki, vaxtilə onun mütləq əksəriyyətini təşkil edən hissəsi azərbaycanlıların yaşadıqları tarixi torpaqlardır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu gün biz deyirik ki, 300 min qərbi azərbaycanlı o bölgələrə qayıtmalıdır, amma bütövlükdə o bölgədən çıxmış və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların və onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur.

Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda və orada yaşaya bilmələri bütün beynəlxalq norma və prinsiplərə uyğun olan haqlı tələbdir. Prezident İlham Əliyev bildirdi ki, biz bu məsələdə Ermənistan rəhbərliyindən çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözləyirik. Dövlətimizin başçısı bir faktı da nəzərə çatdırdı ki, azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyəti indi tamamilə boş qalıb, orada heç kim yaşamır, ora qayıtmaq o qədər də böyük problem olmaz, yəni ki, kimisə oradan köçürmək lazım olmayacaq: "Sadəcə olaraq, təhlükəsizlik zəmanəti verilməlidir. Onların orada yaşama hüququ tanınmalıdır və əlbəttə ki, onların fəaliyyəti üçün şərait yaradılmalıdır. Yəni bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar".

Qərbi Azərbaycana qayıdış Azərbaycan dövlətinin əsas prioritetlərindən biri olaraq qalacaq. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bir daha bəyan etdi: "Amma bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana və o cümlədən Qərbi Zəngəzura yerləşəcəklər".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## <u>İcma:</u> "Ermənistan hökuməti monoetnik siyasətə son verməlidir"

"Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin 2025-ci il yanvarın 15-də verdiyi, Azərbaycan SSR-də ermənilərə qarşı qanunsuzluq törədildiyini iddia edən əsassız və böhtan dolu bəyanatını qınayırıq. Bəyanatın tonu həm də Ermənistanın İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını xatırladır.

Əvvəla vurğulayaq ki, etnik təmizləməni törədən dövlət Ermənistandır. Hakimiyyət illəri Azərbaycan torpaqlarının işğalı və azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin böyük hissəsinin aparıldığı dövrə təsadüf edən Levon Ter-Petrosyanın prezident qismində 1993-cü ildə etdiyi məlum çıxışı azərbaycanlılara qarşı etnik təmizləmənin Ermənistanın dövlət siyasəti olduğunu bir daha təsdiq edir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda daha sonra qeyd edilir: "Həmçinin xatırlatmaq yerinə düşür ki, L.Ter-Petrosyan həmin çıxışında Azərbaycan SSR-dən ermənilərin köçünün məhz Ermənistanın özü tərəfindən təşkil edildiyini də bildirib. L.Ter-Petrosyanın çıxışından müvafiq çıxarışı aşağıda veririk: "Hərəkat vaxtında başlamasaydı, bu gün Azərbaycanda 500 min erməni qalacaqdı. Onlar fiziki cəhətdən məhv edilməsələr belə, bu, Ermənistanı diz çökdürmək üçün ən güclü rıçaq olardı. Onların əhəmiyyətli bir hissəsi, 300 mindən çox insan Ermənistanda sığınacaq tapdı. Bu da milli problem idi, hərəkatımız sayəsində həll olunan böyük miqyaslı problem".

Bütün bunlar sübut edir ki, Ermənistan, işğalını mümkün hesab etmədiyi Azərbaycan ərazilərindən ermənilərin köçünü təşkil edərək, iki xalqın nümayəndələrinin dinc yanaşı yaşamaq təcrübəsini aradan qaldırmağı və Ermənistanda monoetnik dövlət yaratmağı hədəfləmişdir.

Ermənistan hökuməti böhtan və nifrət dolu bəyanatlar vermək əvəzinə, irqçiliyinə və monoetnik siyasətinə son verməli, qərbi azərbaycanlıların qayıdışına şərait yaradaraq, oradakı multietnik mühiti bərpa etməlidir".

## Qərbi azərbaycanlıların mədəni, milli, siyasi hüquqları geri qaytarılmalıdır

"Ayrı-seçkiliklərin baş verdiyi bugünkü ədalətsiz dünyada BMT dayanmadan müxtəlif məsələlərlə bağlı bəyannamələr qəbul edir, insan haqlarını "müdafiə edən" qurumlar tərəfindən uzun-uzadı yazılar yazılır. 1963-cü il tarixli BMT-nin İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Bəyannamə özündə 4 əsas məsələni ehtiva edir:

İrqi fərqlərə əsaslanan hər hansısa üstünlük fəlsəfəsi elmi cəhətdən saxta, əxlaqi cəhətdən çirkin, sosial cəhətdən ədalətsiz, təhlükəlidir və irqi ayrı-seçkiliyə nə nəzəri, nə də praktik baxımdan bəraət qazandırılmır;

İrqi ayrı-seçkilik - və daha da çoxu, irqi üstünlük və ya nifrətə əsaslanan hökumət siyasətləri - əsas insan hüquqlarını pozur, millətlər arasında dostluq və sülh münasibətlərinə, xalqlar arasında əməkdaşlığa, habelə beynəlxalq sülh və təhlükəsizliyə mane olur;

İrqi ayrı-seçkilik yalnız onun obyektləri olan şəxslərə deyil, həmçinin, onu təcrübədən keçirən şəxslərə də zərər verir;

Nifrət və bölünmə yaradan amillər olan irqi ayrı-seçkilik və seqreqasiyadan azad bir dünyanın qurulması BMT-nin əsas məqsədidir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri "Qərbi Azərbaycan milli-mədəni inkişaf" İctimai Birliyinin təsisçisi Seyid Aynur səsləndirib. O bildirib: "Ayrı-seçkiliyin olmaması və bərabərlik prinsipləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də təsbit edilib. Orada qeyd olunub: "Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar" (Maddə 1). Ləyaqət və hüquq bərabərliyi anlayışı müasir demokratiyaya daxildir və beləliklə, dövlətlər müxtəlif azlıqları və həssas qrupları bərabər olmayan rəftardan qorumağa məcburdurlar. Bu Bəyannamənin 2-ci maddəsində deyilir: "Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır".

O qeyd edib ki, illər əvvəl televiziya kanallarının birində yayımlanan verilişdə yarışan iştirakçıların adada yaşayan nadir növ sayılan timsahı kəsib yeməsindən hiddətlənib ayağa qalxan ictimai birliklər, canlıların həyatını qorumağın nə dərəcə vacib olduğundan dəm vuran bütün beynəlxalq təşkilatlar Qafqazda ən böyük köçürülməyə məruz qalmış Qərbi azərbaycanlıların da səsinə səs verməlidirlər.

"Yadınıza yaxın keçmişdə ermənilərin Qarabağdan könüllü gedərkən silah gücünə onilliklər boyu yiyələndikləri azərbaycanlıların ev-eşiklərinə od vurub, evlərdən sanitar qovşaq aksesuarlarını qucaqlayıb aradan çıxan ermənilərdən müsahibə alan dünya mediası öz yurdlarından zorla çıxarılan azərbaycanlılardan bəs niyə danışmır? Bunun bir cavabı var: Onlar, sadəcə, dövlətimizin Qafqaz regionunda daha da güclənməsindən qorxurlar. Avropa Parlamentinin, Avropa Şurasının nə üçün ağzına su alıb bu barədə heç nə danışmadığının əsl səbəbi də elə budur.

Bəli, cənablar, Qərbi azərbaycanlıların mədəni, milli, eyni zamanda siyasi hüquqları geri qaytarılmalı, vurulmuş maddi və mənəvi zərər ödənilməli, viran edilmiş torpaqlarımızın yenidən dirçəldilməsi, bununla bağlı təzminatların ödənməsi kimi onlarla məsələ beynəlxalq hüquq müstəvisində öz həllini tapmalıdır", - deyə Seyid Aynur əlavə edib.

O, həmçinin insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik, nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına açıq məktub ünvanladığını da xatırladıb.

## Nazirliyin dövlət təltiflərinə layiq görülmüş əməkdaşlarına vəsiqə və medallar təqdim olunub

Prezident İlham Əliyevin 27 dekabr 2024-cü il tarixli Sərəncamı ilə sosial müdafiə sahəsinin inkişafında səmərəli fəaliyyətinə görə "Tərəqqi" və "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif edilmiş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 əməkdaşına vəsiqə və medallar təqdim olunub.



Əməkdaşlarla görüşdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev təltif olunmuş nazirlik əməkdaşları adından göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev sosial islahatlar prosesində səmərəli fəaliyyəti ilə fərqlənən əməkdaşların əməyinin dövlət başçısı tərəfindən yüksək dəyərləndirildiyini, 2018-2024-cü illər ərzində ölkə Prezidenti tərəfindən nazirliyin 147 əməkdaşının dövlət təltiflərinə layiq görüldüyünü bildirib. Nazir əməkdaşları təbrik edərək onlara yeni uğurlar arzu edib.

Görüşdə nazirlik sistemində kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində görülən işlərə dair məlumat verilib.

Sonra vəsiqələr və medallar təqdim edilib. Təltifə layiq görülmüş əməkdaşlar dövlət başçısına onların fəaliyyətinə verdiyi yüksək qiymətə görə minnətdarlıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya, etimada uyğun olaraq bundan sonra da sosial müdafiə sisteminin inkişafı proseslərinə töhfə vermək əzmi ilə səylə çalışacaqlarını vurğulayıblar.

## TÜRKOMB-un cari ilin fəaliyyət planı üzrə müzakirələr aparılıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Türk Dövlətləri Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasının (TÜRKOMB) növbəti iclasında iştirak edib.



Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, Türkiyənin, Özbəkistanın, Qazaxıstanın ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərlərinin və nümayəndələrinin də iştirak etdiyi onlayn formatda keçirilmiş tədbirdə çıxış edən Səbinə Əliyeva Assosiasiyanın insan hüquqları sahəsində təcrübə mübadiləsi aparmaq üçün səmərəli platformaya çevrildiyini qeyd edib.

Ombudsman türk dövlətləri arasında əməkdaşlıq əlaqələrinin bütün sahələrdə inkişaf etdirildiyini, bu çərçivədə ombudsman təsisatlarının da sıx əlaqələrinin davam etdirilməsinin, insan hüquqları sahəsində təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini vurğulayıb.

Səbinə Əliyeva ötən müddət ərzində TÜRKOMB çərçivəsində Azərbaycanın Ombudsman təsisatı tərəfindən müxtəlif aktual mövzular üzrə tədbirlərin təşkil olunduğunu diqqətə çatdırıb, bu kimi tədbirlərin Assosiasiyaya üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsinə olduqca mühüm töhfə verdiyini bildirib və bu təşəbbüslərin davam etdirilməsini təklif edib.

Tədbirdə həmçinin TÜRKOMB-a üzv dövlətlərin ombudsman və milli insan hüquqları təsisatları tərəfindən ötən müddət ərzində həyata keçirilmiş fəaliyyəti barədə çıxışlar dinlənilib, cari ilin fəaliyyət planı üzrə müzakirələr aparılıb, təkliflər səsləndirilib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## De-fakto mandatını və funksiyasını itirmiş Minsk qrupu ləğv edilməlidir

### Bunu həm siyasi, həm də hüquqi reallıqlar diktə edir

"Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələri əsasında, BMT Nizamnaməsinin 51-ci maddəsinə istinad etməklə 30 illik işğala son qoydu, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Rizvan Nəbiyev deyib. O bildirib ki, Azərbaycan və Ermənistan qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüyünü tanıyır və bu, bir neçə dəfə bəyan olunub. Şərti dövlət sərhədinin delimitasiya və demarkasiyası üzrə dövlət komissiyası fəaliyyət göstərir. Azərbaycanın beynəlxalq hüquqa riayət etməklə döyüş meydanında əldə etdiklərinin diplomatik müstəvidə təsdiqinin davamı 2025-ci ilin prioritet fəaliyyətlərindəndir. "Bu mənada Ermənistanla sülh müqaviləsinin açıq qalan müddəaları üzrə danışıqların, həmçinin şərti dövlət sərhədində delimitasiya və demarkasiya məsələlərinin davam etdirilməsi bu il Azərbaycan hökumətinin fəaliyyət istiqamətlərini təşkil edir. 1990-cı illərdə işğal edilmiş Qazax rayonunun 4 kəndinin 2024-cü ildə Azərbaycana qaytarılması nəticəyönümlü danışıqlar üçün müəyyən ümidlər yaradır. Bu kontekstdə xarici siyasət müstəvisində nail olunması hədəflənən məsələlər sırasında 1992-ci ilin martında ATƏM tərəfindən təsis edilmiş və Şanlı Zəfərimiz nəticəsində funksiyasını tamamilə itirmiş Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupunun və həmsədrlik institutunun ləğvi öndə dayanır. Minsk qrupu ilə yanaşı, ATƏT çərçivəsində digər mexanizmlərin - Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi funksiyasız strukturların artıq rəsmi qaydada ləğv edilməsi də aktual məsələdir", - deyə deputat əlavə edib.

R.Nəbiyev qeyd edib ki, bunu həm siyasi, həm də hüquqi reallıqlar diktə edir. Minsk qrupunun məşğul olduğu predmet 2023-cü ilin sentyabrından tamamilə aradan qalxıb. De-fakto mandatını itirmiş mexanizmlərin keçmiş münaqişəni hansısa formada aktuallaşdıracaq qədər siyasi çəkisi olmasa da, hər hansı manipulyasiya üçün sui-istifadə edilmək və ya lüzumsuz təzyiq aləti kimi gündəmə gətirilmək potensialı qalır. Bu məsələnin hüquqi baxımdan məntiqi sonluğa çatdırılması üçün Ermənistanın göstərəcəyi praqmatik yanaşma çox vacibdir. Bu məsələ ATƏT çərçivəsində onun qaydalarına əsasən konsensusla həll edildiyinə görə, formal olaraq Ermənistanın da razılığı tələb olunur.

Deputat vurğulayıb ki, Azərbaycan bu məsələlərin həllinə nail olmaq üçün Ermənistan və yaxud həmsədr ölkələrlə ikitərəfli formatla yanaşı, çoxtərəfli formatda da fəaliyyət aparır: "Funksiyasını itirmiş mexanizmləri maliyyələşdirməyə davam edən struktura nəyə görə üzvlük haqqı ödənilməlidir? 2020-ci ilin 9 noyabrından sonra bu məsələni qəti və prinsipial qoyan Prezident İlham Əliyev müxtəlif siyasi-diplomatik müstəvilərdə bunu dəfələrlə gündəmə gətirib. Dövlət başçısı ötən ilin fevralında ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının Xarici, Avropa işləri və ticarət naziri İan Borqunla Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşdə də bu tələbləri qəti şəkildə səsləndirib. Bu il yanvarın 7-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində də Ermənistanın ATƏT-in Minsk qrupundan imtina etməli olduğunu vurğulayıb".

Deputat qeyd edib ki, Ermənistan buna son vaxtlar prinsipial olaraq müsbət tonlu mövqe sərgiləsə də, ziddiyyətli yanaşma məsələni çətinləşdirir. 2024-cü ilin dekabrında Ermənistanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevin Minsk qrupunun ləğvi ilə bağlı yanaşmasını "konstruktiv yanaşma" adlandırması və "1994-cü ildən danışıqların Qarabağın Azərbaycana qaytarılması üzrə aparıldığı" barədə açıqlaması da Minsk qrupunun ləğv olunmasına zəmin hazırlanması kimi şərh oluna bilər. Onun "əgər münaqişə yoxdursa, münaqişənin həlli ilə məşğul olan formatın olmasının nə mənası var?" sözləri bu pozitiv ehtimalı gücləndirir.

Yanvarın əvvəlində Nikol Paşinyan Azərbaycanla sülhün bərqərar olması ilə bağlı müxtəlif təkifləri, o cümlədən Minsk qrupunun buraxılmasını özündə ehtiva edən təkliflə çıxış edib. Bir neçə gün öncə isə Ermənistan baş nazirinin mətbuat katibinin sosial şəbəkə hesablarında "Ermənistan Minsk qrupunun buraxılması ilə bağlı ATƏT-ə müraciət etməyi nəzərdən keçirir" paylaşımı bu qənaəti bir az da gücləndirir. Ermənistan parlamentinin spikeri Alen Simonyanın mövzu ilə bağlı açıqlaması isə Azərbaycanın mövqeyinə ziddiyyət təşkil edir. Belə ki, erməni spiker Minsk qrupunun ləğvinin sülh sazişinin imzalanmasından sonra baş verə biləcəyini qeyd edərək, müqavilə imzalanandan sonra ona ehtiyac qalmayacağını və mənasını itirəcəyini bildirib. "Təbii ki, ATƏT-in keçmiş münaqişə ilə bağlı mexanizmlərinin ləğvi sülh müqaviləsi imzalanana qədər baş verməlidir. Azərbaycanın qəti və haqlı mövqeyi dəyişməz olaraq qalır. Bu addım Azərbaycan və Ermənistan arasında qarşılıqlı etimadı artırar, digər məsələlər üçün uğurlu zəmin kimi qəbul edilə bilər. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də Ağdamın işğalı günü səsləndirdiyi irqçi və faşist ideologiyasına xidmət edən və etnik təmizləməyə haqq qazandıran açıqlamaları bir daha sübut etdi ki, Azərbaycan Ermənistana malik olduğu işğalçı keçmişə görə tələblərində tam haqlıdır", - deyə R.Nəbiyev bildirib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Erməni saxtakarlığı

### Bu, sülhə xidmət etmir və olduqca təhlükəlidir

**Ermənilərin xaraktersizliyi onların ən böyük sərvətidir. Özlərini dünyanın "ən qədim" tarixi mədəniyyətinə malik milləti hesab edən hayları fransızlar katolik, ruslar pravoslav, ingilislər isə protestant kilsəsinin himayəsinə girməyə çağırıblar. Dünyada haylara göstərilən bu "diqqət" onların xəyanətkar olmalarına, satqınlığına, şəraitə uyğun olaraq dinlərini və məzhəblərini dəyişmək xislətinə verilən "dəyər"dir.**



İllərdir ki, ermənilər utanmadan türklər tərəfindən "genosid"ə məruz qaldıqlarını uydurub, özlərini dünyaya əzilən, sıxışdırılan, dini və milli təqibə məruz qalan xalq kimi təqdim edərək maddi, mənəvi və siyasi yardımlar alırlar. Ermənilər tarixi faktları zaman-zaman saxtalaşdırıblar. Məqam düşəndə də istər Türkiyədə, istərsə də Azərbaycanda insanlığa yaraşmayan qanlı qırğınlar törədiblər. Ermənilərin istər Anadoluda, istərsə də Bakı, Şamaxı, Quba və digər bölgələrimizdə törətdikləri qırğınları, talanları tarixi faktlar, sənədlər də sübut edir.

Qondarma "erməni soyqırımı" iddiası tarixi həqiqətdən çox uzaq olsa da, ermənilər niyə hələ də böhtan kampaniyalarından əl çəkmələri hayların ABŞ-dəki liderlərindən biri Ross Vartanyanın fikirlərində daha aydın görünür: "Soyqırımı layihəsi qəbul edilsəydi, bunu əldə rəhbər tutub, Türkiyədən əvvəlcə təzminat, sonra da Qara dəniz sahillərinə sərhəd olan Şərqi Anadoluda erməni dövlətinin qurulması üçün torpaq tələb edərdik".

Bu bir həqiqətdir ki, Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib.

Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya ediliblər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Bu zaman onların bir hissəsi, xüsusilə qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olublar.

1980-ci illərin sonlarında Ermənistanın Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları, terror əməlləri ilə başlamış bu münaqişə Azərbaycana qarşı hərbi təcavüzlə nəticələnib.

1987-ci ilin sonlarında Ermənistan SSR-in Qafan rayonunda azərbaycanlıların öz tarixi torpaqlarından qəddarlıqla deportasiya prosesi başlayıb. 1988-1989-cu illərdə Ermənistanın müxtəlif şəhər və rayonlarında yaşayan azərbaycanlılar da eyni aqibətlə üzləşiblər. Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulub, onlardan 216 nəfər vəhşicəsinə qətlə yetirilib, 1154 nəfər isə yaralanıb. Onlar erməni zorakılığından öz həyatlarını xilas etmək üçün Azərbaycana sığınmaq məcburiyyətində qalıblar.

Azərbaycanlılar 1988-ci ilə qədər Ermənistan ərazisində kompakt şəkildə yaşayıblar. Lakin sovet hakimiyyəti Dağlıq Qarabağ ərazisində yaşayan ermənilərdən fərqli olaraq, azərbaycanlıların kompakt məskunlaşdığı ərazilərə Ermənistan SSR daxilində muxtar status verməyib.

1988-ci il fevralın 13-də DQMV-nin mərkəzi Xankəndi şəhərində Qarabağ məsələsi ilə əlaqədar ermənilərin ilk nümayişi keçirilib. Fevralın 16-dan martın 2-dək DQMV-də müxtəlif mitinqlər təşkil edilib. Fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin erməniəsilli deputatları vilayətin Ermənistan SSR-ə birləşdirilməsi təklifinin lehinə səs veriblər (azərbaycanlı və digər millətlərdən olan deputatlar iclasda iştirak etməyiblər). Fevralın 21-də isə Sov.İKP MK "Dağlıq Qarabağ hadisələri haqqında" qərar çıxarıb və bu sənəddə Vilayət Sovetinin qərarı "millətçi elementlər tərəfindən təhrik edilmiş" aksiya adlandırılıb. Buna baxmayaraq, fevralın 22-də Xankəndi-Ağdam şosesi üzərində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında ermənilər DQMV-nin Xalq Deputatları Sovetinin yuxarıda qeyd olunan qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açıblar. Nəticədə iki azərbaycanlı gənc şəhid olub. Martın əvvəlində Dağlıq Qarabağı Ermənistana birləşdirməyi qarşısına məqsəd qoyan "Qarabağ" təşkilatı maneəsiz şəkildə Yerevanda, "Krunk" təşkilatı isə Xankəndidə fəaliyyətə başlayıb.

1988-ci il fevralın 27-29-da keçmiş SSRİ-nin ali hakimiyyət orqanlarının bilavasitə rəhbərliyi ilə Sumqayıt hadisələri törədildi və bu vəhşilik aktı Azərbaycan xalqının adına yazıldı.

Sumqayıt hadisəsinin təşkilatçıları şəhərdə iğtişaşlar törətmək məqsədilə "xüsusi" hazırlıqlar görmüşdülər. Gənclərə, xüsusən texniki peşə məktəblərinin şagirdlərinə spirtli içkilər, müxtəlif psixotrop dərmanlar və s. paylamışdılar. Əhalinin arasında Azərbaycan dilini təmiz bilən ermənilərdən ibarət olan təxribatçı qruplar yerləşdirmişdilər. Onlar Ermənistanda və Dağlıq Qarabağda ermənilərin azərbaycanlıları kütləvi şəkildə döymələri, təhqir etmələri, azyaşlı qızları zorlamaları və öldürmələri barədə qızışdırıcı məlumatlar yayırdılar. Bu informasiyalarda Bakının dəmiryol vağzalına Ermənistanda öldürülən azərbaycanlıların cənazələrinin daşınması barədə məlumatlar yer alırdı. Sumqayıt da isə guya içərisi meyit və yaralılarla dolu avtobusu şəhərin küçələrində nümayiş etdirirdilər. Şəhərin Lenin meydanındakı mitinqdə hətta bir nəfər qadın döşünü camaata göstərərək onun ermənilər tərəfindən anasının kəsilmiş döşü olduğunu inandırmağa çalışırdı. Hüquq-mühafizə orqanlarının səlahiyyətləri dondurulmuşdu. Ekstremist əhvali-ruhiyyəli iş aparanlara güldən ağır söz deyilmirdi. Şəhərə vaxtında ordu göndərilməsi tələbləri SSRİ DTK-nın müavini Bobkov tərəfindən əhəmiyyətsiz məsələ kimi qulaqardına vurulmuşdu. Fevralın 28-dən 29-na keçən gecə şəhərə daxil olmuş ordu hissələri və daxili qoşunlar şəhər partiya komitəsinin binasını mühasirəyə alaraq gözləmə mövqeyində dayanmışdılar. Fevralın 29-da günorta ordunun proseslərə gözlənilməz müdaxiləsi nəticəsində 6 nəfər azərbaycanlı tankların tırtılları altında vəhşicəsinə həlak oldular, 400 nəfərə qədər adam xəsarət aldı, 200 mənzil talan edildi, 50 mədəni-məişət obyekti dağıdıldı, 40-dan çox avtomobil zədələndi və bir hissəsi yandırıldı...

Ermənilərdən fərqli olaraq, azərbaycanlılar erməni millətindən olan qonşularını, tanıdıqlarını qoruyur, təxribatçı qüvvələrin onlara zərər verməsinin qarşısını alırdılar. Azərbaycanı tərk edən ermənilərin çoxu dəfələrlə onlara olan xeyirxah, insani münasibətlər barədə açıqlama veriblər. Ermənistan hökuməti xalqımızın başına gələn tarixi facіə ərəfəsi yalan məlumatlar yayaraq dünya ictimaiyyətini çaşdırmağa çalışırlar. Öz ənənəsinə sadiq qalan Ermənistan Xarici İşlər Nazirliyi 2025-ci il yanvarın 15 -də guya 1990-cı ilin yanvarında Bakıda ermənilərə qarşı qırğının törədilməsi ilə bağlı əsassız bəyanatı ilə bu ölkənin Azərbaycana qarşı sistematik etnik nifrət və dözümsüzlük siyasətini davam etdirib.

Aydın məsələdir. Əslində, Ermənistan XİN bu kimi uydurma təbliğat xarakterli məlumatlar yaymaqla tarixən Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi soyqırımını, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini, 30 ilə yaxın müddət ərzində bir milyondan çox azərbaycanlının fundamental hüquqlarını kobudcasına pozduqlarını gizlətmək məqsədini güdür. Ermənilərin saxta təbliğatının tərkib hissəsi olan uydurma "Sumqayıt qırğınları"nın azərbaycanlıların deportasiyası və kütləvi şəkildə qətlə yetirilməsinə haqq qazandırmaq üçün ermənilərin düşünüb hazırladığı və Eduard Qriqoryan vasitəsilə icra olunan bir plan olduğunu bütün dünya bilir.

Ermənistan anlamalıdır ki, tarixi kütləvi şəkildə saxtalaşdırıb təbliğat aparmaq sülhə xidmət etmir və bu, olduqca təhlükəlidir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Fransa ölkəmizə qarşı "binokl diplomatiyası"nın lokomotividir

"Vətən müharibəsindən sonra Paşinyan hesab etdi ki, Ermənistana yeni təminat verən qüvvə lazımdır. Ona görə də regiondan qovulan Minsk qrupunun üzvləri - Fransa və ABŞ-ni fərqli ampluada regiona qaytarmaq qərarı verdi".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, bu dəfə həmin ölkələr müxtəlif missiyalarla yalnız Ermənistan ərazisində möhkəmlənməyə başlayıblar. Elə buna görə də Ermənistanla yanvarın 20-də istefaya gedəcək Cozef Baydenin səlahiyyət müddəti başa çatan administrasiyası ilə strateji tərəfdaşlıq sazişi imzalanıb. İmzalanma A.Mirzoyan və Blinkenin iştirakı ilə Vaşinqtonda baş tutub. "2024-cü ilin aprelində ABŞ-nin Bayden administrasiyasının təşəbbüsü ilə Brüsseldə Aİ və Ermənistan arasında görüş keçirilib. Bu sənəd həmin prosesin məntiqi davamıdır. Bu görüşdə də ABŞ hər vəchlə Ermənistana həm iqtisadi, həm də hərbi dəstək verilməsini dəstəkləyirdi. İlkin mərhələdə üçtərəfli sazişdən sonra məsələnin ikitərəfli formata keçəcəyini gözləyirdik və belə də oldu", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Fransa Ermənistana həm maddi, həm də hərbi yardımlarını dəfələrlə artırıb. Makron hökuməti Ermənistanı hərbiləşdirməklə oradakı revanşist qüvvələri təşviq edir, Azərbaycana qarşı yeni müharibəyə həvəsləndirir. Ermənistanı silahlandıran və ona havadarlıq edən başlıca ölkə Fransa senatorları və silahlı qüvvələr naziri 23 oktyabr 2024-cü ildə senatda keçirilən ictimai dinləmə zamanı bunu etiraf edib. Fransa hesab edir ki, regionda qalmasının tək yolu Ermənistanın daxilinə daha dərindən inteqrasiya etməsidir, çünki Azərbaycan heç bir xarici qüvvəni öz ərazisinə buraxmır və ölkənin suverenliyini hökumət yüz faiz öz təminatı altında saxlayır.

2022-ci il oktyabrın 20-də iki ay müddətinə yaradılmış Aİ-nin Ermənistan-Azərbaycan sərhədindəki missiyasının müddəti bitdikdən sonra Fransanın öncüllüyündə və Azərbaycan tərəfinin razılığı olmadan ona 20 fevral 2023-cü ildən etibarən daha iki il müddətinə mandat verilib. Aİ Xarici İşlər Nazirləri Şurasının 11 dekabr 2023-cü ildəki iclasında Fransanın təşəbbüsü ilə təşkilatın Ermənistandakı missiyasının şəxsi heyətinin sayının 138-dən 209-a qaldırılması barədə qərar qəbul edilib. Hazırda onun əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Fransa ölkəmizə qarşı olan bu "binokl diplomatiyası"nın lokomotividir.

P.Vəliyeva vurğulayıb ki, Vətən müharibəsi təkcə işğalçı üzərində qələbə deyildi, həm də işğalçını həvəsləndirən bəzi siyasi liderlərin məğlubiyyəti idi: "Makron müharibənin ilk günlərindən Azərbaycana müxtəlif formalı təzyiqlər göstərməyə çalışdı, ölkəmiz əleyhinə BMT Təhlükəsizlik Şurasında 5 qətnamə layihəsi irəli sürdü. 2020-ci ilin oktyabrında BMT TŞ-də Fransa tərəfindən də dəstəklənən TŞ Sədrinin Bəyanatının qəbul edilməsi təşəbbüsü olub. Bu təşəbbüs həmin vaxt şuranın üzvü olan 7 Qoşulmama Hərəkatı üzvü dövlətinin mövqeyi nəticəsində baş tutmadı. Buna rəğmən dövlətimizin başçısı sonacan təzyiqlərə məhəl qoymayaraq qələbə qazandı".

Deputat bildirib ki, Makron Ermənistanın məğlubiyyətini şəxsi uğursuzluğu kimi qəbul etdiyindən müharibədən 4 il keçməsinə baxmayaraq, Azərbaycan əleyhinə səylərini dayandırmır. O, praqmatik düşüncədən kənara çıxaraq məsələni şəxsiləşdirir. Erməni xalqı bilməlidir ki, Fransa onları uçuruma aparır və bu, onların növbəti faciəsi ilə nəticələnə bilər. Avropa İttifaqı istiqamətinə dönən Ermənistan oyunların alətinə çevrilib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Paşinyan hakimiyyətini çətin günlər gözləyir

### İqtidar fraksiyasının deputatları baş nazirlə təcili görüş tələb edirlər

Ermənistanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə iqtidara qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Baş nazir Nikol Paşinyan hər vəchlə hakimiyyətini möhkəmləndirməyə çalışır. Amma ölkənin bütün sahələrində, o cümlədən sosial sferada artan problemlər insanları ciddi çətinliklərlə üzləşdirib.

Digər tərəfdən görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlara belə gedir. Məhz belə vəziyyətdə problemlər içində boğulan Hayastan əhalisi yeni hökumətə də etibar etmir.

Bütün bunların fonunda isə Ermənistan baş naziri avtoritar rejimlə hakimiyyətini daha da möhkəmləndirməyə çalışır. Bu barədə "The National Interest"də geniş yayımlanan məqalədə bildirilir ki, sadə ermənilər inqilab yolu ilə hərbi cani Serj Sarkisyanı devirən Paşinyanın "Məxməri inqilabı"na böyük ümidlər bəsləyirlərmiş. Amma son illərdə Ermənistanın demokratik mənzərəsi daha da qaranlıqlaşıb. Hazırda isə yarıtmaz hakimiyyət aktiv şəkildə qeyri-demokratik idarəçiliyə, hətta avtoritarizmə doğru addımlayır.

Məqalədə İrəvanın antidemokratik addımlarına dair tutarlı faktlar da göstərilib. Məsələn, siyasi fəalların və jurnalistlərin təqib olunması indi daha çox narahatlıq doğurur. Bu faktlar hətta demokratik təsisatların fəaliyyətinin qiymətləndirilməsi üzrə ixtisaslaşmış bir sıra QHT-lərin illik hesabatlarında da öz əksini tapır.

Bütün bunların fonunda Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının deputatları baş nazir Nikol Paşinyanla görüşü ümidlə gözləyirlər. "Joğovurd" nəşrinin yaydığı xəbərə



görə, iqtidar fraksiyasının deputatları Paşinyanla görüşün təşkil olunması üçün rəhbərliyə müraciət ediblər. Baxmayaraq ki, fraksiya üzvləri zahirən hər şeyin qaydasında olduğunu, ölkənin sakit və firavan yaşam tərzini göstərməyə çalışır, Paşinyan ölkədə həyatın aktiv olduğunu vurğulayır, lakin yenə də deputatların daxili narahatlıqları və açıq qalan sualları var: "Avropa İttifaqına (Aİ) üzvlük məsələsi də havadan asılı vəziyyətdə qalıb. Paşinyan əvvəlcə referendum olmayacağını, Ermənistanın Aİ-yə yalnız onların icazə verdiyi qədər yaxınlaşacağını bildirmişdi. İndi isə tamamilə əksinə, hökumət iclasında bu məsələni müzakirə edir və bildirir ki, Ermənistanın Avropa gələcəyini 50 min imza toplayan xalq müəyyənləşdirəcək".

Məhz bu məsələləri və daxili müzakirələri aydınlaşdırmaq üçün fraksiyanın deputatları Paşinyanla görüşmək istəyirlər. Amma bu görüşün nə vaxt baş tutacağı, Paşinyanın parlamentə nə zaman gələcəyi hələ bəlli deyil. Deputatlar fraksiya rəhbərinin cavabını gözləyirlər.

Bu arada o da vurğulanır ki, Aİ-yə üzvlük layihəsinə dəstək verilməsindən sonra Rusiyadan gələn təhdidlər Nikol Paşinyanı narahat edib. Bildirilir ki, Paşinyan icra və qanunvericilik orqanlarının rəsmilərinin iştirakı ilə İcevan şəhərində müzakirələr təşkil edib. Bu müzakirələrdə Ermənistan iqtisadiyyatına gözlənilən ağır təsirlərin qarşısını almaq yolları təklif olunub. Lakin baş nazir bildirib ki, Aİ layihəsindən geri çəkilmək və onu qəbul etməkdən imtina etmək mümkün deyil. Ancaq məlum olub ki, bazar ertəsi başlayacaq parlamentin yaz sessiyasının ilk iclasının gündəliyinə Aİ-yə üzvlük layihəsi daxil edilməyib, baxmayaraq ki, bu layihə keçən ilin sonundan parlamentə təqdim edilib.

Hakimiyyət fraksiyasında isə deputatların böyük bir hissəsi bu layihənin qəbuluna qarşı çıxır. Onlar bunu "təhlükəli nəticələri olan macəra" adlandırırlar. Layihənin mətni "Vətəndaş Müqaviləsi" fraksiyasında istehza mövzusu olub. Fraksiya üzvləri Avropaya tələsənlərin savadsızlıq və sadəlövhlük səviyyəsindən heyrətləndiklərini bildirirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası

**Mündəricat**

1. Qısa xülasə ....................................3
2. Qlobal trendlər ....................................3
3. Mövcud vəziyyətin təhlili....................................4
4. Hədəf göstəriciləri ....................................5
5. Məqsədlər ....................................6
6. Prioritet istiqamətlər ....................................7
6.1. Dövlət idarəetməsinin rəqəmsallaşdırılması....................................7
6.2. Rəqəmsal etimad və inkişaf üçün hazırlıq, kadr potensialının gücləndirilməsi...........14
6.3. Özəl sektorda rəqəmsallaşmanın dəstəklənməsi....................................15
6.4. Gözlənilən nəticələr ....................................16
7. Maliyyələşdirmə mexanizmləri....................................17
8. Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı ....................................18
9. Akronimlər və ixtisarlar....................................25

## 1. Qısa xülasə

Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası (bundan sonra - Konsepsiya) rəqəmsal texnologiyaların tətbiqi yolu ilə dövlət idarəetməsinin təkmilləşdirilməsini, iqtisadi inkişafın sürətləndirilməsini və vətəndaşların həyat keyfiyyətinin artırılmasını hədəfləyir. Bu Konsepsiya rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyət prinsipləri əsasında hazırlanmışdır. Məqsəd vətəndaşların rifahını yüksəltmək, dövlət xidmətlərini modernləşdirmək və iqtisadiyyatın rəqəmsal transformasiyasını sürətləndirməkdir.

Konsepsiyada rəqəmsal iqtisadiyyatın inkişafı üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, biznes və startap ekosistemlərinin gücləndirilməsi nəzərdə tutulur. Həmçinin, rəqəmsal texnologiyaların, xüsusən süni intellekt və blokçeyn kimi innovasiyaların tətbiqi əsas məqsədlərdən biri olaraq müəyyən edilmişdir.

Dövlət idarəetməsi rəqəmsal texnologiyalara əsaslanan daha çevik və şəffaf proseslərlə təmin ediləcək,kağız daşıyıcılardan tamamilə imtina olunaraq "rəqəmsal hökumət"ə keçid baş verəcək, böyükhəcmli məlumatların təhlili, süni intellekt və bulud texnologiyaları kimi innovasiyalar tətbiq olunacaqdır.

Rəqəmsal cəmiyyət üçün rəqəmsal savadlılıq artırılacaq, kibertəhlükəsizlik təmin ediləcəkdir. İKT üzrə mütəxəssislərin hazırlanması, tədris proqramlarının müasirləşdirilməsi və İKT üzrə işçilərin əməkhaqqı səviyyəsinin artırılması prioritet məsələlərdir.

Biznes prosesləri rəqəmsal platformalara keçid edəcək, dövlət-özəl tərəfdaşlığı genişləndiriləcək, IV Sənaye İnqilabı texnologiyalarının tətbiqi ilə iqtisadiyyatın müxtəlif sektorları rəqəmsallaşdırılacaq, startapların və innovativ ekosistemin inkişafına dəstək göstəriləcəkdir.

Milli kibertəhlükəsizlik strategiyası çərçivəsində dövlətin, biznesin və fərdi məlumatların qorunması üçün qabaqlayıcı tədbirlər görüləcək, dövlət informasiya sistemləri və ehtiyatları müasir təhlükəsizlik standartlarına uyğun şəkildə inkişaf etdiriləcəkdir.

"Hökumət buludu", "açıq məlumatlar" və genişzolaqlı internet şəbəkələri genişləndiriləcək, 5G şəbəkələrinin qurulması və milli məlumat mərkəzlərinin inkişafı həyata keçiriləcəkdir.

Konsepsiyanın reallaşdırılması nəticəsində dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə prosesləri təkmilləşəcək, göstərilən dövlət xidmətləri rəqəmsal platformaya transformasiya ediləcək, formalaşan yeni texnoloji tələblər əsasında dəyişən iqtisadi fəaliyyətlərin çevik uyğunlaşması baş verəcək, insan və texnoloji kapitalın ölkə daxilində saxlanılması təmin ediləcək, eləcə də ölkənin dünya bazarlarında rəqabət qabiliyyəti artacaqdır.

## 2. Qlobal trendlər

Rəqəmsal inkişaf dünya ölkələrində iqtisadiyyat, idarəetmə, texnologiya və cəmiyyət sahələrinin dərin dəyişikliyə məruz qalmasını şərtləndirir. Beynəlxalq miqyasda formalaşan aşağıdakı trendlər bu prosesin əsas istiqamətlərini müəyyən edir:

1. Rəqəmsal iqtisadiyyatın üstünlüyü. IV Sənaye İnqilabı texnologiyaları, o cümlədən süni intellekt, blokçeyn, əşyaların interneti (IoT) və böyükhəcmli məlumatlar, iqtisadiyyatı daha çevik, şəffaf və innovativ edir. Sinqapur yeni rəqəmsal ekosistemlərin yaradılması və iqtisadi effektivliyin artırılması istiqamətində qlobal liderə çevrilmişdir.

2. Rəqəmsal idarəetmə modelləri. Estoniya kimi ölkələr rəqəmsal idarəetməni tam şəkildə tətbiq edərək, çoxşaxəli elektron dövlət xidmətlərinin istənilən vaxt və istənilən məkandan əlçatan olmasına nail olmuşlar. Bulud texnologiyaları və süni intellekt əsaslı sistemlər idarəetmə proseslərini daha da optimallaşdırmağa imkan vermişdir.

3. Kibertəhlükəsizlik prioriteti. Rəqəmsal dövrdə kibertəhlükəsizlik infrastruktur və məlumatların qorunması üçün əsas faktorlardan biridir. Avropa Birliyinin NIS2 Direktivi kritik infrastrukturları qorumaq üçün qabaqcıl tədbirlər təklif edir. Eyni zamanda Estoniya kibertəhlükəsizlik strategiyası vasitəsilə dövlət sistemlərini daha etibarlı edir.

4. Süni intellektin tətbiqi. Süni intellekt tətbiqləri qərarların qəbul edilməsi prosesini tezləşdirir və dəqiqləşdirir. Koreya Respublikası idarəetmə və ictimai xidmətlərdə süni intellektə əsaslanan platformaları mərkəzləşdirmişdir.

5. Rəqəmsal savadlılıq proqramları. Vətəndaşların rəqəmsal bacarıqlarını artırmaq üçün Sinqapur və Finlandiya kimi ölkələr rəqəmsal maarifləndirmə proqramları hazırlayır. Bu yanaşma texnologiyadan istifadəni hər kəs üçün daha əlçatan edir.

6. Startap ekosisteminin gücləndirilməsi. Dünyada texnoloji inkişafın mərkəzində innovativ startaplar dayanır. Məsələn, İsrail hi-tech sektoru və innovasiya texnoparkları sayəsində beynəlxalq bazarda aparıcı rol oynayır. Sinqapur da bu sahədə özəl sektorla bərpaolunan əməkdaşlığı genişləndirir.

7. Dayanıqlı texnologiyaların tətbiqi. Avropa ölkələri yaşıl texnologiyaları öz rəqəmsal inkişaf strategiyalarına daxil edirlər. Karbon emissiyalarını azaltmaq və enerji effektivliyini artırmaq üçün yenilikçi texnologiyalar tətbiq olunur.

Bu trendlərin izlənilməsi və tətbiqi rəqəmsal inkişafda üstün mövqe qazanılmasını təmin edəcəkdir.

## 3. Mövcud vəziyyətin təhlili

Son illər ərzində Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti çərçivəsində "elektron hökumət"in formalaşması, elektron imzanın tətbiqi, dövlət xidmətlərinin "bir pəncərə" prinsipi əsasında təqdim edilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Bu məqsədlə "Elektron Hökumət İnformasiya Sistemi" (EHİS) fəaliyyət göstərir, dövlət informasiya sistemləri və ehtiyatları isə müasir, təhlükəsiz və qorunan fiziki və rəqəmsal infrastrukturda yaradılaraq saxlanılır və coğrafi ehtiyatlarla təmin edilir. Həmçinin "Hökumət buludu"nun yaradılması, informasiya mübadiləsi üçün xüsusi infrastruktur vasitələrindən istifadə, "elektron hökumət" ineffektiv fəaliyyətini təmin edən dövlət informasiya sistemləri və ehtiyatlarının inkişafı üzrə mühüm işlər görülmüşdür. İnformasiya-kommunikasiya texnologiyalarının, genişzolaqlı internetin, telekommunikasiya qurğularının və innovasiyaların tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur yaradılmışdır. Dövlət qurumları tərəfindən formalaşdırılan açıq məlumatlar insan və maşın tərəfindən oxunabilən və rəqəmsal formatlarda "Açıq məlumatlar" portalında ictimaiyyətə təqdim edilmiş, rəqəmsal innovasiyalarla bağlı startaplar dəstəklənmiş, biznes fəaliyyətinin səmərəli təşkili üçün texnoparklar və sənaye zonaları yaradılmışdır.

2023-cü ilin hesabatına görə, əhalinin 88%-i internet istifadəçisidir. Dünya Bankı 2022-ci ilin noyabrında "GovTechMaturity" İndeksi (GTMI) üzrə 198 ölkə arasında ilkin reytinqləri açıqlamış, Azərbaycan 2020-ci ildəki B qrupundan 2022-ci ildə A qrupuna (Liderlər) yüksəlmişdir. BMT-nin "e-GovernmentSurvey 2022" hesabatında isə Azərbaycan "Elektron Hökumətin İnkişafı İndeksi" üzrə 193 ölkə arasında 83-cü yeri tutmuş, o cümlədən "Onlayn Xidmətlər İndeksi" üzrə 100 mümkün baldan 61 bal (dünya üzrə orta bal 56), "Telekommunikasiya İnfrastrukturunun İnkişafı İndeksi" üzrə 68 bal (dünya üzrə orta bal 58), "İnsan Kapitalı İndeksi" üzrə isə 79 bal (dünya üzrə orta bal 70) toplamışdır.

Rəqəmsal inkişafla bağlı mühüm məsələlərdən biri müxtəlif informasiya sistemlərinə və ehtiyatlarına eyni məlumatların təkrar daxil edilməsinin qarşısının alınmasıdır. Bu məqsədlə dövlət qurumlarından toplanılanilkin mənbə məlumatlarının təhlili və unikallaşdırılması nəticəsində "İnformasiya Mənbələrinin Reyestri" yaradılmışdır. Eyni zamanda "Dövlət Xidmətlərinin Elektron Reyestri" vasitəsilə dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanılması və sistemləşdirilməsi həyata keçirilmiş, eyniməzmunlu xidmətlərin aşkar edilməsi və təkrarçılığın qarşısının alınması təmin olunmuşdur.

Bunlarla yanaşı ölkədə rəqəmsallaşma ilə bağlı mövcud çağırışlar aşağıdakı istiqamətlərdə işlər görülməsini tələb edir:

- dövlət idarəetmə sisteminin rəqəmsallaşdırma səviyyəsinin müasir tələblərə uyğun olaraq həyata keçirilməsi və G2X seqmentləri (G2G/G2E/G2C/G2B) üzrə dövlət xidmətlərinin gücləndirilməsi;
- dövlət qurumlarında kağız məlumat daşıyıcılarından istifadənin azaldılması üçün tədbirlər görülməsi;
- vətəndaşların yerli icra hakimiyyəti orqanlarına elektron müraciət imkanlarının artırılması;
- açıq məlumatların formalaşdırılması, paylanması, istifadəsi və arxivləşdirilməsinin tənzimlənməsi;
- qurumların (şəxslərin) xidmət göstərmə və digər fəaliyyət zamanı əldə etdikləri məlumatların saxlanılma bazalarının elektron informasiya sistemləri və ehtiyatları ilə əvəzlənməsi;
- inzibati icraat zamanı dövlət informasiya sistemləri və ehtiyatları üzərindən verilən arayışlarınvə digər sənədlərin tanınması üçün tədbirlər görülməsi;
- İKT sahələrində əlavə mütəxəssis və menecer heyətinin formalaşdırılması;
- İKT ilə bağlı statistik məlumatların dürüstlüyünün, bütövlüyünün və dəqiqliyinin artırılması.

Bu addımlar ölkəmizin rəqəmsal inkişafını sürətləndirərək, dövlət xidmətlərinin daha şəffaf, səmərəli və "vətəndaşa dost" olmasını təmin edəcəkdir.

## 4. Hədəf göstəriciləri

Konsepsiyanın icrası nəticəsində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

**1. Rəqəmsal iqtisadiyyatın inkişafı**
- Qeyri-neft/qaz sektorunda rəqəmsal iqtisadiyyatın xüsusi çəkisinin artırılması
- İKT sektorunun ümumi daxili məhsuldakı payının yüksəldilməsi.

**2. Texnologiya tətbiqlərinin genişləndirilməsi**
- Bulud əsaslı həllərin tətbiqi
- Rəqəmsal məhsul və xidmətlərin əhatə dairəsinin genişləndirilməsi.

**3. Rəqəmsallaşdırma proseslərinin optimallaşdırılması**
- Rəqəmsallaşdırmanın vahid arxitektura əsasında həyata keçirilməsi
- Məlumatların idarə olunmasında müasir arxitektura yanaşmalarının tətbiqi
- Dövlət xidmətlərinin sadələşdirilməsi və optimallaşdırılması.

**4. İstifadəçiyönümlü rəqəmsal xidmətlər**
- Pilot layihələr (regulatorysandbox) əsasında rəqəmsal xidmətlərin təşkili
- "Bir pəncərə" prinsipi ilə vətəndaşlara təqdim olunan rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsi.

**5. İnsan resurslarının inkişafı**
- Rəqəmsal savadlılığın artırılması
- Əmək bazarının tələblərinə cavab verən kadr hazırlığı və mövcud kadr potensialının təkmilləşdirilməsi.

**6. Dövlət-vətəndaş əlaqələrinin yaxşılaşdırılması**
- Dövlət və özəl sektor arasında əməkdaşlıq üçün münbit şərait yaradılması
- Vətəndaşlardan tələb olunan sənədlərin sayının azaldılması
- Dövlət xidmətlərinin keyfiyyətindən məmnunluğun və dövlətə inamın artırılması.

Yuxarıda göstərilən istiqamətlər rəqəmsallaşdırma sahəsində müasir çağırışlara cavab verməklə yanaşı, ölkənin rəqəmsal inkişafını sürətləndirmək məqsədi daşıyır.

## 5. Məqsədlər

Vətəndaş, biznes və dövlət maraqları nəzərə alınaraq, Konsepsiya aşağıdakı məqsədlərə nail olunmasına xidmət edir:

**Vətəndaş baxımından**

1. Daha əlçatan xidmətlər:
- Dövlət xidmətlərinin "bir pəncərə" prinsipi əsasında təqdimatı
- Xidmətlərin fərdiləşdirilməsi və vətəndaşlara yönəlmiş həyat hadisələri üzrə təşkil olunması
- Fiziki təmasın azaldılması ilə xidmətlərin səmərəliliyinin artırılması.

2. İştirakçılıq:
- Dövlət xidmətlərinin təkmilləşdirilməsi üçün vətəndaşların rəy və tövsiyələrinin nəzərə alınması.

3. Məlumatların təhlükəsizliyi:
- Fərdi məlumatların qorunması və məxfiliyin təmin olunması.

**Biznes baxımından**

1. İnzibati yükün azaldılması:
- Hesabatların hazırlanması və təqdimində xərclərin azaldılması.

2. Rəqabət mühiti:
- İnnovasiya və rəqəmsal texnologiyaların istehsalı və tətbiqi üçün bərabər rəqabət şəraitinin yaradılması.

3. Dövlət-özəl tərəfdaşlığı:
- Depozitar həllərin hazırlanmasında və innovativ layihələrin həyata keçirilməsində biznesin iştirakının təmin edilməsi.

**Dövlət baxımından**

1. Rəqəmsal keçid:
- "Rəqəmsal hökumət" və "rəqəmsal iqtisadiyyat" modelinə keçidin sürətləndirilməsi.

2. Səmərəlilik və qənaət:
- İKT layihələrinə sərf olunan resursların optimallaşdırılması və xərclərin azaldılması.

3. Məlumatın keyfiyyəti və təhlükəsizliyi:
- Dövlət informasiya sistemlərində məlumatların dürüstlüyünün, tamlığının, əlçatanlığının və təhlükəsizliyinin təmin edilməsi.

4. Səmərəli idarəetmə:
- Məlumatlara və təhlillərə əsaslanan qərarların qəbul edilməsi
- Kağız daşıyıcılardan istifadənin azaldılması yolu ilə dövlət xidmətlərinin çevikliyinin artırılması.

5. İctimai iştirakçılıq və şəffaflıq:
- Dövlət siyasətinin hazırlanması və icrasında ictimai iştirakçılığın təmin edilməsi
- Açıq məlumatlara əlçatanlığın təmin olunması və təkrar istifadənin sadələşdirilməsi.

6. Bulud əsaslı həllər:
- PaaS, SaaS, və IaaS kimi bulud texnologiyalarının geniş tətbiqi.

Bu yanaşma Konsepsiyanın hər üç əsas hədəf qrupunun maraqlarını qoruyur və rəqəmsal inkişafın dayanıqlı, inklüziv və effektiv şəkildə həyata keçirilməsinə zəmin yaradır. Göstərilən məqsədlər rəqəmsal texnologiyaların tətbiqi vasitəsilə dövlətin və cəmiyyətin inkişafında mühüm irəliləyişin təmin edilməsinə yönəlmişdir.

## 6. Prioritet istiqamətlər

### 6.1. Dövlət idarəetməsinin rəqəmsallaşdırılması

6.1.1. "Rəqəmsal hökumət"ə keçid və ictimai xidmətlərin inkişafı

Dövlət idarəetməsində rəqəmsal inkişaf həm dövlət xidmətlərinin göstərilməsi (G2C, G2B), həm də dövlət idarəetmə sisteminin (G2G, G2E) fəaliyyətinin təmin edilməsi üçün proseslərin hərtərəfli şəkildə qurumlararası rəqəmsallaşdırılmasını və inteqrasiya edilmiş təşkilati-texniki infrastrukturun yaradılmasını təmin edir. Bu cür infrastruktur məlumatlarının toplanılması, təhlili və son istifadəçilər, həmçinin digər informasiya sistemləri ilə qarşılıqlı əlaqəsi standart interfeyslərə əsaslanmalıdır. Dövlət idarəetməsində rəqəmsal inkişaf dedikdə, ilk növbədə, "elektron hökumət"dən (eGov) növbəti inkişaf mərhələsi olan "rəqəmsal hökumət"ə (GovTech) keçid başa düşülür. "Rəqəmsal hökumət"də vətəndaş, dövlət və biznes arasında qarşılıqlı əlaqə dəyişir, xidmətlər şəffaflaşır, dövlət pərakəndə xidmətlərin təqdim edilməsindən vahid "verilənlər hovuzu" və onlarla iş alqoritmlərinə əsaslanan çevik idarəçiliyə keçid edir.

Keçid aşağıdakı aparıcı prinsiplərə əsasən aparılır:
- *xidmət və proses yanaşması:* məlumat əsaslı (data-driven) qərarların qəbulu məqsədilə informasiya təhlükəsizliyi tələblərinə cavab verən rəqəmsal platformaların formalaşdırılması, proseslərdə addım saylarının təhlili, onların azaldılması və avtomatlaşdırılması;
- *məlumatyönümlülük və obyektivlik:* məlumatların mütəmadi toplanılması, "Əşyaların interneti", "süni intellekt" texnologiyaları vasitəsilə qurumlar üzrə proseslərə və fəaliyyətlərə nəzarətin həyata keçirilməsi, cari qərar qəbuletmə hüququnun informasiya sistemləri üzərindən reallaşdırılması;
- *çeviklik və sürət:* arzuolunan nəticənin əldə edilməsi üçün tədbirlərin sürətli həyata keçirilməsi və çatışmazlıqların operativ qaydada aradan qaldırılması.

"Rəqəmsal hökumət"də nəzərə alınmalı olan ən mühüm amil, ilk növbədə, proses iştirakçılarının tələb və ehtiyaclarının öyrənilməsidir. Burada üç tərəf: vətəndaş, biznes və dövlət arasında tarazlıq tələb olunur. Bu baxımdan dövlət idarəçiliyinin təkmilləşdirilməsi, vətəndaşların və özəl sektorun göstərilən xidmətlərdən maksimum məmnunluq "rəqəmsal hökumət"də ən yaxşı keyfiyyət göstəriciləridir. Bu göstəriciləri əldə etmək məqsədilə məlumatlara əsaslanan çevik, informasiya təhlükəsizliyi üzrə tələblərə cavab verən, dəyişikliklərə uyğunlaşan texnoloji idarəetmə sisteminin yaradılması rəqəmsal xidmətlərin istehlakçıları ilə qarşılıqlı əlaqə və gündəlik proseslərin optimallaşdırılması vacibdir.

Rəqəmsal keçidin təmini üçün məlumat mərkəzli, rəqəmsal xidmətlərə və proseslərə əsaslanan, eləcə də biznes dairəsinin iştirakçılığını nəzərə alan aşağıdakı vəzifələrlə dövlət idarəetmə sisteminin rəqəmsal texnologiyalar vasitəsilə təkmilləşdirilməsi zəruridir:
- sənədlərdən verilənlərə doğru: məlumatların toplanılması, saxlanılması, işlənilməsi, arxivləşdirilməsi və məlumatların düzgünlüyü üçün məsuliyyətin müəyyən edilməsi üçün qaydaların formalaşdırılması, etibarlı məlumatların elektron sənədlər üzərindən tanınması, kağızla iş axınından tamamilə imtina edilməsi, kargüzarlığın və elektron xidmətlərin rəqəmsallaşdırılması;
- vahid tənzimləmə qaydalarına əsaslanan hər hansı bir saxlanılan məlumatdan və funksionallıqdan maneəsiz istifadəyə imkan verən vahid platformaya keçidin təmin edilməsi;
- "Böyükhəcmli məlumatlar"ın analitik təhlilləri, maşınla öyrənmə, "süni intellekt", "zəncir-bloklar", "əşyaların interneti" və "bulud" hesablama texnologiyalarının tətbiqi ilə elektron xidmətlərdən rəqəmsal xidmətlərə keçid edilməsi, informasiya təhlükəsizliyinin, o cümlədən kibertəhlükəsizliyin təmin edilməsi, insan amilinin minimuma endirilməsi və avtomatik qərarların etibarlı şəkildə verilməsi;
- birdən çox qurumlara göstərilə biləcək xidmətlərin "Hökumət buludu"nda bir platforma (PaaS) və ya tətbiqi proqram (SaaS) modelində göstərilməsi, İKT infrastrukturuna və proqram təminatına kapital qoyuluşunun və onların istismar xərclərinin optimallaşdırılması;
- real vaxt rejimində daxil olan və mötəbər məlumatlara əsaslanan qərarların qəbul edilməsi;
- "ağıllı mobil cihaz"lardan istifadə etməklə vətəndaşların və biznes müəssisələrinin hökumətlə qarşılıqlı əlaqə imkanlarının genişləndirilməsi, xidmətlərdə lazımi rahatlığın, səyyarlığın və sürətin təmin edilməsi;
- inzibati icraatın həyata keçirilməsi zamanı verilən elektron arayışların tanınması üçün e-imzalama mexanizminin yaradılması;
- açıq məlumatların formalaşdırılması, arxivləşdirilməsi və standartlara uyğunluğunun təmin edilməsi;
- milli məkan məlumatları infrastrukturunun yaradılması və inkişaf etdirilməsi;
- "dövlət-özəl sektor tərəfdaşlığı" (PPP) modeli də daxil olmaqla, istifadəçilər üçün tətbiqlər və xidmətlərin yaradılmasında özəl sektorun iştirakının və "açıq məlumatlar"dan istifadənin təmin edilməsi;
- xidmətlərdən istifadə məmnunluğu ilə bağlı rəylərin toplanılması, rəyvermə prosesinin sürətləndirilməsi, alınan rəylər əsasında proseslərin davamlı təkmilləşdirilməsi;
- dövlətin İKT infrastrukturunun (o cümlədən onun və seqmentlərinin daxilində və perimetrləri boyunca) vahid standartlı informasiya təhlükəsizliyinin, o cümlədən kibertəhlükəsizliyinin təmin edilməsi;

Belə arxitekturalarda qərarvermə prosesində insan faktoru minimuma enir, hesabatların (statistik, vergi və digər) verilməsi prosesi avtomatlaşır, müasir texnologiyalar əsasında obyektiv qərarların verilməsinə əsaslanan dövlət idarəetmə sistemində xidmətin rəqəmsal formatda çatdırılması və real vəziyyətin təhlili təmin edilir.

Strateji, taktiki və operativ qərarların analitik təhlillər və "süni intellekt" əsasında qəbulu keyfiyyət baxımından prosesləri dəyişən və inkişaf etdirən, sürətli, sistemli, etibarlı məlumatlara çıxış verən kompleks alqoritmlərə əsaslanır.

#### 6.1.2. Rəqəmsal inkişafın idarə olunması, əlaqələndirilməsi və tənzimləmə mexanizmlərinin formalaşdırılması

6.1.2.1. Rəqəmsal inkişafın idarə olunması üçün təşkilati strukturun formalaşdırılması

Rəqəmsal inkişaf dövründə proseslərin ciddi şəkildə dəyişdirilməsi üçün inkişaf layihələrinin həyata keçirilməsi, baza infrastrukturunun tənzimlənməsi və inkişafı, habelə ənənəvi dövlət idarəetmə mexanizmlərinin rəqəmsal sistemlərlə tədricən əvəzlənməsi üçün effektiv idarəetmə strukturu tələb olunur.

Dövlətqurumlarında elektron xidmətlərin təşkilivə göstərilməsi üzrə monitorinqlər aparılacaq, xidmətlər üzrə rəqəmsal idarəetmə çərçivəsi və təşkilati struktur təşkil ediləcək, rəqəmsal gündəliyin idarə edilməsi və rəqəmsal xidmətlər üzrə layihə və təşəbbüslərin əlaqələndirilməsi üçün qurumlarda rəqəmsal inkişaf sahəsinə məsul şəxslər müəyyənləşdiriləcək, dövlət qurumlarında məsul şəxslərin hüquq və vəzifələri müəyyən olunacaqdır. "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nə uyğun olaraq, həmin informasiya ehtiyatlarının və sistemlərinin, habelə "Elektron Hökumət İnformasiya Sisteminin" (EHİS) və altsistemlərinin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsasları müəyyənləşdiriləcəkdir.

Azərbaycanda rəqəmsal inkişaf prosesinin idarə olunması üçün aşağıdakı təşkilati struktura əsasən:




a) Rəqəmsal inkişaf üzrə strateji kursun təşkilinə dair təkliflərin verilməsi, o cümlədənbu sahədə layihələrin həyata keçirilməsinin və əlaqələndirmənin təşkili, eləcə də müvafiq normativ aktların layihələrinin hazırlanması Rəqəmsal İnkişaf Operatoru tərəfindən həyata keçiriləcəkdir. Rəqəmsal İnkişaf Operatoru həmçinin maraqlı tərəflər arasında əlaqələndirməni, mövcud tendensiyaların, texnoloji və idarəetmə meyillərinin təhlili əsasında prioritetlərin müəyyənləşdirilməsini və rəqəmsal inkişafın əsas mərhələləri üzrə koordinasiyanı həyata keçirəcəkdir.

Rəqəmsal İnkişaf Operatorunun ölkə səviyyəsində rəqəmsal inkişaf sahəsində fəaliyyətin təşkili, əlaqələndirilməsi və həyata keçirilməsi ilə bağlı əsas istiqamətlər aşağıdakılardan ibarətdir:

- **strateji inkişaf üzrə:**

1. ölkə səviyyəsində rəqəmsal inkişaf layihələri və proqramlarının hazırlanmasında iştirak (dövlət qurumlarının informasiya təhlükəsizliyinə münasibətdə fəaliyyət istiqamətlərinə uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları)ilə razılaşdırılmaqla), onların icrasının əlaqələndirilməsi, qiymətləndirmə və diaqnostik təhlillərin aparılması, habelə bu sahədə ölkə səviyyəsində yanaşma, strategiya və tədbirlər planlarınıntərtibində iştirak və aidiyyəti qurumlarlabirlikdə ölkənin rəqəmsallaşma strategiyasının formalaşdırılmasına dəstək göstərilməsi;

*Ardı 10-cu səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası

*Əvvəli 9-cu səh.*

2. innovativ həllərin təşviqi məqsədilə dövlət qurumlarının sahibi olduqları açıq məlumatların dəstlərinin ("Opendataset") aidiyyəti qurumlarla birlikdə müəyyən edilməsi və onların reyestrinin formalaşdırılmasının və "Açıq məlumatlar" portalı vasitəsilə cəmiyyətə təqdim edilməsinin təşkili;

■ **layihələrin idarə edilməsi və davamlı inkişaf üzrə:**

ölkə səviyyəsində rəqəmsal inkişaf layihələri və proqramlarının idarə olunmasında iştirak edilməsi, icra prosesinin izlənilməsi, inkişafı barədə mütəmadi olaraq ölkə rəhbərliyi üçün hesabatların hazırlanması, risklərin idarə edilməsi və digər fəaliyyət istiqamətlərində metodologiyanın hazırlanması;

■ **informasiya texnologiyaları üzrə:**

1. ölkə səviyyəsində rəqəmsal inkişaf sahəsində ən səmərəli platforma arxitekturasının aidiyyəti qurumlarla birgə müəyyən edilməsi, həmçinin rəqəmsal proqramların işlənib hazırlanmasının, digər proqramlarla inteqrasiyanın, istismara verilməsinin və planlaşdırılmış xidmət səviyyəsinə dair razılaşmaların (sazişlərin) icrasının və digər texniki işlərin təmin olunması (dövlət-özəl tərəfdaşlığı və birbaşa özəl sektorun cəlbi yolu ilə);

2. yüksək səriştəli mütəxəssislərin hazırlanması, habelə kadrların və vətəndaşların mütəmadi rəqəmsal savadlılığının artırılması çərçivəsində aidiyyəti qurumlarla birgə tədbirlər görülməsi.

b) Proseslərin rəqəmsallaşdırılması zamanı hazır həllər və dövlət qurumları tərəfindən xidmətlərin (proseslərin) avtomatlaşdırılması Rəqəmsal İnkişaf Operatoru tərəfindən müəyyən edilən tədbirlər planlarına və metodoloji yanaşmaya uyğun olaraq həyata keçirilir. İnformasiya təhlükəsizliyi ilə bağlı, əlavə olaraq, fəaliyyət istiqamətlərinə uyğun olaraq aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, müvafiq tədbirlər görülür.

c) Proses iştirakçıları olan dövlət qurumlarındakı rəqəmsal inkişaf üzrə müvafiq struktur bölmələrinin və ya məsul şəxslərin fəaliyyəti həmin qurumun rəqəmsal inkişaf işlərinin (təsdiq olunmuş yeni layihələr, standartlar və qaydaların icrası və texniki fəaliyyətlər) gedişatı barədə Rəqəmsal İnkişaf Operatorunu məlumatlandırmaq, irəliləyişi sinxronlaşdırmaq və yaranan çağırışların aradan qaldırılması üçün mümkün maneələri müəyyənləşdirmək məqsədi daşıyır.

6.1.2.2. Rəqəmsal inkişafın həyata keçirilməsində əlaqələndirmənin təşkili

Rəqəmsal inkişaf üzrə qarşıya qoyulmuş vəzifələrin səmərəli icrası üçün Rəqəmsal İnkişaf Operatoru rəqəmsal inkişafda iştirak edən bütün tərəflər arasında qarşılıqlı əlaqələri müəyyənləşdirəcək, metodoloji yanaşmanı təmin edəcək, eyni zamanda, rəqəmsal inkişaf prosesləri üçün normativ bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər verəcəkdir.

Rəqəmsal İnkişaf Operatorunun qarşısında duran vəzifələr aşağıdakılardır:

- rəqəmsal xidmətlər (G2G, G2E, G2C, G2B) üçün "bulud" əsaslı platformaların hazırlanması üzrə standartların müəyyən olunması, xidmətlər və idarəetmə proseslərinin rəqəmsallaşdırılması üzrə tədbirlər planlarının aidiyyəti qurumlarla birlikdə müəyyənləşdirilməsi;
- dövlət informasiya sistemlərinin və ehtiyatlarının təşkili və fəaliyyəti üzrə aparılan qiymətləndirmələrin nəticələrinə uyğun olaraq tədbirlərin görülməsinə dəstək göstərilməsi;
- elektron imza, elektron eyniləşdirmə həllərinin müəyyənləşdirilməsi;
- dövlət informasiya sistemlərində və ehtiyatlarında müvafiq sahə üzrə toplanılan məlumatların sistemliyinin artırılması, habelə əhaliyə elektron xidmətlər göstərilməsində idarəetməni optimallaşdırmaq məqsədilə informasiya təhlükəsizliyi üzrə fəaliyyət istiqamətlərinə uyğun olaraq, aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, "Elektron Hökumət İnformasiya Sistemi"nin (EHİS) altsistemlərinin yaradılması;
- rəqəmsal inkişaf üçün zəruri olan sistemlərin inkişafına imkan verən və yeni platformaya keçidi stimullaşdıran əlverişli infrastrukturun yaradılmasının təmin edilməsi (özəl sektorun və dövlət-özəl tərəfdaşlığı layihələri də daxil olmaqla);
- dövlət qurumlarında rəqəmsal inkişafa məsul İKT işçilərinin təcrübə mübadiləsinin təşkili, bu yolla səriştəliliyin artırılması.

Bu məqsədlə Rəqəmsal İnkişaf Operatoru tərəfindən aidiyyəti qurumların təklifləri əsasında texnoloji inkişaf meyarlarına uyğunluq dərəcəsinin qiymətləndirilməsini mümkün edən göstəricilərin və nəticələrin daxil olduğu tədbirlər planının hazırlanması təmin edilməlidir. Bu zaman innovativ ssenarilər tətbiq etməklə proses iştirakçılarının hazırlıq səviyyəsini dəyərləndirmək labüddür. Proqramın uğurunun daha bir zəruri hissəsi bu proqramın həyata keçirilməsinə məsul olan dövlət qurumlarının fəaliyyətinin müvafiq əsas fəaliyyət göstəricilərinin (KPİ) işlənib hazırlanmasıdır. Prosesi sürətləndirmək üçün rəqəmsal inkişaf, kadr hazırlığı dərəcəsi, layihələrin həyata keçirilmə müddəti, qabaqcıl texnologiyanın müvəffəqiyyətlə tətbiq olunması və digər göstəricilər kimi meyarlar əsasında dövlət qurumlarının rəqəmsal hazırlığının rəqabətli reytinqini tətbiq etmək lazımdır.

Rəqəmsal hazırlığın səmərəli həyata keçirilməsi üçün dövlət qurumlarında rəqəmsal inkişaf üzrə müvafiq struktur bölməsinin və ya məsul şəxsin müəyyən edilməsi nəzərdə tutulur. Rəqəmsal İnkişaf Operatoru ilə qarşılıqlı şəkildə fəaliyyət göstərəcək rəqəmsal inkişaf üzrə struktur bölmələri və ya məsul şəxslər,əsasən:

- təmsil etdikləri təşkilatın Konsepsiya çərçivəsində avtomatlaşdırma və rəqəmsal inkişaf fəaliyyətlərini icra etmək;
- irəliləyişi sinxronlaşdırmaq və yaranan çətinliklərin aradan qaldırılması üçün mümkün maneələri müəyyənləşdirmək;
- mütəmadi olaraq görülmüş işlər barədə Rəqəmsal İnkişaf Operatoruna məlumat vermək

kimi vəzifələri yerinə yetirəcəklər.

Rəqəmsal inkişaf menecerlərinin (RİM) bilik səviyyəsinin artırılmasının vacibliyini nəzərə alaraq, bunun üçün ən son texnologiyalar və yeniliklər barədə davamlı təlim proqramları təşkil olunmalıdır. Vəzifənin əhəmiyyətindən asılı olaraq, müvafiq RİM-lərin seçimi və təyinatı üçün meyarlar müəyyənləşdirilməlidir.

Qeyd edilənlərlə yanaşı, rəqəmsal inkişaf və bu məqsədlə qurumlararası əlaqələndirmə prosesi üçün müxtəlif dövlət qurumları arasında əsas fəaliyyətin baza avtomatlaşdırılmasının hazırlıq səviyyəsində əhəmiyyətli fərqlərin olması ciddi maneədir. Avtomatlaşdırma bütün biznes proseslərini dəstəkləməyi, şəffaflığı, səmərəliliyi və fəaliyyətin istənilən hissəsində hesabatların real vaxt rejimində əldə edilməsini vahid məlumat məkanında təmin edir, bununla da məlumatlı idarəetmə qərarlarının vaxtında qəbul olunmasına kömək edir.

Dövlət qurumları arasında avtomatlaşdırma səviyyəsində fərqin aradan qaldırılması dövlət qurumlarının fəaliyyəti üçün zəruri olan texnologiyaların istifadəsində nəzərəçarpan sıçrayış edərək,aralarındakı texnoloji boşluğu minimuma endirəcək və geniş əhatəli proseslərdən (kadrların idarə edilməsi, mühasibat uçotu, büdcənin idarə olunması, layihə idarəetməsi və s.) və ölkənin rəqəmsal iqtisadiyyatı üçün vacib olan təhlil vasitələrindən istifadə olunmasına imkan yaradacaqdır.

6.1.2.3. Normativ hüquqi tənzimləmənin təkmilləşdirilməsi

Rəqəmsal inkişaf çərçivəsində dövlət qurumlarının fəaliyyətində, müxtəlif sənaye və xidmət sahələrində rəqəmsal texnologiyaların tətbiqi normativ tənzimləmə sahəsində yeni tələblər irəli sürür. Baş verən texnoloji dəyişikliklərə vaxtında uyğunlaşmaq üçün müvafiq tənzimləmə daha çevik və adekvat olmalıdır.

Rəqəmsal texnologiyalar tənzimləməyə yeni yanaşmalar tələb etməklə bərabər, normativ bazanın müasir tələblərə uyğunlaşdırılması üçün də yeni imkanlar yaradır. Dövlət idarəetməsində rəqəmsal inkişaf bir tərəfdən, qərarların qəbulunun sürətini artırır, digər tərəfdən, rəqəmsal inkişafın formalaşdırdığı yeni şəraitin və ya münasibətlərin normativ tənzimlənməsində keyfiyyətin artırılması üçün norma yaratma prosesinə yeni baxışlar gətirə bilir.

Rəqəmsal inkişaf prosesinin komponentlərini əks etdirən anlayışlarda qeyri-müəyyənliyin aradan qaldırılması, "Elektron hökumət", "Proseslərin rəqəmsal əsaslara keçirilməsi", "Rəqəmsal məlumat bazası", "Milli identifikasiya sistemi", "Məlumat perimetrinin təhlükəsizliyi", "Rəqəmsal inkişaf" kimi geniş yayılmış anlayışların ekosistem iştirakçıları tərəfindən anlayış vahidliyinin təmin edilməsi məqsədilə rəqəmsal inkişaf sahəsində beynəlxalq və ölkədaxili təcrübə əsasında "Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsi" və "Azərbaycanda məlumatların idarəedilməsi (DataGovernance) Strategiyası", habelə qüvvədə olan qanunvericiliyə rəqəmsal inkişafın müasir çağırışlarına cavab verən dəyişiklik hazırlanacaqdır.

Nəticədə müxtəlif şərh və subyektiv risklər minimuma endiriləcək, layihə təşəbbüslərinin yekun məqsədlərinin dəqiq müəyyənləşdirilməsi imkanı yaranacaq və icraya nəzarətin keyfiyyəti artacaqdır.

**6.1.3. Rəqəmsal inkişaf infrastrukturunun qurulması**

6.1.3.1. Proseslərin arxitekturasının qurulması

Dövlət qurumlarında daxili inzibati proseslərin keyfiyyətinin və əlçatanlığının artırılması, kağız daşıyıcılarda aparılan proseslərin rəqəmsal mühitə keçirilməsi, elektron imzanın tətbiqi, məlumat əsaslı qərar qəbuletməyə imkan verəcək infrastrukturun qurulması məqsədilə mövcud iş proseslərinin optimallaşdırılması zəruridir.

Formalaşdırılaca dövlət məlumat "hövzəsi" böyükhəcmli məlumatların təhlili, proqnozlaşdırıcı modellərin yaradılması nümunələrinin axtarışı üçün mənbədir. Bu alqoritm prosesin bütün iştirakçılarına ani və müvafiq məlumatlar əldə etməyə, məlumatlar əsasında qərarlar qəbul etməyə, proqnoz verməyə, məlumat istehlakçısına sürətli və keyfiyyətli xidmətlər göstərilməsinə imkan verəcəkdir.

6.1.3.2. Rəqəmsal hökumət arxitekturasının qurulması

Dövlət qurumlarında formalaşdırılacaq Rəqəmsal hökumət arxitekturası qarşılıqlı fəaliyyət göstərərək məlumat axınını (G2G/G2E, G2B) təmin və idarə edə biləcək şəkildə təşkil olunmalıdır. Qurumlararası məlumatların mübadiləsi "Elektron Hökumət İnformasiya Sistemi" (EHİS) üzərindən aparılmalı, əməliyyat sistemləri və platformalar arasında məlumatların inteqrasiyası zamanı qayda və standartlar təyin edilməli, dövlət əhəmiyyətli informasiya sistemləri, ehtiyatları və məlumat bazaları "Hökumət buludu"nda yerləşdirilməlidir.

Müasir texnologiyalar uyğun rabitə vasitələrinin hazır və əlçatan olmasını tələb edir. Xidmətdən istifadəyə uyğun olaraq, müxtəlif proqram dəstləri təyinatına görə çoxməqsədli rabitə və kommunikasiya növlərini (5G, LoRa, yüksəksürətli fiber xətləri və s.) tələb edə bilər. Hökumət və biznes qurumlarının sözügedən rabitə və kommunikasiya növlərini tətbiq edə bilmələri üçün hüquqi baza və infrastruktur hazır vəziyyətə gətirilməli, investisiyaların cəlbi, təşviq və dəstək üçün müvafiq dövlət proqramları qəbul edilməlidir.

Rəqəmsal hökumət arxitekturasının bütün mərhələlərində və məlumatların son istifadəçilərinə çatdırılmasında, müasir informasiya təhlükəsizliyi qaydalarına (şifrələmə, müasir identifikasiya üsulları, istifadəçilərin girişlərinin idarə edilməsi, məlumatların idarəedilməsi, məxfiliyin qorunması, kiberhücumlardan qorunma və s.) riayət olunmalıdır. İKT landşaftının bütün səviyyələrinin və informasiya təhlükəsizliyi komponentlərinin tətbiqi zamanı, ilk növbədə,yerli istehsala üstünlük verilməsi nəzərə alınmalı və strateji perspektivdə ölkəxarici asılılıq minimuma endirilməlidir.

2023-cü ildə ölkəmizin paytaxtı Bakı şəhərində keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresində aparılan müzakirələrdə qabaqcıl peyk texnologiyası xidmətləri önə çəkilmişdir. Genişzolaqlı peyk internet xidmətinin təkrar satışı həyata keçiriləcək, peyk internet xidmətlərinin tərəfdaşı olaraq, ənənəvi və çox vaxt məhdud telekommunikasiya infrastrukturlarının yaratdığı maneələri aradan qaldırmaqla, dənizdə və quruda qabaqcıl peyk texnologiyası xidmətləri göstəriləcəkdir.

Dövlət xidmətlərinin sürətlə rəqəmsallaşmasını, emal olunan məlumatların həcminin çoxalmasını, artan fiziki və virtual server tələbatını nəzərə alaraq, "Hökumət buludu"nun arxitekturasında data mərkəzinin infrastrukturu genişləndiriləcək, Milli Data Mərkəzlərinin layihələndirilməsi işləri aparılacaqdır. Naxçıvan Muxtar Respublikasında data mərkəzinin inşa edilməsi üçün müvafiq texniki infrastruktur qurulacaqdır.

"Açıq məlumatlar" portalı təkmilləşdiriləcək, açıqlanan məlumatlara təkrar istifadə icazələrinin (openlicence) verilməsi və maraqlı tərəflərin portala qoşulması qaydalar və tələblərlə dəstəklənəcəkdir.

6.1.3.3. Məlumatların arxitekturasının qurulması

Rəqəmsal inkişafın zəruri komponentini təşkil edən rəqəmsal məlumatların hazırkı həcmi və dövlətin böyükhəcmli məlumatlara dair vahid strateji yanaşma nümayiş etdirməsi zərurəti nəzərə alınaraq, məlumatların idarə olunmasının (datagovernance) hədəflənən arxitekturası (çərçivəsi) formalaşdırılmalıdır. Qurulacaq arxitektura məlumatların müxtəlif mənbələr arasında (dövlət qurumlarına məxsus informasiya sistemləri, biznes qurumlarının təqdim etdiyi məlumatlar, açıq məlumatlar, sosial şəbəkələr və s.) ötürülməsini və ölkədəki cari infrastrukturu (Milli Rəqəmsal Mübadilə şəbəkəsi, "Hökumət buludu" və s.) nəzərə alaraq, məlumat əsaslı qərar qəbuletmə imkanlarını təqdim etməlidir.

**6.2. Rəqəmsal etimad və inkişaf üçün hazırlıq, kadr potensialının gücləndirilməsi**

6.2.1. Rəqəmsal cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması

Vətəndaş, biznes və dövlətin qarşılıqlı etimad əsasında fəaliyyət göstərdiyi bir mühitdə rəqəmsal inkişafın həyata keçirilməsi üçünxüsusi əhəmiyyət kəsb edən istiqamətlərdən biri informasiya təhlükəsizliyi və kibertəhlükəsizlikdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" vətəndaşın, biznesin və dövlətin müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şərait yaradılmasına xidmət edir.

6.2.2. Rəqəmsal inkişaf üçün kadr potensialının inkişaf etdirilməsi

Rəqəmsallaşma proseslərinin yekun məqsədi dövlət və biznes xidmətlərindən vətəndaşların istifadə etməsidir. Bu məqsədlə rəqəmsal xidmətlərin biznes proseslərinin optimal formada təşkilinin və əlçatanlığının təmin edilməsinin (yüksəksürətli genişzolaqlı internet şəbəkəsinin qurulması, elektron imzaların əldə edilməsi və istifadəsi prosesinin sadələşdirilməsi, "Açıq məlumatlar" portalı və s.) əhəmiyyəti təkrar vurğulanmalıdır. Bütün bu infrastruktur quruculuğu, xidmətlərin rəqəmsallaşması ilə yanaşı, eyni zamanda rəqəmsal xidmətlərdən istifadə məqsədilə vətəndaşların rəqəmsal biliklərə yiyələnməsi üçün tədbirlər görülməlidir. Bu istiqamətdə bir insanın yaşamı boyunca istifadə etdiyi xidmətlər analiz olunmalı və bu konkret istiqamətlər üzrə istifadəçilərə rəqəmsal bacarıqların öyrədilməsi, əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri arasında informasiya texnologiyalarından istifadədə rəqəmli fərqliliyin aradan qaldırılması təmin edilməlidir.

Rəqəmsal inkişaf çərçivəsində həll edilməsi zəruri olan əsas məsələlər rəqəmsal ekosistemin qurulması, İKT sahəsində uğurlu olan müəssisələrin, startapların yetişdirilməsi, innovasiya mərkəzlərinin yaradılmasının dəstəklənməsidir. Eyni zamanda, prioritetlərdən biri səmərəli şəkildə və qısa müddətdə səriştəli mütəxəssislərin hazırlanması və dövlət qurumları əməkdaşlarının rəqəmsal bacarıqlarının inkişaf etdirilməsini təmin edən kadr siyasətinin həyata keçirilməsidir.

İnkişaf proseslərini həyata keçirən kadr heyətinin formalaşdırılması və məlumatlara əsaslanan idarəetmənin həyata keçirilməsi baxımından dövlət qurumları üçün qarşıda duran əsas məsələlərdən biri lazımi səriştələrin səviyyəsi, hədəfə sadiqlik, işə qəbul prosesinin sadələşdirilməsi və əməkhaqqı dərəcəsi olacaqdır.

Ölkənin vahid texnoloji landşaftı daxilində proseslərin həyata keçirilməsinin məsul kadrlar tərəfindən anlaşılması üçün nəticəyönümlü yanaşmanın tətbiqi zəruridir. Yanaşma bütün iştirakçılarınrəqəmsal idarəetməni, əmək bazarı standartlarının modernləşdirilməsini və lazımi peşə hazırlığının xüsusiyyətlərini anlamalarını zəruri edir. Bu kadrlar dövlətin bütün sahələrini və seqmentlərini əhatə edən rəqəmsal inkişaf proseslərinin hər bir mərhələsində innovativ yanaşmaların tətbiq olunmasını təmin etməlidir. Proseslərin həyata keçirilməsinə hazırlıq rəqəmsal təfəkkürü, kompüter/alqoritmik məntiq bacarıqları və iqtisadiyyatın bütün sahələrində texnologiyanın rolu barədə anlayışı tələb edir.

Ölkənin iqtisadi inkişaf perspektivlərinin və rəqəmsal inkişafın tələblərinə cavab verən İKT sahəsində peşəkar və ixtisaslı mütəxəssislərin inkişafı üçün təhsilin məzmunu və qiymətləndirilməsi məsələlərində aidiyyəti dövlət qurumlarının səylərini əlaqələndirmək, bu sahədə qabaqcıl beynəlxalq təcrübələrin (misal üçün, məsafədən təhsil və iş imkanları) inteqrasiyası zəruridir. Sözügedən koordinasiya müvafiq qanunvericilik bazasının formalaşdırılmasını və ya yenilənməsini, qiymətləndirmə göstəricilərinin hazırlanmasını və buna əsasən hesabatlılıq sisteminin tətbiq edilməsini, habelə İKT bazarının yerli və beynəlxalq təmsilçilərinin prosesə cəlb edilməsini də nəzərdə tutur.

Dövlət və biznes xidmətlərinin rəqəmsal inkişafının sürətlənməsi və davamlı olaraq inkişaf etməsi üçün rəqəmsal ekosistemin qurulması və İKT sahəsində uğurlu nəticə verən startapların, innovativ layihələrin formalaşdırılması labüddür. Bu məqsədlə innovasiya sahəsində normativ hüquqi aktlar təkmilləşdirilməli, mütəxəssislərin bilik və bacarıqları, təşəbbüskarlığı davamlı olaraq inkişaf etdirilməlidir.

**6.3. Özəl sektorda rəqəmsallaşmanın dəstəklənməsi**

Dövlət tərəfindən irəli sürülən rəqəmsal inkişaf təşəbbüsləri ölkə iqtisadiyyatına yeni qaydaların, standartların və tənzimləmə çərçivələrinin daxil edilməsi ilə müşayiət olunur ki, bu siyasətin yaratdığı yeni bazar reallıqlarına uyğunlaşmaq üçün maliyyələşmə və resurs çatışmazlığı, rəqəmsal bacarıqların azlığı, İKT mütəxəssislərinin tapılmasında çətinlik və onları saxlamaq üçün gərəkli xərclər kiçik və orta sahibkarların rəqəmsal texnologiyaların tətbiq edilməsində qarşılaşdığı əsas maneələrdəndir. Rəqəmsal inkişaf proqramını həyata keçirərkən bazar iqtisadiyyatının əhəmiyyətli bir hissəsini təşkil edən və tərəqqinin əsas hərəkətverici qüvvələrindən olan kiçik və orta sahibkarlara elektron ticarət həlləri, veb-saytlar, sosial media, proqram təminatları və mobil tətbiqlərin hazırlanmasında kömək göstərilməli, İKT bilik və bacarıqlarının təlim, kurs və təhsil proqramları vasitəsilə artırılması dəstəklənməlidir.

IV Sənaye İnqilabı texnologiyalarının Azərbaycanda müxtəlif iqtisadi sektorlarda tətbiq olunması üzrə islahatlar aparılacaq, elektron ticarətdə, maliyyə xidmətlərində, kənd təsərrüfatında, nəqliyyatda və digər sahələrdə texnologiyaların tətbiqi imkanları tədqiq olunacaq və əldə ediləcək nəticələrin imkanlara çevrilməsi yolu ilə bu rəqəmsal texnologiyaların ("süni intellekt", "bulud", blokçeyn, böyükhəcmli məlumatlar və digər) tətbiqi yönündə tədbirlər icra olunacaqdır.

Bundan əlavə, dövlət rəqəmsal inkişaf çərçivəsində sürətli iqtisadi inkişaf gətirə biləcək sahələrdə özəl sektorla tərəfdaşlıq etməlidir. Biznes nümayəndələri fərdi və ya ortaq platforma xidmətlərinin həm istehlakçıları, həm də özəl sektorun cəlbi, o cümlədən dövlət-özəl sektor tərəfdaşlığı modeli əsasında dövlət platforması üçün bu xidmətlərin təminatçıları ola bilərlər.

Bununla yanaşı Konsepsiyanın icrası ilə bağlı tədbirlərə özəl sektorun cəlb olunması zamanı sağlam rəqabət mühitinin təmin edilməsi məqsədilə zəruri işlər görülməlidir.

**6.4. Gözlənilən nəticələr**

Dövlət və özəl sektorun rəqəmsallaşdırılması, rəqəmsal inkişaf üçün zəruri olan informasiya və kibertəhlükəsizliyi təminatlı rəqəmsal cəmiyyətə keçid, habelə rəqəmsal bacarıqların inkişaf etdirilməsi nəticəsində aşağıdakılara nail olunacaqdır:

- dövlət xidmətlərinin tam olaraq elektron formatdan məlumatəsaslı rəqəmsal formata keçidinin təmin edilməsi, "süni intellekt" əsaslı pilot layihələrin həyata keçirilməsi, həmçinin dövlət qurumları arasında sənəd dövriyyəsinin (G2G, G2B, G2C, G2E) kağızsız formada icra olunması;
- İKT infrastrukturunun inkişafı sahəsində xərclərin optimallaşdırılması və bu sahədə özəl investisiyaların payının artırılması;
- ən yeni rəqəmsal texnologiyaların tətbiqi - böyükhəcmli məlumatların və süni intellektin istifadəsi yolu ilə qərar qəbuletmə prosesinin səmərəliliyinin və sürətinin artırılması, "əşyaların interneti" vasitəsilə xidmətlərin proaktiv və tez çatdırılması;
- "ağıllı şəhər" və "ağıllı kənd"lərdə rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi və sürətləndirilməsi, eyni zamanda "ağıllı qurğular"dan istifadə etməklə vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi;
- proqnoz ssenarilərin qurulması, zəncir-bloklar (blockchain) texnologiyası ilə əməliyyatların və məlumatların təhlükəsizliyinin təmin edilməsi;
- dövlət qurumlarının rəqəmsal inkişaf prosesinin monitorinqi və qiymətləndirilməsi üçün əsas fəaliyyət göstəriciləri sisteminin, rəqəmsallaşma diaqnostikasının və sürətləndirilmiş rəqəmsallaşdırma ssenarilərinin hazırlanması;
- dövlət qurumlarının texnoloji hazırlıq səviyyəsinin artırılması, lisenziyalı proqram təminatlarından istifadənin təmin edilməsi və informasiya təhlükəsizliyi ilə kibertəhlükəsizliyin təmin olunması üçün vahid standartların hazırlanması və tətbiqi;
- rəqəmsal inkişaf sahəsində beynəlxalq reytinqlərdə ölkənin göstəricilərinin yaxşılaşdırılmasına nail olunması;
- innovativ ekosistemin inkişafının dəstəklənməsi məqsədilə vençur maliyyəsi, tədqiqat və təhsil müəssisələrinin cəlb edilməsi, yerli İKT şirkətlərinin inkişaf etdirilməsi və startapların rəqəmsal həllər hazırlamasına dəstək verilməsi;
- yeni iş yerlərinin yaradılması, yerli təcrübələrin inkişafı və ixracının artırılması, ölkənin texnoloji ixrac potensialının yüksəldilməsi;
- sahibkarlıq subyektlərinin prioritet sahələr üzrə rəqəmsallaşdırılmasının təşviq edilməsi və kiberməlumatlılığının artırılması;
- "Açıq məlumatlar" portalının beynəlxalq təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi, elektron imzanın tətbiqinin genişləndirilməsi və Açıq Tətbiq Proqramlaşdırma İnterfeysi (Open API) əsasında özəl sektor tərəfindən yeni xidmətlərin istifadəyə verilməsi;
- İKT-nin inkişaf meyillərinə uyğun olaraq ölkədə rəqəmsal bacarıqların və kiberməlumatlılığın artırılması;
- İKT təhsilinin bütün pillələrində biznesin iştirakının təmin edilməsi, təhsil proqramlarının müasir tələblərə uyğunlaşdırılması və İKT ixtisasları üzrə dövlət sifarişli yerlərin sayının artırılması;
- İKT mütəxəssislərinin dövlət qulluğuna qəbulu prosesinin sadələşdirilməsi, məsafədən təhsil və iş imkanlarının regionların sosial-iqtisadi inkişafına təsirlərinin artırılması.

**7. Maliyyələşdirmə mexanizmləri**

Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd olunan müvafiq tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları üçün onların saxlanılması məqsədilə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına, habelə özəl sektorun vəsaiti və dövlət-özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

Təsərrüfathesablı qurumların, özəl qurumların Konsepsiyada nəzərdə tutulan tədbirlərdə iştirakı həmin qurumların vəsaiti hesabına və qanunla qadağan edilməyən digər mənbələrdən maliyyələşdirilir.

*Ardı 11-ci səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası

*Əvvəli 10-cu səh.*

**8. Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **9.1. Dövlət idarəetmə sisteminin rəqəmsallaşdırılması** | | | | | | |
| **1.1. Rəqəmsal inkişafın təhlili və qiymətləndirilməsi** | | | | | | |
| 1.1.1. Dövlətqurumlarının və yerli özünüidarəetmə orqanlarınınrəqəmsallaşma səviyyəsinin diaqnostikası | RİNN | ƏƏSMN, DİN, İN, ETN,SN, DTX, XRİTDX | 2025–2026 | Rəqəmsallaşma səviyyəsinin diaqnostikası üçün dövlət qurumlarının iştirakı ilə işçi qrupun yaradılması | 12 dövlət qurumunun rəqəmsallaşma səviyyəsinin diaqnostikasının həyata keçirilməsi | Dövlət qurumlarının rəqəmsallaşma səviyyəsinin artırılması |
| 1.1.2. Dövlət qurumlarınınınformasiya təhlükəsizliyinə aid əsas parametrlər siyahısının və məqbul hədlərin müəyyən edilməsi, informasiya təhlükəsizliyi mühitinin diaqnostikası | XRİTDX | DTX, RİNN, AMEA, ETN | 2025–2026 | Dövlət qurumlarının informasiya təhlükəsizliyinin diaqnostikası üçün aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupun yaradılması | Beynəlxalq təcrübə əsas götürülməklə, dövlət qurumlarının informasiya təhlükəsizliyinin diaqnostikası sənədinin hazırlanması və təsdiq üçün təqdim olunması | Dövlət qurumlarının informasiya təhlükəsizliyinin diaqnostika sənədinin təsdiq edilməsi və həmin sənəd əsasında informasiya təhlükəsizliyinin diaqnostikasının həyata keçirilməsi |
| 1.1.3. Sahibkarlıq subyektlərinin rəqəmsallaşma səviyyəsinin və informasiya təhlükəsizliyi mühitinin diaqnostikası | RİNN | ƏƏSMN, DİN, İN, ETN, SN, DTX, sahibkarlıq subyektləri | 2025–2026 | Sahibkarlıq subyektlərinin rəqəmsallaşma səviyyəsinin və informasiya təhlükəsizliyi mühitinin diaqnostikası üçün işçi qrupun yaradılması və rəqəmsal yetkinlik səviyyəsinin müəyyən edilməsinə xidmət edən meyarların müəyyənləşdirilməsi | Beynəlxalq təcrübə əsas götürülməklə, ölkə üzrə rəqəmsallaşma səviyyəsinin və informasiya təhlükəsizliyi mühitinin diaqnostikasının (müvafiq internet informasiya ehtiyatı vasitəsilə könüllü ötürülən məlumatlar əsasında) aparılması | Diaqnostika nəticələrinə uyğun olaraq dəstək tədbirlərinin təşkil edilməsi |
| 1.1.4. Dövlət qurumlarında elektron xidmətlərin, habelə informasiya sistemlərinin və ehtiyatlarının, eləcə də həmin informasiya sistemlərində və ehtiyatlarında formalaşan məlumatların dürüstlüyünün, bütövlüyünün, dəqiqliyininqiymətləndirilməsi və təkmilləşdirilməsi ilə bağlı tədbirlər planının hazırlanması | RİNN | DTX, XRİTDX, aidiyyəti qurumlar | 2025 | Dövlət qurumlarında elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının təşkili və fəaliyyəti, eləcə də həmin informasiya sistemlərində və ehtiyatlarında formalaşan məlumatların dürüstlüyü, bütövlüyü və dəqiqliyi üzrə qiymətləndirmə mexanizminin hazırlanması | 12 dövlət qurumunun RİNN tərəfindən dövlət qurumlarında elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının təşkili və fəaliyyəti, eləcə də həmin informasiya sistemlərində və ehtiyatlarında formalaşan məlumatların dürüstlüyü, bütövlüyü və dəqiqliyi üzrə qiymətləndirmələr aparılması, qiymətləndirmələrin nəticəsinə uyğun olaraq arayışların və hesabatların hazırlanması | Qiymətləndirmənin nəticələrinə uyğun olaraq, dövlət qurumları tərəfindən elektron xidmətlərin, informasiya sistemlərinin və ehtiyatlarının təkmilləşdirilməsi, o cümlədən həmin informasiya sistemləri və ehtiyatlarında formalaşan məlumatların dürüstlüyünün, bütövlüyünün, dəqiqliyinin təmini və göstərilən xidmətlərin rəqəmsal formada təşkili ilə bağlı tədbirlər planının hazırlanması |
| **1.2. Rəqəmsal inkişafın arxitekturasının qurulması** | | | | | | |
| 1.2.1. Ölkə səviyyəsində rəqəmsal ekosistem üzrə proseslərin arxitekturasının qurulması | RİNN | DTX, XRİTDX və aidiyyəti qurumlar | 2025–2027 | Proses arxitekturasının qurulması üzrə qurumlararası ixtisaslaşmış işçi qrupların yaradılması və fəaliyyətə başlaması | Konsepsiya ilə nəzərdə tutulan proses arxitekturası üzrə proseslərin kataloqunun və arxitektura sənədinin hazırlanması işlərinin əlaqələndirilmiş şəkildə aparılması | Proses arxitekturası toplusunun hazırlanması |
| 1.2.2. Ölkə səviyyəsində rəqəmsal ekosistem üzrə rəqəmsal hökumət arxitekturasının qurulması | RİNN | DTX, XRİTDX və aidiyyəti qurumlar | 2025–2027 | Rəqəmsal hökumət arxitekturasının formalaşdırılması üzrə qurumlararası ixtisaslaşmış işçi qrupların yaradılması və fəaliyyətə başlaması | Rəqəmsal hökumət arxitektura sənədinin hazırlanması işlərinin formalaşmış qurumlararası ixtisaslaşmış işçi qruplar vasitəsilə əlaqələndirilmiş şəkildə aparılması | Rəqəmsal hökumət arxitekturasının hazırlanması |
| 1.2.3. Məlumatların idarəedilməsi strategiyasının, o cümlədən ölkə səviyyəsində rəqəmsal ekosistem üzrə məlumatların idarəedilməsi arxitekturasının (çərçivəsinin) qurulması | RİNN | aidiyyəti qurumlar | 2025–2027 | Məlumatların idarə edilməsi arxitekturasının (çərçivəsinin) formalaşdırılması üzrə qurumlararası ixtisaslaşmış işçi qrupların yaradılması və fəaliyyətə başlaması, habelə məlumatların idarəedilməsinin mövcud vəziyyətinin təhlil olunması | Məlumatların idarə edilməsi strategiyasının layihəsinin hazırlanması və razılaşdırılması, o cümlədən Konsepsiya ilə nəzərdə tutulan məlumatların idarə edilməsi üçün arxitektura sənədinin hazırlanması işlərinin formalaşmış qurumlararası ixtisaslaşmış işçi qruplar vasitəsilə əlaqələndirilmiş şəkildə aparılması | Məlumatların idarə edilməsi strategiyasının təsdiq üçün təqdim olunması, habelə Konsepsiya ilə nəzərdə tutulan məlumatların idarə edilməsi arxitekturasının hazırlanması |
| **1.3. Rəqəmsal inkişafın idarə olunması, əlaqələndirilməsi və tənzimləmə mexanizmlərinin formalaşdırılması** | | | | | | |
| 1.3.1. Ölkə səviyyəsində rəqəmsal inkişafın əlaqələndirilməsi üçün Rəqəmsal İnkişaf Operatoru ilə dövlət qurumlarında rəqəmsal inkişaf üzrə məsul olan struktur bölməsinin və ya məsul şəxsin qarşılıqlı fəaliyyətinin təşkili | RİNN | DTX, XRİTDX, ƏN, İN və aidiyyəti qurumlar | mütəmadi | Rəqəmsal inkişafın əlaqələndirilməsi üçün dövlət qurumlarında rəqəmsal inkişaf üzrə məsul olan struktur bölməsinin və ya məsul şəxsin müəyyən edilməsi | Rəqəmsal İnkişaf Operatoru ilə dövlət qurumlarında rəqəmsal inkişaf üzrə məsul olan struktur bölməsi və ya məsul şəxs arasında əlaqələndirmənin qurulması ilə bağlı tədbirlər görülməsi və aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəqəmsal inkişaf sahəsində həyata keçirilən layihələrin toplanılması | Dövlət orqanlarında (qurumlarında) rəqəmsal inkişaf sahəsində həyata keçirilən layihələrin mərkəzləşdirilmiş reyestrinin formalaşdırılması |
| **1.4. Rəqəmsal inkişafın tətbiqinin genişləndirilməsi** | | | | | | |
| 1.4.1. Həyat hadisəsi əsaslı və proaktiv dövlət xidmətlərinin rəqəmsallaşdırılması | Aidiyyəti qurumlar, RİNN | | 2025–2027 | Həyat hadisəsi əsaslı və proaktiv dövlət xidmətlərinin müəyyən edilməsi | Müvafiq xidmətlərin rəqəmsallaşdırılması və optimallaşdırılması istiqamətində tədbirlər görülməsi | Həyat hadisəsi əsaslı dövlət xidmətlərinin mütəmadi olaraq təhlili və prioritet üzrə rəqəmsallaşdırılması |
| 1.4.2. Rəqəmsal xidmətlərdən istifadəçi məmnunluğunun təmin edilməsi istiqamətində tədbirlər görülməsi | Aidiyyəti qurumlar | RİNN | 2025–2027 | Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun ölçülməsi üçün alətin və meyarların formalaşdırılması | Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun ölçülmə alətinin və meyarların dövlət orqanlarında (qurumlarında) tətbiqi | Rəqəmsal xidmətlərdə istifadəçi məmnunluğunun minimum 85%-ə çatdırılması |
| 1.4.3. Dövlət qurumları daxilində idarəetmə proseslərinin (kargüzarlığın aparılması, sənədlərin icrasına nəzarət, arxiv, kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) rəqəmsal şəkildə həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi | Aidiyyəti qurumlar | RİNN | 2025–2027 | Dövlət qurumlarının daxili idarəetmə proseslərinin rəqəmsallaşma prioritetlərinin müəyyən edilməsi | Dövlət qurumları daxilində bütün əməliyyatların 80%-nin rəqəmsal şəkildə həyata keçirilməsi | |
| 1.4.4. Əsas dövlət informasiya sistemləri və ehtiyatlarında formalaşan məlumatların dürüstlüyünün, bütövlüyünün, dəqiqliyinin təhlil edilməsi və aşkarlanan çatışmazlıqların aradan qaldırılması istiqamətində aidiyyəti qurumlar tərəfindən tədbirlərin görülməsi | RİNN | aidiyyəti qurumlar | 2025–2027 | Əhalinin Dövlət Reyestri, Daşınmaz Əmlakın Dövlət Reyestri, Kommersiya Qurumlarının Dövlət Reyestri, "Tələbə-Məzun" dövlət elektron məlumat sistemi, Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemində formalaşdırılan, habelə saxlanılan məlumatların dürüstlüyü, bütövlüyü və dəqiqliyi üzrə qiymətləndirmələr və təhlillərin aparılması | Əhalinin Dövlət Reyestri, Daşınmaz Əmlakın Dövlət Reyestri, Kommersiya Qurumlarının Dövlət Reyestri, "Tələbə-Məzun" dövlət elektron məlumat sistemi, Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemində formalaşdırılan, habelə saxlanılan məlumatların dürüstlüyü, bütövlüyü, dəqiqliyi üzrə qiymətləndirmələr və təhlillər nəticəsində çatışmazlıqların müəyyənləşdirilməsi | Əhalinin Dövlət Reyestri, Daşınmaz Əmlakın Dövlət Reyestri, Kommersiya Qurumlarının Dövlət Reyestri, "Tələbə-Məzun" dövlət elektron məlumat sistemi, Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemində formalaşdırılan, habelə saxlanılan məlumatların dürüstlüyü, bütövlüyü, dəqiqliyi üzrə qiymətləndirmələr və təhlillər nəticəsində aşkar edilən çatışmazlıqların aradan qaldırılması ilə bağlı aidiyyəti qurumlar tərəfindən tədbirlərin görülməsi |
| 1.4.5. "Rəqəmsal İD" vətəndaşın şəxsiyyətini eyniləşdirən rəqəmsal vasitənin tətbiq edilməsi | RİNN | aidiyyəti qurumlar | 2025–2027 | Müvafiq hüquq inormativ bazanın təkmilləşdirilməsi | Rəqəmsal İD həllində şəxsiyyəti eyniləşdirən sənəd növlərinin müəyyən edilməsi | Bütün ölkə vətəndaşları üçün şəxsiyyəti eyniləşdirən sənədlərin Rəqəmsal İD həllində təqdim edilməsi |
| 1.4.6. Açıq məlumatlardan istifadənin genişləndirilməsi | RİNN | aidiyyəti qurumlar | Mütəmadi | "Açıq məlumatlar" portalına daxil edilməli olan məlumatların siyahısının müəyyən edilməsi | "Açıq məlumatlar" portalına açıq məlumatların daxil edilməsi və yenilənməsi | "Açıq məlumatlar" portalı vasitəsilə açıq məlumatların əldə edilməsinin təmini və həmin məlumatlardan innovativ həllərin hazırlanmasında istifadə olunması |
| 1.4.7. Dövlət orqanları (qurumları) tərəfindən təşkil edilən və göstərilən elektron xidmətlərin siyahısı və onlardan istifadə ilə bağlı təlimat barədə ictimai məlumatlandırmanın təmin edilməsi | Aidiyyəti qurumlar | RİNN | Mütəmadi | Elektron xidmətlərdən istifadə ilə bağlı təlimatlar hazırlanması | Aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən göstərilən elektron xidmətlərin siyahısının və həmin xidmətlərdən istifadə ilə bağlı təlimatların orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatlarında və "Elektron Hökumət İnformasiya Sistemi"ndə (EHİS) yerləşdirilməsi ilə bağlı tədbirlər görülməsi | Müvafiq siyahı və təlimatların zəruri olduğu hallarda yenilənməsinin və aktuallığının təmin edilməsi |
| **2. Rəqəmsal cəmiyyətə etimad mühitində keçidin təmin edilməsi və rəqəmsal inkişaf üçün zəruri kadr potensialının inkişaf etdirilməsi** | | | | | | |
| 2.1. Əhalinin rəqəmsal savadlılığının qiymətləndirilməsi | RİNN | ETN, ƏƏSMN, DSK, İN | 2025–2027 | Əhalinin rəqəmsal savadlılığını qiymətləndirmək üçün metodologiyanın müəyyənləşdirilməsi | Əhalinin rəqəmsal savadlılığını qiymətləndirmək üçün sorğular keçirilməsi və statistik göstəricilər sisteminin qurulması | Əhalinin rəqəmsal savadlılığının artırılması üçün proqramların hazırlanması və icrasına başlanılması |
| 2.2. Əhalinin rəqəmsal hazırlığının, o cümlədən kiberməlumatlılığının artırılması | RİNN | ƏƏSMN, ETN, DTX | 2025–2027 | | | |
| 2.3. Təhsil müəssisələrində İKT və informasiya təhlükəsizliyi ixtisasları üzrə mütəxəssis hazırlığı ilə bağlı tədbirlər görülməsi | ETN | DTX, XRİTDX, RİNN | 2025–2027 | Təhsil müəssisələrində İKT və informasiya təhlükəsizliyi ixtisasları üzrə dövlət sifarişli yerlərin sayının artırılması ilə bağlı təhlillər aparılması | Təhsil müəssisələrində İKT və informasiya təhlükəsizliyi ixtisasları üzrə dövlət sifarişli yerlərin sayının artırılması ilə bağlı RİNN-in, eləcə də informasiya təhlükəsizliyinin təmin edilməsinə münasibətdə DTX-nin və XRİTDX-nin rəyi əsasında təkliflərin formalaşdırılması və təqdimi | Təhsil müəssisələrində İKT və informasiya təhlükəsizliyi ixtisasları üzrə dövlət sifarişli yerlərin sayının artırılması |
| 2.4. Dövlət qurumlarının əməkdaşlarının, o cümlədən dövlət İKT mütəxəssislərinin rəqəmsal bilik və bacarıqlarının artırılması | RİNN, ETN, aidiyyəti qurumlar | ETN, DTX, XRİTDX | 2025–2027 | Dövlət qurumlarının əməkdaşlarının, o cümlədən dövlət İKT mütəxəssislərinin rəqəmsal bilik və bacarıqlarının artırılması üçün metodologiyanın müəyyənləşdirilməsi | Dövlət qurumlarının əməkdaşlarının, o cümlədən dövlət İKT mütəxəssislərinin rəqəmsal bilik və bacarıqlarını qiymətləndirmək üçün sorğular keçirilməsi və statistik göstəricilər sisteminin qurulması | Dövlət qurumlarının əməkdaşlarının, o cümlədən dövlət İKT mütəxəssislərinin rəqəmsal bilik və bacarıqlarının artırılması üçün proqramların hazırlanması və icrasına başlanılması |
| 2.5. İnnovasiya və İKT icmalarının dəstəklənməsi | Aidiyyəti qurumlar | RİNN | 2025–2027 | İnnovasiya və İKT sahəsində fəaliyyət göstərən icmaların müəyyənləşdirilməsi, lazımi infrastrukturun qurulması və resurslarla təmin edilmənin təşkili, habelə şəbəkələşmə tədbirlərinin keçirilməsi | İnnovasiya və İKT icmalarının inkişafı, müvafiq icmaların sahə üzrə səriştəlilik səviyyəsinin artırılması istiqamətində tədbirlər görülməsi, yeni innovasiya və İKT məhsullarının formalaşdırılması, müvafiq sahədə həyata keçirilən layihələrə maliyyə dəstəyi göstərilməsi və cəlb edilən investisiyaların həcminin artırılması, habelə şəbəkələşmənin genişləndirilməsi | İcmalar tərəfindən formalaşdırılan məhsulların və göstərilən xidmətlərin bazara çıxarılması və tətbiqi ilə bağlı göstəricilərin artması, habelə həyata keçirilən tədbirlərin sosial, iqtisadi və texnoloji cəhətdən cəmiyyətə və iqtisadiyyata təsirinin ölçülməsi |
| **3. Özəl sektorun rəqəmsallaşdırılmasının dəstəklənməsi** | | | | | | |
| 3.1. Sahibkarlıq subyektlərinin rəqəmsal infrastrukturunun gücləndirilməsi və texnoloji adaptasiyasının sürətləndirilməsi | İN | RİNN və digər aidiyyəti qurumlar | 2025–2027 | Sahibkarlıq subyektlərinin rəqəmsal həllərə dair ehtiyaclarının müəyyən edilməsi və sahibkarlığın rəqəmsallaşdırılmasının dəstəklənməsi ilə bağlı təhlillər aparılması | Sahibkarlıq subyektlərinin yüksəksürətli internetə əlçatanlığının təmin edilməsi, müvafiq subyektlərin fəaliyyəti üçün zəruri rəqəmsal həllərin hazırlanması ilə bağlı tədbirlər görülməsi, habelə bulud texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi və subyektlərin rəqəmsal bacarıqlarının artırılması istiqamətində tədbirlərin təşkili | Görülən tədbirlərin sahibkarlıq subyektlərində rəqəmsal inkişaf səviyyəsinin artmasına və proseslərinin optimallaşdırılmasına təsirinin təhlili və əlavə dəstək mexanizmlərinin müəyyən edilməsi |

**9. Akronimlər və ixtisarlar**

RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

ƏƏSMN - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

KTN - Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

SN - Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi

DİN - Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

ƏN- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

DSK - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

XRİTDX - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti

DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

AMEA - Azərbaycan Milli Elmlər Akademiyası.




# Qanlı Yanvardan bütöv Azərbaycana uzanan azadlıq yolu

**Tariximizə həm faciə, həm də qəhrəmanlıq salnaməsi kimi həkk olunan 1990-cı ilin Qanlı Yanvarından 35 il ötür. Bu faciə Azərbaycanın müstəqilliyi amalı ilə ayağa qalxan xalqımızın inam və iradəsini qırmaq, milli azadlıq eşqini boğmaq məqsədi ilə törədilmişdi.**











Qan yaddaşımız olan 1990-cı ilin 20 yanvar tarixi salnamələrimizə sinələrini zülmün topuna, gülləsinə sipər edən, sonunda ölüm olduğunu bilsələr belə əsla istibdada boyun əyməyən neçə-neçə mərd oğul və qızımızın azadlıq uğrunda apardıqları haqq savaşı kimi həkk olunub. Həmin ilin yanvarında qaniçən imperiyanın dəmir caynaqlarını Azərbaycandan söküb atmaq üçün ölümün gözünə dik baxan Aslan Ağaverdiyev, İlham Allahverdiyev, Ülvi Bünyadzadə, Zahir Nuriyev, Vaqif Mirzəyev, Səxavət Quliyev, Tofiq İsmayılov, Azad Mirzəyev, Eldar Məmmədov... kimi vətənpərvər Azərbaycan övladları öz qəhrəmanlıqları ilə hərəsi bir dastan yazıb...

### Şəhidlərimizin qisası alındı

1990-cı ilin yanvarından Azərbaycanın azadlığına uzanan yol 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunması, 2023-cü ildə suverenliyimizin tam bərpası, Qarabağda kök salmış erməni quldurlarının yuvasının dağıdılması ilə öz məntiqi zirvəsinə ucalıb. Bununla həm 20 Yanvarda, həm də digər tarixlərdə həyatlarını Azərbaycanın bütövlüyü, suverenliyi uğrunda qurban verən şəhidlərimizin qisası alınıb.

"Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın ürəyi Şuşanın azadlığının xoş xəbərini Şəhidlər xiyabanından xalqımıza çatdıran zaman söyləmişdi bu fikirləri. Qalib liderin qədim yurdumuz Şuşanın öz əzəli sahiblərinə qaytarılmasının müjdəsini məhz Şəhidlər xiyabanından verməsinin, şanlı Zəfərimizi bu ünvandan dünyaya bəyan etməsinin öz rəmzi mənası var idi. Qarabağın xilaskarı İlham Əliyev şəhidlərimizin uyuduğu bu məkandan qətiyyətlə bildirmişdi ki, bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür!

### Bu qan yerdə qalmadı

Bu tarixi zəfərə yetənə, Qarabağda üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağını dalğalandırana qədər isə çox faciəyə, qan-qadaya tuş gəldik. Xalq olaraq öncə 1980-ci illərin sonlarından açıq müstəviyə keçən erməni fitnəsinə qarşı alovlanan azadlıq hərəkatımızı, haqq səsimizi boğmaq üçün qanlı sovet imperiyası ilə yalın əllə çarpışmalı, 20 Yanvar faciəsini yaşamalı olduq.

1987-ci ilin axırlarında ortaya atılmış qondarma "Dağlıq Qarabağ" problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda, o cümlədən Qarabağın dağlıq hissəsində yaşayan yüzminlərlə azərbaycanlının öz dədə-baba torpaqlarından qovulmasına yönəlmişdi. Ermənistanın təcavüzkar hərəkətlərindən və ovaxtkı SSRİ rəhbərliyinin ermənilərə açıq şəkildə havadarlıq etməsindən hiddətlənən xalqımız azadlıq hərəkatına başlayaraq, Bakının küçələrinə və meydanlarına axışıb haqlı etirazını bildirir, gecə-gündüz milli mübarizə aparırdı. Amma 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu millətimizin azadlıq uğrunda mübarizəsini dayandırmaq, haqq səsini boğmaq üçün geniş xalq kütlələrinə qarşı amansız hərbi əməliyyatlara başladı. Sovet ordusunun böyük hərbi heyətinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi.

Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları da cəlb edilmişdi.

Dinc əhalimizə qarşı xüsusi qəddarlıqla həyata keçirilən "Bakı əməliyyatı" zamanı hətta fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Kütləvi insan qırğını törədildikdən sonra - yəni 1990-cı il yanvarın 20-də səhər saat 5.30-da radio vasitəsilə Bakı şəhər komendantı V.Dubinyak fövqəladə vəziyyət tətbiq edildiyi barədə rəsmi məlumatı efirə vermişdi. Halbuki yanvarın 20-də gecədən başlanmış hərbi əməliyyatlarda tanklardan və müxtəlif təyinatlı zirehli döyüş maşınlarından istifadə edilmiş, Xəzər Hərbi Donanmasına məxsus gəmilərdən şəhərə desant çıxarılmışdı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə təkcə Bakı şəhərində 21 nəfər öldürülmüşdü.

Ümumilikdə 1990-cı ilin yanvarında Bakı və respublikanın digər yaşayış məntəqələrində sovet ordusunun təcavüzü nəticəsində 147 nəfər insan amansızcasına öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu.

Bakının ən uca zirvəsində salınan və Qanlı Yanvar şəhidlərinin uyuduğu, pak ruhlarının dolaşdığı Şəhidlər xiyabanı and yerimiz, müqəddəs ziyarətgahımızdır. Azərbaycan xalqı vətən uğrunda şəhid olan oğul-qızlarını daim dərin hüzn, sayğı və ehtiramla anır.

### Faciəyə ilk siyasi-hüquqi qiyməti Ulu Öndər verib

Azərbaycan xalqının başına gətirilən qanlı faciəyə ilk siyasi-hüquqi qiyməti Ümummilli Lider Heydər Əliyev verib. Ulu Öndər təhlükələrdən çəkinməyərək hadisənin ertəsi günü Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham edib.

"Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə Azərbaycanı qoyub qaçmış Vəzirov öz xalqı qarşısında məsuliyyət daşımalıdır" deyən Heydər Əliyev cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiyməti verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etmişdir.

Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü il martın 29-da Milli Məclis "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etmişdir.

Ümummilli Lider Heydər Əliyev 5 avqust 1998-ci il tarixdə Bakı şəhərindəki Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksinin ucaldılması haqqında sərəncam vermişdir. Açılışı 9 oktyabr 1998-ci ildə olan kompleks səkkizguşəli ulduz üzərində dayanan qızılı rəngdə şüşə günbəzdən, tac qoyulmuş sərdabədən (türbədən) ibarətdir. Sərdabənin divarlarını zərif şəbəkə bəzəyir. Gecə səmasında parlayan qızılı rəngli günbəz Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərin ruhunu təcəssüm etdirir.

2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Şəhidlər xiyabanı rekonstruksiya olunarkən "Əbədi məşəl" abidəsinin sütunları hündürləşdirilib, abidədəki səkkizguşəli ulduz və məsamələri qızılla işlənib.

### Vətən eşqi

Azərbaycan xalqının azadlıq uğrunda haqq mübarizəsinə qalxaraq nəhəng və istibdadçı sovet imperiyasına qarşı cəsarətlə mücadilə apardığı 1990-cı ilin yanvarından 35 il keçir. Ötən 35 ildə millət olaraq 20 Yanvar faciəsi də daxil olmaqla, xeyli ağrı-acılara düçar olmuşuq, soyqırımları ilə, torpaqlarımızın işğalı ilə üzləşmişik. Ancaq azadlığa gedən yolda qarşımıza çıxan heç bir çətinliyə boyun əyməmişik, milli hədəflərimizə çatmaq uğrunda bütün səylərimizi səfərbər etmişik. Elə bu qayə, iradə, vətən eşqimizlə də sonda amallarımıza yetişmişik. Qarabağımızı azadlığına qovuşdurmuşuq, bütöv Azərbaycan missiyamızı qürurla başa vurmuşuq.

2023-cü ilin oktyabrında Xankəndidə Zəfər meydanında - vaxtilə erməni fitnəsinin başladığı ünvanda Azərbaycan bayrağını əbədi dalğalandıran zaman Qarabağın xilaskarı İlham Əliyevin bütün dünyaya bəyan etdiyi kimi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Rostropoviçlərin ev-muzeyində 20 Yanvar faciəsinin qurbanlarının xatirəsi anılıb






Leopold ve Mstislav Rostropoviçlərin ev-muzeyində 20 Yanvar hadisələrinin 35-ci ildönümünə həsr olunan "20 Yanvar - Azadlığın zirvə günü" adlı anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət himni səsləndirilib, faciə qurbanlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən muzeyin icraçı direktoru Günay Əliyeva 20 Yanvar faciəsinin heç vaxt unudulmayacağını, şəhidlərin müstəqilliyimizin əldə olunmasında oynadığı rolu xüsusilə vurğulayıb. O qeyd edib ki, muzeyin qəhrəmanı M.Rostropoviç özünü dərk edəndən insan haqları uğrunda mübarizə aparıb, onlara qarşı haqsızlığı heç vaxt qəbul etməyib. G.Əliyeva bildirib ki, M.Rostropoviç Azərbaycanın problemlərinə də biganə qalmayıb, Bakıya səfəri zamanı öz istəyi ilə bir neçə qaçqın düşərgəsində olaraq yurd-yuvasını itirmiş insanlarla görüşüb və Şəhidlər xiyabanını ziyarət edib.

Daha sonra M.Rostropoviçin Şəhidlər xiyabanı və məcburi köçkün düşərgələrinə etdiyi ziyarətlərindən bəhs edən videoçarx nümayiş olunub. Tədbir "Salnaməfilm" studiyası tərəfindən ərsəyə gəlmiş "Silahdaşlar" sənədli filminin nümayişi ilə davam edib.

Anım tədbirində Bakıdakı 189-190, 150 nömrəli tam orta məktəbin şagirdləri 20 Yanvara həsr olunan şeirlər səsləndiriblər.

# 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş videoçarx hazırlanıb




Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr olunmuş videoçarx hazırlanıb.

Kitabxanadan AZƏRTAC-a verilən məlumata görə, videoçarxda "20 Yanvar faciəsi ədəbiyyatda", "20 Yanvar faciəsi teatrda", "20 Yanvar faciəsi təsviri incəsənətdə", "20 Yanvar faciəsi kinoda", "20 Yanvar faciəsi musiqidə", "20 Yanvar faciəsi memarlıqda" başlıqları altında məlumatlar verilir.

# "Böyük qayıdış" proqramı icra olunur

## Çinin "Dongfang Electronics Corporation" şirkətinin nümayəndələri Füzuli və Hadruta səfər ediblər

**Çinin "Dongfang Electronics Corporation" şirkətinin nümayəndələri Bakıda keçirilən görüşlərindən sonra işğaldan azad olunmuş ərazilərə səfər ediblər.**





AZƏRTAC xəbər verir ki, səfərdə korporasiyanın baş direktor müavini Şitan Cao, Mərkəzi Asiya filialının direktoru Vei Liu, baş menecerin məsləhətçisi Dmitri Jarovski və digər rəsmi şəxslərdən ibarət 9 nəfərlik heyət və "Azərişıq" ASC-nin nümayəndələri iştirak ediblər.

Yanvarın 16-da Füzuli şəhərinə və Xocavənd rayonunun Hadrut qəsəbəsinə gələn qonaqlara dövlətimizin dəstəyi sayəsində qısa zaman ərzində aparılan yenidənqurma işləri barəsində ətraflı məlumat verilib. Səfər zamanı tərəflər arasında elektrik təsərrüfatının müasir standartlara uyğun qurulması və yeni əməkdaşlıqlar sahəsində təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti bu gün Şuşa şəhərinə səfər edəcək.

Qeyd edək ki, Bakıda keçirilmiş COP29 tədbiri çərçivəsində "Azərişıq" ASC Çin Xalq Respublikasının "DongFang Electronics" şirkəti ilə yeni qarşılıqlı əlaqələr və əməkdaşlıq məqsədli danışıqlar aparıb. Davam edən əməkdaşlıq çərçivəsində "Azərişıq" ASC-nin rəhbər heyəti 2024-cü il dekabrın 5-də Çinin Yantay şəhərində yerləşən "DongFang Electronics" şirkətinin təqdim etdiyi innovativ texnologiyalar, məhsullar və beynəlxalq layihələr barədə məlumat əldə etmək məqsədilə görüş keçirib.

Xatırladaq ki, "DonqFang Electronics" şirkəti "Ağıllı Şəbəkə" sistemlərinin yaradılması və idarə edilməsi sahəsində böyük təcrübəyə malik olmaqla, bu yöndə bir çox ölkədə uğurlu layihələr həyata keçirib. Bundan başqa şirkət günəş panellərinin, enerji saxlama sistemlərinin və SCADA vasitəsilə idarəetmə həllərinin istehsalında ixtisaslaşıb. Bu sistemlərin tətbiqi ilə enerji istehlakında qənaət təmin olunur. Buna misal olaraq Ukraynada enerji saxlama deposu və Şandonq əyalətində 22 MVt gücündə günəş örtüyü panelləri layihələri uğurla reallaşdırılıb.

Səfər zamanı "DonqFang Electronics" şirkətinin istehsal müəssisələri ilə tanışlıq həyata keçirilib. Burada amorf nüvəli üçbucaq tipli transformatorlar, yüksək dəqiqlikli hesabat sayğacları və kameralı sayğac qutuları nümayiş etdirilib. Smart sayğaclar xüsusi diqqət çəkib, çünki onlar müasir rabitə protokolları (RS, GPRS, PLC) ilə təchiz olunub və qaz, su, elektrik enerjisi üçün birgə sayğac funksiyası təklif edir.

Əməkdaşlığın davamı olaraq "Dongfang Electronics Corporation"ın rəhbər heyəti Bakıya səfər edib. Yanvarın 13-19-nu əhatə edən səfər çərçivəsində korporasiyanın baş direktor müavini Şitan Cao, Mərkəzi Asiya filialının direktoru Vei Liu, baş menecerin məsləhətçisi Dmitri Jarovski və digər rəsmi şəxslərdən ibarət heyət "Azərişıq" ASC-nin rəhbər şəxsləri ilə görüş keçirib. Bu əməkdaşlıq tərəflər arasında innovativ yeniliklər və təcrübə mübadiləsi məqsədi daşıyıb.

"Dongfang Electronics Corporation"ın nümayəndə heyətinin səfəri yanvarın 19-da başa çatacaq.

## Şitan CAO: "Azərbaycanda "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik"

**"Hazırda şirkətimizlə "Azərişıq" SCADA sistemi, Qarabağ regionunun "ağıllı elektrik şəbəkəsi"nin qurulması və "yaşıl enerji"nin inkişafı sahəsində əməkdaşlıq edir. Biz Azərbaycanın "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulmasına və "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik".**




AZƏRTAC xəbər verir ki, bu sözləri Hadrut qəsəbəsində jurnalistlərə müsahibə verən "Dongfang Electronics Corporation" Baş direktor müavini Şitan Cao söyləyib.

O qeyd edib ki, 2024-cü ilin noyabr ayında Çin geniştərkibli nümayəndə heyəti ilə Bakıda keçirilən COP29 konfransında iştirak edib. Bu tədbir çərçivəsində Çinin "Dongfang Electronics Corporation" şirkətinin İdarə Heyətinin sədri Fang Zhengji "Azərişıq" ASC-nin rəhbər heyəti ilə dostcasına görüşərək səmimi müzakirələr aparıb. "2024-cü ilin dekabr ayında "Azərişıq" ASC-nin nümayəndə heyəti Çinə, "Dongfang Electronics Corporation"a səfər edib. Tərəflərin qarşılıqlı səfərləri gələcək əməkdaşlıq üçün möhkəm təməl qoyub. Bu günlərdə biz Azərbaycana gəlib "Azərişıq"ın əməkdaşları ilə dərin müzakirələr apararaq müxtəlif obyektlərə baş çəkmişik. Biz gördük ki, "Azərişıq" "ağıllı şəbəkə" ("Smart grid") və "yaşıl enerji" ("Green energy") sahəsində çox yaxşı ideya və təşəbbüslərə malikdir və bu istiqamətlərdə innovativ yeniliklər həyata keçirir. "Dongfang Electronics Corporation" qlobal səviyyədə tanınmış Çin enerji şirkəti olaraq dünyanın 50-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət elektrikpaylayıcı və ötürücü sistemlər üzrə tam sənaye zəncirinə və həll yollarına malikdir, həmçinin "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulması və tikintisi, elektrik SCADA sistemlərinin inkişafı və tətbiqi, "yaşıl enerji"nin inkişafı və tikintisi sahəsində zəngin təcrübəyə sahibdir. Buna görə də "Azərişıq" ilə "Dongfang Electronics Corporation" arasında əməkdaşlıq üçün yaxşı baza və böyük potensial mövcuddur. Bu gün biz Qarabağa səfər etdik və müharibənin dağıdıcı izlərini, xarabalığa çevrilmiş evləri gördük. Lakin eyni zamanda, müharibədən sonrakı bərpa işlərinin çox sürətlə irəlilədiyinə şahid olduq. Yollar, evlər və enerji infrastrukturu da daxil olmaqla bir çox sahədə müasir texnologiyalardan istifadə edilir. Bu, Azərbaycan Prezidenti və xalqının böyük nailiyyətidir. Biz Füzuli yarımstansiyasına baş çəkdik və bu yarımstansiyanın inşasında rəqəmsal texnologiyaların tətbiq edildiyini gördük. Mütəxəssislərimiz bu texnologiyaları yüksək qiymətləndirdilər. Hazırda şirkətimizlə "Azərişıq" SCADA sistemi, Qarabağ regionunun "ağıllı elektrik şəbəkəsi"nin qurulması və "yaşıl enerji"nin inkişafı sahəsində əməkdaşlıq edir. Biz Azərbaycanın "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulmasına və "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik", - deyə bildirib.

Onun sözlərinə görə Azərbaycan xalqının qonaqpərvərliyi və mehribanlığı dərindən hiss edilir.

# Cəbrayıl daha 153 sakinini qarşıladı

**İşğaldan azad olunmuş ərazilərimizdə dövlətimizin öz gücü hesabına həyata keçirdiyi iri-miqyaslı bərpa-quruculuq işləri sürətlə davam edir. Gündən-günə abadlaşan, gözəlləşən Qarabağ və Şərqi Zəngəzur mərhələli olaraq sakinlərinə qovuşur.**





İşğaldan azad edilmiş digər şəhər və kəndlərimizlə yanaşı, el-obalarından didərgin salınmış cəbrayıllılar da dədə-baba yurdlarına qayıdırlar. Bu qayıdış karvanları həyatın ən çətin, ən ağır üzünü görmüş insanları əzəli torpaqlarına qovuşdurur.

Dünən Cəbrayıl şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə şəhərə daha 32 ailə - 153 nəfər köçürülüb. Bununla da indiyədək Cəbrayıl şəhərində 358 ailənin, yəni 1487 nəfərin daimi məskunlaşması təmin edilib.

### "Dövlət başçımıza həmişə güvənmişik"

Uzun illərin həsrətindən sonra torpaqlarına qovuşan cəbrayıllıların sevinci üz-gözlərindən duyulur. Bir daha Cəbrayılı görməyəcəyini düşündüyünü söyləyən keçmiş məcburi köçkün Çərkəz Quliyev deyib ki, bu gün onun həyatının ən sevincli günüdür: "Belə gözəl günləri yaşadığım üçün özümü çox qürurlu hiss edirəm. Dövlət başçımıza həmişə güvənmişik, düz də etmişik. Həmişə də onun yanında olacağıq. Başda Ali Baş Komandan olmaqla, Milli Ordumuzun hər bir üzvünə, hər bir zabit və əsgərinə bizə bu günləri yaşatdığı üçün öz minnətdarlığımı bildirirəm. Torpaqlarımız uğrunda həyatlarını qurban vermiş şəhidlərimizə rəhmət diləyirəm. Mən öz rəhbərliyimizlə, xalqımızla, ordumuzla, mübariz oğullarımızla fəxr edirəm".

30 ildən çoxdur bu günün xəyalı ilə yaşadığını deyən Məhəmmədəli İsayev ömrünün ən gözəl çağlarını yaşadığını dilə gətirir. Keçmiş məcburi köçkünün sözlərinə görə, Cəbrayıla qayıtmaq həmişə onun namazlarında, dualarında, arzularında, xəyallarında olub: "Bu gün bütün dualarımızın qəbul olunduğu gündür. Sevincimizi sözlərlə ifadə etmək mümkün deyil. Cəbrayıla köçəndən sonra Allah ömür versə, yaşayacağam, verməsə də, bu dünyadan gözüaçıq getməyəcəyəm. Ölsəm də, dərdim olmaz, dünyadan arxayın gedərəm".

Böyük sevinc və qürurla evinə, doğma ocağına qayıtdığını deyən cəbrayıllı Şərqiyyə Abbasovanın sözlərinə görə, bu hissləri sözlərlə izah etmək mümkün deyil: "44 günlük müharibədə biz xalq olaraq "dəmir yumruq" kimi birləşməyi öyrəndik. Allah bizim xalqımızın birliyini qorusun! Azərbaycan ərazi bütövlüyünü öz gücü, qüdrəti hesabına təmin etmiş suveren, qüdrətli dövlətdir. Azərbaycanlı olduğumuz üçün qürur duyuruq. 33 yaşımda çıxmışdım Cəbrayıldan. Yoldaşımı itirdim, dörd yetimlə 30 il köçkün həyatı yaşadım. Amma bu yaşadığım çətinlik bu qələbə sayəsində gözümdə heçə döndü. Doğma torpağımıza - Cəbrayılımıza qızım və nəvələrimlə gəldim. İgid oğullarımız sıldırım qayaları, aşılmaz sədləri aşaraq adlarını tarixə yazdılar. Bundan sonra minillər keçsə də, bizim bu şanlı tariximizi heç bir qüvvə silə bilməz".

### 10 min nəfərdən çox keçmiş məcburi köçkün yurduna qovuşub

Məqsədyönlü və genişmiqyaslı işlər sayəsində Qarabağ və Şərqi Zəngəzurda əhalinin məskunlaşması təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarımızda yeni yollar çəkilir, infrastruktur layihələri həyata keçirilir, tarixi-mədəniyyət və dini abidələr bərpa olunur.

Böyük qayıdış proqramına əsasən, ilk beşillikdə 34 min 500 ailə azad edilmiş ərazilərə köçürüləcək. Bu istiqamətdə davamlı məqsədyönlü tədbirlər həyata keçirilir. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 358 ailə (1487 nəfər) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 68 ailə (373 nəfər) məskunlaşıb. Ümumilikdə 2713 ailə - 10685 nəfər ocağına geri dönüb. Həyata keçirilən davamlı tədbirlər sayəsində tezliklə bütün işğaldan azad edilmiş şəhər və kəndlərdə həyat yenidən öz axarına qayıdacaq.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

## Növbəti köç karvanı Cəbrayıl şəhərinə çatıb

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Cəbrayıl şəhərinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.**

AZƏRTAC xəbər verir ki, Cəbrayıl şəhəri bu gün 32 ailə olmaqla 153 nəfərə qucaq açıb. Doğma şəhərinə ayaq basan ailələr sevinc göz yaşları ilə öz dədə-baba yurduna qovuşublar. Onlar böyük coşqu ilə qarşılanıblar və Cəbrayıl şəhərində yaradılan gözəlliyi seyr ediblər. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər. Köçürülən ailələrin Cəbrayıl şəhərində dövlət başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.

# 32 ailəyə evlərin açarları təqdim olundu





**Dünən növbəti köç karvanı ilə Cəbrayıl şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, Cəbrayıla qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 30 minə yaxın insan yaşayır.





# Ötən ilin yekunları

## ÜDM istehsalı 4,1 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə ölkə üzrə 126,3 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3, qeyri-neft-qaz sektorunda 6,2 faiz artmışdır.

ÜDM istehsalının 35,9 faizi sənaye, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 19,9 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 12 min 382,5 manata bərabər olmuşdur.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 1000 manata yaxındır

**Ötən il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 775,3 min nəfər olmuşdur. Onlardan 884,4 min nəfəri iqtisadiyyatın dövlət, 890,9 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Muzdla işləyənlərin 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 12,9 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 15,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Keçən ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 996,8 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Məlumatı Dövlət Statistika Komitəsi açıqlamışdır.

## 11 ayda 3 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac olunub

**2024-cü ilin 11 ayında Azərbaycan dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 120 ölkəyə məhsul ixrac, 167 ölkədən idxal olunmuşdur.**

DSK bildirir ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-noyabr aylarında ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 42 milyard 813,7 milyon dollar təşkil etmişdir. Ticarət dövriyyəsinin 24 milyard 42 milyon dollarını (56,2 faizini) ölkədən ixrac olunmuş məhsulların, 18 milyard 771,7 milyon dollarını (43,8 faizini) idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 5 milyard 270,3 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,1 faiz artmış, real ifadədə 3,1 faiz, o cümlədən ixrac 5,4 faiz azalmış, idxal 0,6 faiz artmışdır.

2024-cü ilin yanvar-noyabr aylarında qeyri-neft-qaz məhsullarının ixracı 3 milyard 090,6 milyon dollar təşkil etmiş və 2023-cü ilin yanvar-noyabr aylarına nisbətən faktiki qiymətlərlə 1,9 faiz artmış, real ifadədə 11 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, ölkənin xarici ticarət dövriyyəsinin 23,9 faizi İtaliya, 13,0 faizi Türkiyə, 10,2 faizi Rusiya, 7,9 faizi Çin, 3,5 faizi ABŞ, 3,3 faizi Almaniya, 2,8 faizi Avstraliya, 2,4 faizi Çexiya, 2,2 faizi Hindistan, 2,0 faizi Xorvatiya, 1,8 faizi İsrail, 1,7 faizi Gürcüstan, hər biri 1,5 faiz olmaqla Bolqarıstan, Portuqaliya və Birləşmiş Krallıq, 1,4 faizi İran, 1,3 faizi Yunanıstan, hər biri 1,1 faiz olmaqla Rumınıya və Belarus, hər biri 1,0 faiz olmaqla İsveçrə, Qazaxıstan və Ukrayna, 12,9 faizi isə digər ölkələr ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

# Bakı Limanı Xəzər regionunda əsas logistika qovşağı kimi fəaliyyətini genişləndirib

**Dünyanın diqqət mərkəzində olan Orta dəhlizin qlobal ticarət marşrutu kimi xüsusi önəm daşıdığı barədə çox yazılıb, çox danışılıb. Buna baxmayaraq bir daha xatırlatmaq istərdik ki, bu dəhliz yüklərin tez və təhlükəsiz çatdırılması ilə fərqlənir. O üzdən yük göndərən və yük qəbul edən tərəflər Orta dəhlizə üstünlük verirlər.**



Onu da xatırladaq ki, marşrutun yeni fəaliyyətə başladığı dövrdə hamını maraqlandıran əsas məsələ yüklərin Xəzər dənizi üzərindən necə aşırılması idi. Çünki yüklərin Xəzərin və ümumiyyətlə, bütün su hövzələrinin bir sahilindən digərinə daşınması həm mürəkkəb, həm də vaxt aparan bir prosesdir. Dünya logistikasında "dar boğazlar" adlı bir termin var. Bu, yüklərin göndərilməsinin ləngidiyi bir nöqtə kimi başa düşülür, yəni "dar boğazlar" yüklərin vaxtında çatdırılmasına mane olur.

Bu baxımdan ilk dönəmlərdə Xəzər dənizi üzərindən yüklərin aşırılmasının problem olacağı da istisna deyildi. Lakin Prezident İlham Əliyev belə problemin yaranmasına imkan vermədi, vaxtında Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşasına qərar verməklə bu istisnanı, necə deyərlər, istisna etdi. Başqa sözlə, bununla yüklərin Xəzər aşırı mərhələsində "dar boğazlar" problemi aradan qalxmış oldu.

1994-cü ildə Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisi üçün 400 hektar ərazi ayrıldı. Limanın akvatoriyasında dərinləşdirmə işlərini Hollandiyanın "Van Oord" şirkəti həyata keçirdi. Həmin qurum tərəfindən uzunluğu 7,5 kilometr, eni 160, dərinliyi 7 və dönmə dairəsinin diametri 450 metr olan giriş-çıxış kanalı inşa olundu. Bu isə Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasına imkan verirdi.

Bərə körpüsünün ümumi tikinti sahəsi 17 hektar ərazini əhatə edir. Burada eyni vaxtda 2 bərəni qəbul edə bilən, uzunluğu 175, eni 12,5 metr olan əsas yanalma körpüsü inşa edilib. Dəniz səviyyəsindən 4,25 metr hündürlükdə tikilmiş körpü Xəzərdə suyun səviyyəsinin dəyişməsindən asılı olmayaraq gəmilərin yanalmasına imkan yaradır. Bərə körpüsünə xidmət üçün hər birinin uzunluğu 79 metr olan dəmir yolu-bərə birləşdirici 2 körpü və uzunluğu 809 metr olan bir xidməti körpü inşa edilib. 5 dəmir yolu xəttindən ibarət çeşidləmə parkı, müasir naviqasiya-rabitə sistemləri, avtomobil yolu, tunel, həmçinin digər infrastruktur və kommunikasiya obyektləri və qurğuları da istismara hazırdır.

Birinci mərhələdə limanın yükaşırma qabiliyyəti ildə 10 milyon ton yük və 50 min konteynerdən ibarət olacağı proqnozlaşdırılmışdır. İkinci mərhələdə limanın yükaşırma gücü 17 milyon ton yük və 150 min konteynerə, üçüncü mərhələnin yekununda isə 25 milyon ton yük və 1 milyon konteynerə çatdırılması nəzərdə tutulmuşdur. Limanda layihə üzrə logistika mərkəzinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. İlkin mərhələdə burada 100 min konteynerin saxlanması və yük sahiblərinə müxtəlif növ xidmətlər göstərmək mümkündür.

Hazırda Bakı Limanı Avrasiyada regionun əsas nəqliyyat və logistika qovşağı kimi yüklərin Şərqdən Qərbə və əks istiqamətə daşınmasında önəmli rol oynayır. Yeni Bakı Limanı ölkəmizi qərblə (Türkiyə və Aİ), cənubla (İran və Hindistan) və şimalla (Rusiya) birləşdirən nəqliyyat qovşağı kimi beynəlxalq əhəmiyyət daşıyır. Eyni zamanda, Azərbaycanın müxtəlif rayonlarına yaxın ərazidə yerləşməsi əlverişli qovşaq kimi bu limanın regionlarla əlaqə qurmaq imkanını, həmçinin daşınan yüklərin həcmini artırır. Bundan əlavə, yeni limanın yerləşdiyi ərazi ölkənin daxili rayonlarını birləşdirən mövcud avtomobil və dəmiryolları ilə kəsişir. Azərbaycan daxilindən keçən üç beynəlxalq dəmiryolu xətti məhz Ələtdə qovuşur:

Orta Dəhliz marşrutunun mühüm hissəsi olan Bakı Limanında ötən il ərzində aşırılan yükün ümumi həcmi 7,6 milyon ton olub ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən 3,2 faiz çoxdur. Bakı Limanından ötən il ərzində konteyner daşınmasında 73, ümumi yükaşırma həcmində 3, təkərli texnikanın daşınmasında 7 faizdən çox artım olub.

Keçən il ayrı-ayrı sahələr üzrə ən böyük artımlardan biri Bakı Limanında aşırılan konteynerlərin sayında qeydə alınıb. 2024-cü ildə Bakı Limanında 76,775 TEU ekvivaletində konteyner aşırılıb ki, bu da 2023-cü illə müqayisədə 73 faizlik artım deməkdir. Ötən il Bakı Limanında qəbul edilən və yol salınan təkərli texnikaların sayı isə 58169 ədəd olub ki, bu da 2023-cü ildəkindən 7,2 faiz çoxdur. Eyni zamanda, 2024-cü ildə limanda aşırılan quru yükün həcmi 1 milyon 44 min tondan çox, vaqon sayı isə 37515-dən yüksək olub. Bu göstəricilər də əvvəlki illə müqayisədə çoxdur. Keçən il ümumi yükaşırmanın 5,3 milyon tondan çox hissəsi, yəni 70 faizi tranzit yüklərin payına düşüb. Bu göstəricilər üçüncü ölkələrin Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizlərinə, xüsusən Orta Dəhlizə olan marağın nəticəsidir.

Göründüyü kimi, liman Avropa və Asiya bazarlarına xidmət göstərərək bu qitələri birləşdirən mühüm beynəlxalq logistika şəbəkəsinin bir hissəsi olmaqla Xəzər dənizi regionunda əsas logistika qovşağı kimi çıxış edir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Paytaxtda müasir nəqliyyat sisteminin qurulması davam edir

**Son illər Azərbaycanda müasir nəqliyyat sisteminin qurulması, bu sektorun səmərəli idarə olunması istiqamətində böyük uğurlar əldə olunub. Xüsusən Bakının nəqliyyat sisteminin inkişafı və küçə-yol şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl səmərəli tədbirlər görülüb.**



Bu cür yanaşma paytaxtın ictimai nəqliyyat sisteminin daha modern inkişafını və genişləndirilməsini, nəqliyyat yerdəyişmələrinin təmin edilməsində ictimai nəqliyyatın xüsusi payının artırılmasını, şəhərin nəqliyyat planlaşdırma strukturunun tamamlanmasını və əsas marşrutlar arasında fiziki və məntiqi bağlılığı təmin edir. Sərnişinlər üçün daha sərfəli və rahat nəqliyyat olan metronun inkişafı və genişləndirilməsi, dəmiyolu və velosiped yolları şəbəkəsinin təkmilləşdirilməsi, həmçinin xüsusi ictimai nəqliyyat zolaqları şəbəkəsinin şaxələndirilməsi və s. məhz bunun nəticəsidir. 2024-cü ildə bu sadalananlar fonunda görülən işlərlə bağlı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib ki, Bakıda mobilliyin transformasiyası çərçivəsində görülən işlərin məqsədi vətəndaşların rahatlığı və təhlükəsizliyini təmin etməkdir. Bu proses səmərəli ictimai nəqliyyat sisteminin formalaşması, infrastrukturun yaradılması və yenilənməsini nəzərdə tutur.

Paytaxt yollarında islahatlar kompleks şəkildə aparılır, dəyişikliklər rahatlığın təmin olunmasına xidmət edir. Mühüm dəyişikliklərdən biri Bakı küçələrində xüsusi hərəkət zolaqlarının yaradılmasıdır. Aparılan monitorinqlərin nəticəsinə əsasən, bu cür zolaqların salınmasından sonra avtobusların marşrut üzrə gediş vaxtı bəzi küçələrdə 18-22 dəqiqəyə qədər azalıb, əksər hallarda interval qısalıb, sərnişinlərin sayı isə əhəmiyyətli dərəcədə artıb. Hazırda ümumi uzunluğu 100 kilometrdən çox olan xüsusi zolaqlar paytaxtın 30-dan çox küçə və prospektini əhatə edir. Bu zolaqlarla hərəkət edən avtobuslar gün ərzində 900 minə yaxın sərnişin daşıyır.

Yeni marşrutların yaradılmasından danışan nazir müavini vurğulayıb ki, bu proses optimallaşdırma məqsədilə aparılan təhlillər əsasında davam edir: "Ötən ilin sonlarında metronun "20 Yanvar" stansiyası ilə Sumqayıt avtovağzalını birləşdirən yeni marşrut xətti fəaliyyətə başlayıb. Bunun nəticəsində təyinat məntəqəsinə orta hesabla 30 dəqiqəyə çatmaq olur. Metronun "Avtovağzal" stansiyasından Sumqayıta gedən 595 nömrəli avtobuslarla birlikdə gün ərzində 10 mindən çox sərnişin daşınır. Ötən il paytaxtda yeni müntəzəm marşrut şəbəkəsinin tətbiqi çərçivəsində isə 20, 120, 120E, 121E, 140 və 140E nömrəli avtobuslar xəttə buraxılıb. Həmin marşrut şəbəkəsinin genişləndirilməsi və daha çox əhalinin əlçatanlığının təmin edilməsi istiqamətində işlər davam etdirilir".

Qeyd edək ki, Bakının nəqliyyat mübadilə mərkəzləri (HUB) 2024-cü ildə yaradılıb. Bakıda 3 HUB-un istifadəyə verilməsi müxtəlif nəqliyyat növləri arasında keçid imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Söhbət metronun "Gənclik" və "28 May" stansiyalarının qarşısı, eləcə də "Koroğlu" stansiyasının cənub çıxışındakı qovşaqlardan gedir. "28 May" və "Koroğlu" HUB-larını digərlərindən fərqləndirən əsas xüsusiyyət onların multimodal olması, yəni dəmiryolu, metro və avtobus dayanacaqlarını birləşdirməsidir. Eyni zamanda metronun "Koroğlu" stansiyasının şimal çıxışında və Bakı Beynəlxalq Avtovağzal Kompleksinin ərazisində yerləşən nəqliyyat mübadilə mərkəzləri də səmərəli fəaliyyət göstərir.

Şəhər mobilliyinin inkişafında Bakı Metropoliteninin rolunu danmaq olmaz. Nəqliyyat sıxlığının azaldılması üçün metropolitenin genişləndirilməsi və mövcud infrastrukturun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Bu çərçivədə yerli və xarici mütəxəssislərin iştirakı ilə paytaxtın nəqliyyat proqramı hazırlanır. Prezident İlham Əliyevin tapşırığına əsasən, yaxın illərdə metronun 10 yeni stansiyasının tikintisi nəzərdə tutulur. Ötən il isə COP29 tədbiri çərçivəsində 35 yeni vaqon alınaraq komplektləşdirilib və nəticədə yeni nəsil vaqonların sayı 150-yə çatdırılıb. Bu yeniliklər sərnişinlər üçün daha rahat və təhlükəsiz səfərləri təmin edəcək.

Bakıda avtobus parkının yenilənməsi, velosiped yolları şəbəkəsinin genişləndirilməsi, elektrik skuterləri üçün parklanma prosesinin başlanması 2024-cü ildə şəhər nəqliyyat sisteminin müasirliyindən xəbər verir. COP29 ərəfəsində ölkəmizə gətirilən 160 elektrik avtobusu artıq paytaxtda müxtəlif marşrutlarda işləyir. Özəl şirkətlər də bu yaxınlarda daha 85 ekoloji təmiz texnologiyalı avtobus alıb. Bunlarla yanaşı, 200-dən çox avtobus təmir edilərək istifadəyə verilib. İndi onların parkı rekord həddə - 2170-ə çatıb.

Ötən il əsaslı yenidənqurmadan sonra istifadəyə verilən Xaqani bağının ətrafında avtomobillərin hərəkətinin tamamilə məhdudlaşdırılması və piyada zonasının yaradılması layihəsi də təqdirəlayiqdir. Tarixi abidələrlə zəngin Əziz Əliyev küçəsində avtonəqliyyat vasitələrinin hərəkətinin tam məhdudlaşdırılması Nizami küçəsindən başlayan piyada ərazini Dənizkənarı Milli Parkadək genişləndirməyə imkan verir. Metronun "28 May" stansiyasının qarşısındakı meydanın abadlaşdırılması isə buranı geniş piyada zonasına çevirib.

Nazir müavini onu da bildirib ki, şəhər mühitinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verən bu dəyişikliklər 2025-ci ildə də davam edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Qazancımızın yarısı ərzağa xərclənir

**2024-cü ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 62,2 milyard manatlıq, o cümlədən 34,1 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 28,1 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır.**

2023-cü illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,9, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,1, qeyri-ərzaq malları üzrə 6,3 faiz artmışdır.

DSK bildirir ki, hesabat dövründə əmtəə bazarı bu göstəricilərlə xarakterizə olunmuşdur: 2024-cü ildə əhalinin pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,5 faizi ərzaq məhsullarının, 4,4 faizi içkilər və tütün məmulatlarının, 14,5 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,5 faizi avtomobil benzini və dizel yanacağının, 4,8 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,9 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Hesabat ilində qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki illə müqayisədə real ifadədə 3,9 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir. 2023-cü illə müqayisədə 2024-cü ildə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 8,6, fərdi sahibkarlar üzrə 1,8, bazar və yarmarkalarda 3,4 faiz artmışdır.

Hesabat ilində pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 508 manatlıq, o cümlədən 278,8 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 229,2 manatlıq qeyri-ərzaq malları almışdır.

## 941,7 min hektara payızlıq bitkilər səpilib

**Ölkədə bu ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmaq üzrədir və cari il yanvar ayının 1-i vəziyyətinə 941,7 min hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir.**

Səpin aparılmış sahənin 99 faizi (932,2 min hektarı) dən üçün payızlıq bitkilər olmuşdur ki, onun da 505,5 min hektarı buğda, 426,6 min hektarı arpa, 0,1 min hektarı çovdar əkinlərinin payına düşür.

DSK-nin məlumatına görə, ən çox buğda bitkisi Cəlilabad (47,0 min ha), Şamaxı (28,0 min ha), Füzuli (25,2 min ha), Hacıqabul (23,2 min ha), Şəki (21,9 min ha), Ağcabədi (21,0 min ha), İsmayıllı (20,1 min ha) və Qobustan (14,3 min ha) rayonlarında, ən çox arpa bitkisi Şəki (38,1 min ha), Kürdəmir (33,6 min ha), Neftçala (26,6 min ha), Biləsuvar (24,1 min ha), Ağsu (19,6 min ha), Qobustan (14,8 min ha) və Cəlilabad (13,4 min ha) rayonlarında səpilmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 8,2, o cümlədən buğdanın səpin sahəsi 15,5 faiz azalmış, arpanın səpin sahəsi 2,3 faiz artmışdır.





# Mədəniyyət





Mərasimlər

# Mifopoetik ənənələrdə çillələr

**Türk xalqlarının mifik düşüncəsində qışın sonuna qədər davam edən müddət təbiətin "ölüb-dirilməsi"dövrü kimi qəbul edilmiş, həmin zaman kəsiyi obrazlaşdırılmış və insanların təfəkküründə canlanmışdır. Təbiətin "ölüb dirilmə" dövrü Azərbaycanda çillə və yaxud çilə, Anadoluda çilə, çilə ayı kimi xalq arasında yayılmışdır.**



Çillə sözü etimoloji cəhətdən həm "cehl" sözü ilə bağlı olub qırx rəqəmi ilə əlaqələndirilir, həm də "çillə" türk xalqları arasında əziyyət, məhrumiyyət, sıxıntı və çətinlik mənalarını ifadə edir. Təsadüfi deyil ki, qışın çətinliklərini, əzab-əziyyətini dəf etmək üçün əcdadlarımız müəyyən ayinlər, mərasimlər sistemini yaratmışlar.

Bəzi bölgələrimizdə "Qaraqış" adlandırılan böyük çillə qırx gün - dekabrın 21-dən yanvarın sonunadək davam edir. Böyük çillənin ilk gecəsi "Şəbi-yelda", yaxud "Yelda gecəsi" adlanır.

İslamaqədərki bayramlarımızdan biri də dekabrın 21-dən 22-nə keçən gecə qeyd olunan Yeldadır. Yelda gecəsi Yer kürəsinin Şərq yarımkürəsində, ilin 365 gününün ən uzun qaranlıq gecəsidir. Yer kürəsinin Günəş ətrafında bir dəfə tam dövrü bir il ərzində 365 günə gerçəkləşir. Astronomik bilgilərə görə, "bu müddətdə Ay həm öz, həm də Yer kürəsi ətrafında on iki dəfə dövr etmiş olur. Bu, Ay təqviminə görə, tam bir ilə bərabərdir. Lakin Yer kürəsi bu dövrü tamamlayıb başlanğıc nöqtəsinə gəldikdə, Ay hələ həmin nöqtəyə gəlib çatmır. Yer kürəsinin Ayla eyni başlanğıc nöqtəsində görünməsi üçün on doqquz il keçməlidir. On doqquz illik bir müddət astronomiyada "meton oli" adlanır. Yəni Ay təqvimi on doqquz ildən bir düzəldilməlidir. Bu on doqquz ilin yeddi ili artıq 355 günlük, on ikisi isə tam illərdir, yəni 354 günlükdür, burada 355-in tək, 354-ün cüt ədəd olduğunu nəzərə alsaq, başqa bir həqiqət ortaya çıxır. Qurani-Kərimdə "il" mənasını verən "sənə" kəlməsindən (tək halda) yeddi, "illər" mənasını verən "sinnin" kəlməsindən isə (cəm halda) on iki dəfə istifadə olunmuşdur ki, onların cəmi 19-dur" .

Çillələrdə ayrı-ayrı ayinlər, mərasimlər icra olunar, onların mahiyyəti, özəllikləri müvafiq nümunələrdə xalq dilində diqqətə çatdırılardı. Məsələn, Azərbaycanın bir çox bölgəsində keçirilən "çillə kəsmək" mərasimi ağırlığı, çətinliyi aradan qaldırmaq məqsədilə icra olunurdu. Ayinə görə, birinin çilləsini kəsən çilləsi kəsilənin əl və ayaqlarının baş barmaqlarını üç dəfə ağ iplə bağlayıb deyir:

*Həzrət Süleyman eşqinə,*
*Çin qızı Mərcan hökmünə,*
*Bəni adəmdən, bəni-heyvandan,*
*Cindən, şeytandan, axar sudan.*
*Köklü ağacdan, dibli qayadan,*
*Yeddi yolun ayrıcından*
*Hər kəsin çilləsinə düşübsə,*
*Çilləni kəsdim...*

İnanca görə, bu ayinin yerinə yetirilməsi ilə insan əzab-əziyyətdən, müşküldən azad olur, yüngülləşir, çətinlikləri arxada qoyur, yeni həyata başlayır.





Çillələrlə, o cümlədən Böyük çillə ilə bağlı xalq arasında müxtəlif şifahi örnəklər yaranıb formalaşmış və yaddaşlara həkk olunmuşdur:

*Böyük çillə,*
*Boyu bir belə...*
*Gəldi elə*
*Gülə-gülə,*
*Getdi gülə-gülə...*

Göstərilən mətndə Böyük çillə təbiətcə mülayim, insana ziyan vurmayan bir tərzdə şəxsləndirilərək folklorumuza daxil olmuşdur. Böyük çillə ilə bağlı xalq arasında müəyyən mətnlər də bu gün diqqəti cəlb edir: "Belə söyləyirlər ki, bir gün Böyük çillə deyir ki, "Mən dolu qazanlar üstə gəlmişəm. Sonra təndirləri yandırtdım, kürsüləri qurdurdum, küplərin, çuvalların ağızlarını açdırdım"...

Böyük çillə 40 gün dövran sürüb gedir. Yolda Kiçik çillə ilə rastlaşır. Hal-əhvaldan sonra Kiçik çillə soruşur ki, a Böyük çillə, de görüm, qırx gün gəlib atını çapdın, bu qırx gündə nə gördün, neynədin, işin-gücün nə oldu? Böyük çillə nə gördüyündən, nə etdiyindən söhbət açır.

Hikkəli Kiçik çillə istehza ilə gülüb cavab verir ki, eh, sən heç nə eləməmisən ki... Mən gəlmişəm, gör indi nələr eləyəcəyəm, nə tufan qoparacağam. Qazanları ağzı üstə çevirəcəyəm, adamları təndirin ağzından salıb külfədən çıxaracağam, küpləri, xaralları boşaldacağam, üzüqoylu qoyub gedəcəyəm. Onun coşduğunu görən Böyük çillə "çox da öyünmə, sən insanları tanımırsan" deyir. Mən qırx günlük ömrümlə bir iş görə bilmədim. Sənin isə cəmi-cümlətanı iyirmi günlük ömrün var. Bu iyirmi gündə heç yel də olub onların yanından ötə bilməzsən. Çünki qabağın yazdır, ömrün də azdır. Bu yandan da Boz ay özünü irəli verib deyir ki, siz məni uzaqda görmüsünüz, hə asaram-kəsərəm deyirsiniz. Sizin acığınıza, indi baxın, görün mən gedib nə eləyəcəyəm. Buzları əridəcəyəm, torpağın donunu açacağam, əkinləri, çölləri, yamacları cücərdəcəyəm. Bağ-bağçalarda gül-çiçək açdıracağam"... Göründüyü kimi, qış fəslinin ayrı-ayrı mərhələlərini təşkil edən Böyük çillə, Kiçik çillə və Boz ayın səciyyəvi xüsusiyyətlərini, gücünü-qüvvətini aydın şəkildə ifadə edən bədii mətnlər təbiət hadisələrinə olan münasibəti, təbiət qüvvələrinə olan inamı bir daha əks etdirən amillərdəndir. Kiçik çillənin cəmi iyirmi gün - fevral ayının 1-dən 21-nə qədər davam etməsinə, ömrünün az olmasına baxmayaraq daha sərtdir, buna görə də həmin müddət xalq arasında "qışın oğlan çağı" adlanır. Kiçik çillənin sərt təbiəti müvafiq nümunələrdə qorunub saxlanmışdır, onlardan birini oxuculara təqdim edirik:

*Kiçik çillə...*
*Boyu bir belə...*
*Hikkəsi ir belə...*
*Gəlişi oldu*
*Haynan,*
*Gedişi oldu*
*Vaynan...*

Göründüyü kimi, bu folklor nümunəsi Kiçik çillənin özü ilə müşküllük, əziyyət gətirməsi və nəhayət insanların qışı başa vurub yaza çıxması arzu və istəkləri ilə bağlı yaranmış, erkən təsəvvürlərdə mifik obrazlar şəklində şəxsləndirilmişdir. Qışın ilk ongünlüyündə türk xalqlarının folklorunda bolluq, firavanlıq etiqadları ilə bağlı yaranmış "Xıdır Nəbi" mərasiminin xüsusi yeri vardır. Bu, qışın çıxması münasibətilə keçirilən Novruzqabağı mərasimlərdəndir. Ümumilikdə, Xıdır xalqın şifahi yaddaşında müsbət, xeyirxah insana uğur gətirən bir obraz kimi əks olunmuşdur. İnanca görə, Xıdır Nəbi mərasimi hər evdə, hər ailədə qeyd olunmalı, Xıdırın şərəfinə məclis qurulmalı, süfrələr açılmalıdır. Əgər hər hansı bir evdə həmin gün süfrə açılmazsa, Xıdır küsüb gedəcək, baharın gəlişini yubadacaqdır. Mərasimin əsas atributlarından biri qovutdur, buğda qovrulub qovut çəkilir və süfrəyə qoyulur. Etiqada görə, Xıdır əlini qovuta çəkir, bununla da özü ilə bolluq, bərəkət, xoşbəxtlik gətirir.

Qış fəslinin son ayı Boz aydır. Boz ay Kiçik çillənin sonuncu günündən Novruz bayramına qədər davam edir, xalq arasında həm də Boz çillə, Ala çillə, yazayağı və sair adlandırılır. Boz ayda hava dəyişkən keçir, ona görə də xalq arasında belə bir deyim yaranmışdır ki, "Boz ay bozara-bozara keçər". Azərbaycanın bəzi bölgələrində Boz aya döl ayı da deyilir, xalq arasında "Boz ayınız bozarsa da döl ayıdır ki, döl ayı" ifadəsi buna bariz nümunədir. Həmin müddətdə xalq arasında mərasimlər keçirilər, ayinlər icra edərdilər, məsələn, bir oğlan uşağını qoçun belinə mindirib sürünün içinə buraxardılar, yaxud qoyun sürüsünün yanında vəhşi heyvandan, canavardan danışmazdılar. Bütün bunlar xalqımızın mifik təsəvvürləri ilə bağlı yaranmış inanc və etiqadlar sisteminə daxildir. Boz ayla bağlı mifoloji təsəvvürləri əks etdirən folklor mətnlərinin birində oxuyuruq: "Çox qədim zamanlarda insanlar ay haqq-hesabını bilmirdilər, elə ona görə də günü-günə, ayı-aya qarışdırırdılar. Bu çaşbaşlıq insanları belə qənaətə gətirir ki, ili aylara, ayları isə günlərə bölsünlər. İlə 12 ay, hər aya isə 32 gün verirlər. Ancaq bölgü vaxtı Boz aya cəmi 14 gün düşür. İnciklik olmasın deyə hər aydan bir gün götürüb boz ayın günlərinə əlavə edirlər. Görürlər ki, yenə də haqsızlıq baş verdi, hər ayın 31 günü, Boz ayın isə cəmi 25 günü oldu. Onda yenidən aylara müraciət edirlər ki, hərəniz 1 gün də boz aya verin. Ayların yarısı razılaşır, yarısı isə razılaşmır; nəhayət, biri 1, digəri 2, fevral isə hətta 3 gününü verir. Beləliklə, Boz ay olur 31 gün. Ancaq öz günlərini ilin müxtəlif fəsillərindən olan aylardan aldığı üçün günün biri hava baxımından o birisinə oxşamır"...

Boz ay Novruz bayramına qədər olan mərhələdə dörd həftəlik çərşənbələri əhatə edir. Yerin Günəş ətrafında hərəkəti ilə fəsillərin bir-birini əvəz etməsi, qışdan sonra yazın gəlməsi, gecə ilə gündüzün bərabərləşməsi Şimal yarımkürəsində yaşayan xalqlar tərəfindən təntənə ilə qeyd edilir. Tarixin yaddaşından süzülüb gələn folklorumuzda çillələrlə, Boz ayla bağlı zəngin ayin və etiqadlar sistemi təbiətin oyanmasını, suyun, havanın, torpağın istiləşməsini, yeni əmək mövsümünün başlanmasını bütün etnoqrafik detallarla birgə tərənnüm edən Novruz bayram silsiləsinin mahiyyətini dünya xalqlarına çatdırmağa imkan verir.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru,***
***filologiya elmləri doktoru***

# Türkiyədə Azərbaycan ədəbiyyatının tədqiqatçıları ilə görüş təşkil olunub

**Türkiyədəki səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində qardaş ölkədə Azərbaycan ədəbiyyatı üzrə araşdırmaçılar, tanınmış ədəbiyyatşünas alimlər, Türk dünyası ədəbiyyatı üzrə fəaliyyət göstərən tədqiqatçılarla görüş keçirilib və onlarla gələcəkdə birgə əməkdaşlıq, ədəbiyyatımıza dair layihələr müzakirə edilib.**



Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrimizin inkişafından danışıb. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin, tarixinin və dilinin təbliği işini genişləndirmək məqsədilə Türkiyədə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradıldığını qeyd edib.

O, görüşün əsas məqsədinin də Azərbaycan-Türkiyə mədəni-ədəbi əlaqələrinin daha da genişləndirilməsinə dəstək göstərmək, türk dünyasının ortaq dəyərləri, şifahi və yazılı abidələrimizin təbliği, Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin irslərinin öyrənilməsi, təbliği, ədəbiyyatımızın ortaq aktual problemləri və onların həlli yollarına dair layihələrin həyata keçirilməsi, klassik irsimizin Türkiyə türkcəsinə tərcüməsi, bu istiqamətdə ortaq layihələrin reallaşdırılması və s. dair əməkdaşlığın müzakirə edilməsi olduğunu bildirib.

S.Abbasov bu istiqamətdə görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verib və dünya mədəniyyətinə, ədəbiyyatına böyük töhfələr verən Azərbaycan, türk dünyası ədəbiyyatının tədqiqi və təbliğinin zəruriliyindən danışıb.

Görüşdə qeyd olunan mövzularda çıxışlar olub, alimlərin bu mövzuda fikirləri, təklifləri öyrənilib və gələcəkdə bu istiqamətdə aparılacaq işlərə dair yol xəritəsinin hazırlanması razılaşdırılıb.

Müzakirələrdə Azərbaycan-Türkiyə ədəbi əlaqələri, dünyaya böyük töhfələr vermiş ölkəmizin zəngin ədəbiyyatı, ortaq tədqiqat əsərlərinin, monoqrafiyaların, elmi məqalələrin hazırlanması, poeziya gecələrinin, müsabiqələrin təşkili, elmi-tədqiqat, ali təhsil ocaqları ilə əlaqələrin genişləndirilməsi, tədqiqat mövzularında Azərbaycan, türk dünyası ədəbiyyatı ilə əlaqədar dissertasiyaların öyrənilməsi və maraqlı mövzuların təşviq edilməsi, nəşrinin həyata keçirilməsinə dair fikir mübadiləsi aparılıb.

Ədəbiyyatçı alimlər görüşün əhəmiyyətini qeyd edərək, gələcəkdə ədəbiyyatımızın aktual problemləri, təbliğat və tədqiqat layihələri, habelə ədəbi əlaqələrimizin genişləndirilməsinə dəstək məqsədilə Azərbaycan Mədəniyyət Mərkəzinin yanında ədəbiyyatçı alimlərdən ibarət ictimai əsaslarla "Ədəbiyyatımızın könüllü tədqiqatçıları və təbliğatçıları" qrupunun yaradılması təklifini səsləndirib.

Qeyd edək ki, görüşdə Türkiyədə Azərbaycan və türk dünyası ədəbiyyatına dair tədqiqatçı alimlər - professorlar İsmet Çetin, Ayşe Yücel, Osman Çeviksoy, Fatma Ahsen Turan, Hayrettin İvgin, Nuray Tamir, Təhminə Bədəlova, Hebibe Yazıcı Ersoy, gənc tədqiqatçılar Batuhan Aydın və Atabey Barış iştirak ediblər.

# Mirvarid Dilbazi Poeziya Məclisinin təşəbbüsü ilə Xətai Sənət Mərkəzində sərgi açılıb

Mirvarid Dilbazi Poeziya Məclisinin təşəbbüsü, təşkilatçılığı və Xətai Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Papaq qeyrətimizdir, kəlağayı ismətimiz" adlı layihə çərçivəsində Xətai Sənət Mərkəzində sərgisi açılıb.



Mirvarid Dilbazi Poeziya Məclisindən bildirilib ki, layihənin məqsədi xalqımızın folklor yaddaşından gələn bu milli geyim nümunələrini yaşatmaq, tanıtmaq və gələcək nəsillərə ötürməkdir. Layihə çərçivəsində bu il həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda milli dəyərlərimiz olan papaq və kəlağayının geniş şəkildə təbliği planlaşdırılır.

Diqqətə çatdırılıb ki, aprel ayında "Papaq və kəlağayı festivalı" keçiriləcək və festivalda Azərbaycanımızın bölgələrindən olan papaq və kəlağayı ustaları öz əl işlərini sərgiləyəcəklər.

Həmçinin layihə çərçivəsində silsilə tədbirlər 2025-ci ilin sonunadək davam edəcək.

# "Nizami: daxili aləm" filmi ilk dəfə mavi ekranda




Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr edilmiş "Nizami: daxili aləm" sənədli filmi ilk dəfə televiziyada nümayiş olunacaq.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi tərəfindən Nizami Gəncəvi yaradıcılığının əbədiləşdirilməsi və beynəlxalq səviyyədə daha geniş təbliğinə töhfə vermək məqsədilə sifariş edilən film beynəlxalq auditoriya üçün nəzərdə tutulub.

İngilis dilində lentə alınan sənədli filmdə görkəmli tarixçilər, ədəbiyyat və mədəniyyət xadimlərinin böyük şairin zəngin yaradıcılığı haqqında fikirləri yer alıb.

Ekran işinin ssenari müəllifi Kristina Lin Morelli, rejissoru və prodüseri Atakan Kerküklü, operatorları Miya Lusia Keyhli Padcet və Ceremi Stefan Fut, montaj redaktoru Bahəddin Dastandır.

# Akademik Milli Dram Teatrında yeni bədii şura formalaşıb

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yeni bədii şura formalaşıb. Teatrın Mətbuat xidmətindən verilən məlumata görə, 2023-cü ilin sonunda yaradılan bədii şura birillik uğurlu fəaliyyətdən sonra öz işini başa vurub.**



Teatrın yeni bədii şurasının sədri Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, sədr müavini Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, məsul katibi Akademik Milli Dram Teatrının ədəbi dram hissəsinin rəhbəri Cavid Zeynallıdır. Bədii şuranın üzvləri sırasında Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin teatr sektorunun müdiri Böyükxanım Talıbova, Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Hacı İsmayılov, Xalq artistləri Rafiq Əzimov, Nurəddin Mehdixanlı, Bəsti Cəfərova, Firəngiz Mütəllimova, Sabir Məmmədov, Əməkdar artist Füzuli Hüseynov və sənətşünaslıq üzrə fəlsəfə doktoru, teatrşünas Elçin Cəfərov yer alıb. Şuranın fəxri üzvləri isə Xalq yazıçısı Elçin Əfəndiyev və Xalq yazıçısı, akademik Kamal Abdullayevdir.

# "Ledi Maqbet" tamaşası yenidən dram teatrının səhnəsində

Akademik Milli Dram Teatrında "Ledi Maqbet" tamaşası yenidən nümayiş olunacaq.



Teatrdan bildirilib ki, Uilyam Şekspirin "Maqbet" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın rejissoru Əməkdar artist Nicat Kazımov, quruluşçu rəssamı Samirə Həsənova, bəstəkarı Azər Hacıəsgərli, rəqslərin quruluşçusu Lalə Hacıyeva, rejissor assistenti Ceyran Başarandır. Yeni səhnə əsərində rolları xalq artistləri Bəsti Cəfərova, Sabir Məmmədov, əməkdar artistlər Elşən Rüstəmov, Məsmə Aslanqızı, Aslan Şirin, Elşən Cəbrayılov, Elnar Qarayev və digər aktyorlar ifa edəcəklər.

"Ledi Maqbet"də personajlar tarixi şəxsiyyətlərdir. Tamaşa qisas arzusunun, şöhrətpərəstliyin və təqsirkarlığın ifrat dərəcəsini göstərir.

# Leyla Əliyevanın təşəbbüsü ilə Yevlaxda uşaqlara ustad dərsləri keçirilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yevlax şəhərində yerləşən "Gənclər Məkanı"nda uşaqlar üçün rəsm və art-terapiya mövzularında ustad dərsləri keçirilib.





AZƏRTAC xəbər verir ki, "Nine Senses" İncəsənət Mərkəzinin müəllimləri tərəfindən regionlarda yaşayan uşaqlar üçün ilk dəfə keçirilən ustad dərsləri onların asudə vaxtının səmərəli təşkilinə yönəlib. İnnovativ üsulla rəsm və animasiya vasitəsilə uşaqların yaradıcılıq qabiliyyətinin və potensialının üzə çıxarılması, onların daha faydalı işlə məşğul olmaları, eləcə də gələcək fəaliyyət və peşə istiqamətlərini müəyyən etməyə töhfə verilməsi ustad dərslərinin əsas məqsədlərindəndir.

Ustad dərsləri ərzində uşaqlar müxtəlif alət və ləvazimatlardan istifadə edərək rəsm çəkmək üçün tələb olunan ilkin bilikləri mənimsəmiş, habelə incəsənət vasitəsilə dərs həyəcanının aradan qaldırılması, asudə vaxtın səmərəli planlaşdırılması texnikası ilə tanış olublar. Uşaqlar üçün maraqlı və əyləncəli keçən, ən əsası da faydalı olan ustad dərsləri valideynlərin də rəğbətini qazanıb və dərslərin davamlı olması arzusunu ifadə ediblər.

Qeyd edək ki, qazanılmış təcrübə və müsbət fikirlərə əsaslanaraq, bu və digər mövzularda ustad dərslərinin ölkəmizin digər regionlarında da təşkili nəzərdə tutulur.

# "Qəbələ - İdman Paytaxtı 2025"in açılış mərasimi olub

Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Qəbələ - İdman Paytaxtı 2025"in açılış mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan tədbir müxtəlif idman növləri üzrə federasiyaların üzvlərinin paradı ilə başlayıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərin və Bakı-Qroznı reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" QSC-yə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət himni səsləndirilib.

Quba Rayon İcra Hakimiyyətinin başçısının müavini Səidə Abbasova Qəbələnin bu şərəfli işi layiqincə yerinə yetirəcəyinə əminliyini bildirib. O, 2024-cü il üçün Azərbaycanın "İdman paytaxtı" seçilmiş Qubanın il ərzində gördüyü işlərdən, əldə etdiyi nailiyyətlərdən bəhs edib.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanova qeyd edib ki, əsas məqsəd Qubanın təcrübəsindən istifadə etməklə əhali arasında idmana marağı artırmaq, sağlam həyat tərzini təbliğ etməkdir. Qəbələnin bu il keçiriləcək MDB Oyunları üçün "Gənclər paytaxtı" seçildiyini xatırladan Ə.Osmanova bu regionun belə möhtəşəm layihədə yer almasının sevindirici hal olduğunu vurğulayıb.

Gənclər və idman naziri Fərid Qayıbov Qəbələdən olan idmançıların çoxluq təşkil etdiyini, onların gələcəkdə Azərbaycanı beynəlxalq arenada uğurla təmsil edəcəklərinə inandığını deyib. O, "İdman paytaxtı" çərçivəsində il ərzində Qəbələ şəhərində bir çox yarış və tədbirlərin keçiriləcəyini diqqətə çatdırıb. Nazir görüləcək işlərin çox olduğunu, lakin Qəbələnin bu missiyanı uğurla yerinə yetirəcəyini, yaxşı nəticələr əldə olunacağını söyləyib.

Rəsmi çıxışlardan sonra F.Qayıbov idman paytaxtının rəmzi açarını Ətayə Osmanova təhvil verib. Daha sonra "Qəbələ - İdman Paytaxtı 2025"in maskotu "Marşal" ictimaiyyətə təqdim olunub.

2024-cü ilin idman səfirləri seçilən bədii gimnastika üzrə millinin keçmiş üzvü Aliyə Paşayeva, veteran futbolçu İlqar Qurbanov, sabiq cüdoçu Orxan Səfərov və milli idman növləri üzrə məşqçi Xəyyam Orucov da çıxış ediblər. Onlar Azərbaycan bayrağı altında çıxış edən bütün idmançılara uğurlar və yeni-yeni qələbələr arzulayıblar.

Tədbir bədii hissə ilə davam edib. Müxtəlif idman növlərini təmsil edən atletlər musiqi sədaları altında məharətlərini nümayiş etdiriblər. Sonda konsert proqramı təşkil olunub.

Qeyd edək ki, Qəbələ şəhəri 2023-cü il dekabrın 7-də Gənclər və İdman Nazirliyi Kollegiya iclasında keçirilmiş səsvermə nəticəsində 2025-ci il üçün Azərbaycanın "İdman paytaxtı" seçilib.

# *Romina Xurşid ALAM:* "İqlim dəyişikliyi ilə mübarizədə COP29-da atılmış addımlar olduqca əhəmiyyətlidir"

"İqlim dəyişikliyi ilə mübarizədə Bakıda keçirilmiş COP29-da atılmış addımlar olduqca əhəmiyyətlidir".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Pakistanın Baş nazirinin iqlim dəyişikliyi və ətraf mühit üzrə koordinatoru Romina Xurşid Alam İslamabadda Beynəlxalq Xilasetmə Komitəsinin təşkil etdiyi "Humanitar Gələcək" adlı tədbirdə söyləyib. O, təbii fəlakətlərin zərərlərinə qarşı hazırlığı artırmaq, onların iqtisadi, sosial və ətraf mühitə təsirlərini azaltmaq üçün güclü iqlim risklərinin idarə edilməsi strategiyalarına təcili ehtiyac olduğunu vurğulayıb.

Dövlət rəsmilərinin, yerli və beynəlxalq humanitar agentliklərin nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edən Romina Xurşud Alam Bakıda keçirilən COP29-da qlobal mübarizə, iqlim ədaləti, iqlimə uyğun ağıllı kənd təsərrüfatı layihələri, bərpaolunan enerji həlləri, Pakistanın yaşıl bərpa planı, təbiətə əsaslanan həllər və müxtəlif iqlim maliyyələşdirmə təşəbbüsləri də daxil olmaqla, iqlim dəyişikliyi ilə mübarizədə irəli sürülən mühüm addımlar barədə məlumat verib.

O, həmçinin Pakistanın su təchizatı məsələsində buzlaqlardan və çaylardan artan asılılığını vurğulayıb. Ölkənin kənd təsərrüfatında kəskin su çatışmazlığı ilə üzləşdiyini qeyd edib.

Baş nazirin koordinatoru fəlakət riskinin maliyyələşdirilməsinin qlobal itki və zərər gündəliyinə daxil edilməsinin vacibliyindən danışıb. O bildirib ki, bu yanaşma iqlim dəyişikliyi ilə bağlı artan xərcləri idarə etmək üçün proaktiv tədbir deməkdir.

**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Cenevrədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ali səviyyəli toplantısı işə başlayıb

İsveçrənin Cenevrə şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 31-ci ali səviyyəli toplantısı işə başlayıb.



Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, BMT-nin Cenevrə ofisi ilə tərəfdaşlıq çərçivəsində keçirilən və yanvarın 17-dək davam edəcək toplantı 40-dan çox nüfuzlu lideri bir araya gətirib.

Tədbirə 25-dən çox ölkəni təmsil edən sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri qatılıblar.

Qeyd edək ki, toplantının açılış mərasimində mərkəzin həmsədri Vayra Vike-Freyberqa, BMT-nin Cenevrə Ofisinin baş direktoru Tatyana Valovaya, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Dorin Boqdan Martin, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev və Finlandiyanın sabiq prezidenti Tarya Halonen çıxış ediblər.

"İnkişaf etməkdə olan ölkələr üçün DİM-lərin maliyyələşdirilməsi", "COP29: Vəddən tərəqqiyə", "Sağlamlıq və iqlim dəyişikliyi yaşıl rəqəmsal fəaliyyətin tətbiqi" kimi qlobal mövzuları əhatə edən bu tədbir bu il keçiriləcək 12-ci Qlobal Bakı Forumuna hazırlıq məqsədi daşıyır.

Xatırladaq ki, bu, Mərkəzin BMT-nin Cenevrə ofisi ilə birgə təşkil etdiyi 4-cü toplantıdır.

# Hərbi hissələrdə görüşə müvəqqəti məhdudiyyət qoyulub

Ölkəmizdə qış mövsümündə havaların soyuq keçməsi ilə əlaqədar mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma hallarının artması müşahidə olunur. Bununla əlaqədar adaptasiya dövründə olan gənc əsgərlərin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə onlarla görüşə müvəqqəti məhdudiyyət qoyulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hərbi hissələrin qapalı və ictimaiyyətlə məhdud ünsiyyət şəraitində olması komandir-rəis heyəti və hərbi tibb personalı tərəfindən hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə effektiv qabaqlayıcı tədbirlərin keçirilməsinə imkan yaradır.

Şəxsi heyətlə maarifləndirici söhbətlərin aparılması, onlara düzgün qidalanma və fərdi gigiyena qaydalarının, gündəlik fəaliyyətlər zamanı kompleks profilaktik tədbirlərin vacibliyinin çatdırılması sayəsində yoluxma hallarının qarşısının alınması təmin edilir.

Respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması məqsədilə görülən tədbirlərin effektivliyinin təmin edilməsini nəzərə alaraq ictimaiyyətdən hərbi qulluqçuların sağlamlığına həssaslıqla yanaşmağı, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamağı və hərbi hissələrə getməməyi xahiş edilir.

# Yaponiyalı alim Azərbaycanın qədim əhalisinin antropologiyası üzrə tədqiqatlar aparıb

Yaponiyanın Sapporo Tibb Universiteti Tibb Elmləri Məktəbinin anatomiya professoru Hirofumi Matsumura "Kəllə-sima dəyişkənliyinin əsasında insanın anatomik məskunlaşma formasını anlamaq üçün ikitəbəqəli model rekonstruksiyası" (Reconstruction of Two Layer Model to understand Anatomical Model Human (AMH) dispersal based on human craniofacial variability) layihəsi çərçivəsində AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi Fondunda olub.



İnstitutdan AZƏRTAC-a bildirilib ki, beynəlxalq layihənin əsas məqsədi iqlimə uyğunlaşma nəticəsində insanın kəllə-sima quruluşunun dəyişmə dinamikasını tədqiq etməkdir. Bu dəyişkənliyin qanuna uyğunluqlarının araşdırılması ovçu-yığıcıların və daha sonra əkinçi-maldarların yer üzünə yayılaraq yeni ərazilərdə məskunlaşmasını, özlərindən əvvəlki əhali ilə qarşılıqlı təsirlərini öyrənmək baxımından böyük əhəmiyyət daşımaqdadır. İnstitutun Elmi Fondunda müxtəlif dövrlərə aid insan kəllə sümükləri toplandıqdan sonra Traseoloji və eksperimental arxeoloji laboratoriyada bərpa işləri və 3D geometrik-morfometrik çəkilişlər aparılıb.

Yaponiyalı mütəxəssisi Hacettepe Universitetinin Antropoloji bölümünün rəhbəri professor Yılmaz Selim Erdal müşayiət edib. Tədqiqatda AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları da iştirak ediblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü

**ŞƏMSƏDDİN XANBABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi

**ŞƏMSƏDDİN XANBABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3276
Sifariş 85

Qiyməti 60 qəpik